زردوشت بئله دئدی

(هامی‌نین و هئچ کیمین کیتابی)

فرئدریک نیچه

چئویرن: آیبنیز عابباسووا

کؤچورن: همت شهبازی

ائلئکترون نشر: 1395

زردوشت بئله دئدی

(هامی‌نین و هئچ کیمین کیتابی)

فرئدریک نیچه

چئویرن: آیبنیز عابباسووا

کؤچورن: همت شهبازی

ائلئکترون نشر: 1395

http://dusharge.blogfa.com

ایچلیک‌لر:

زردوشتون مقدمه سی 8
فوق‌الانسان و سونونجو انسان حاققیندا..... 8
زردوشتون نیطقلری 28
اوچ چئوریلمه حاققیندا 28
فضیلت کافئدراسی حاققیندا 30
"او بیری دونیا"نین مشتاقلاری حاققیندا 34
بدنه نیفرت ائدنلر 38
سئوینج و احتراصلار حاققیندا 41
رنگی قاچمیش جانی حاققیندا 43
اوخو و یازی حاققیندا 46
داغدا کی آغاج حاققیندا 49
اؤلوم واعیظلری حاققیندا 52
حرب و حربچیلر حاققیندا 54
یئنی بوت حاققیندا 57
بازار میلچکلری حاققیندا 60
عیصمت حاققیندا 64

دوست حاققیندا 66
مین بیر مقصد حاققیندا 69
یاخین آدامینا محبت حاققیندا 72
یارادانین یوللاری حاققیندا 74
جاوان و قوجا آروادلار حاققیندا..... 77
ایلانین سانجماسی حاققیندا 80
اوشاق و عایله حاققیندا..... 82

Www.kitabxana.org سیته‌سی‌نین رئداکتوروندان:

اینتئرنئت کیتابخانامیزین اوخوجولارینا تقدیم ائتدییمیز بو متن ف. نیتسشئنین " زردوشت بئله دئدی " اثرین، یالنیز بیرینجی بؤلمه سیدیر. افسوسلار اولسون کی، ترجومه نین مؤلیفی - گؤزل موتخصیص و دیرلی انسان آیینیز خانیم عابباسووا اثرین بیرینجی بؤلمه‌سینی ترجومه ائلدندن سونرا رحمته گئتدی. بونونلا بئله بو یاریمچیق متنی اوخوجولاریمیزا تقدیم ائتمک قرارینا گلمیشیک: اومیدواریق کی، بو متن اوخوجولاریمیزدا نیتسشئنین یارادیجیلیغینا جوزی ده اولسا تصوور یاراداجاق و ماراق اویاداجاق.

حیکمت حاجیزاده

ترجومه‌چی‌دن :

دونیانین بوتون مترقی اؤلکه‌لرینده نیچه چیلیک آپاریجی فلسفی جریانلاردان بیری ساییلدیغی، 20 –جی عصر فلسفی جریانلاری‌نین اکثریتی‌نین (حیات فلسفه سی، پراگماتیزم، اگزیستئنسیالیزم و س.) دونیانین بیر چوخ گؤرکملی یازیچی و شاعیرلری‌نین اونون تعلیمیندن بهرلندیی حالدا، اؤلکه میزده نیچه ایرثی مستقل‌لیک دؤورونه قدر غئیر رسمی شکیلده یاساق ائدیلمیشدی. حاضیر کی دؤورون حقیقت ایشیغیندا نیچه نین ایندییه جن "فاشیزم ایدئولوگییاسی‌نین قایناغی" کیمی تقدیم اولونان یارادیجیلیغینا ماراق خئیلی آرتمیش، دونیانی محوریندن اویناداان بو تئلیم اؤز لاییقلی قیمتینی آلماغا باشلامیشدیر.

نیچه اؤزو بو اثر باره ده بئله یازیر: "بو یا پوئزییا، یا بئشینجی اینجیل، یا دا نسه هله آدی اولمایان بیر شئی دیر؛ بو منیم اثرلریمین ایچریسینده ان جیددیسی، ان اوغورلوسودور" .

آلمان فیلوسوفلاری بو اثری "سئچیلمیش انسانلارین بیبلییاسی حساب ائدیر. نیچه نین طلبه سی، مشهور فیلوسوف پئتئر گاست اونو مقدس کیتابلارین ان مقدسی ساییر، "زردوشت"-ون سطیر بَسطیر شرح اولوناجاغی گونون اوزاقدا

اولمادیغینی سؤیله‌ییر. نیچه ایرثینه بیر عصر سونرا موراجیعت ائتمیش آذربایجان ادبیاتیندان بو شرحی گؤزله مک هله‌لیک چتین اولسا دا سون ایللر اونون یارادیجیلیغینا ماراق موقایسه اولونماز درجه ده آرتمیشدیر. 1992 ایلده "خزر" ژورنالی‌نین بیر نئچه ساییندا "زردوشت"ون تورکجه دن چئویرمه سینده بعضی پارچالار درج اولونموشدو. آلمان دیلیندن 1993 ایلده ائدیلمیش بو ترجومه نین "دده قورقود" ژورنالی‌نین اوخوجولارینا داها ماراقلی اولاجاغی اومیدی ایله اونو اوخوجولارین محاکمه سینه وئریریک.

آیبنیز عابباسووا

"زردوشت"ون مقدمه‌سی

.1

فوق‌الانسان و سونونجو انسان حاققیندا

اوتوز یاشین تامامیندا زردوشت وطنینی و وطنین گؤلونو ترک ائدیب داغلارا چکیلدی. دوز اون ایل روحو و تنهالیغیندان حظ آلیب بوندان اوسانمادی. آخیر کی، قلبینده دؤنوش اولدو - بیر صاباح شفقله بیرگه اویاندی، اوزونو گونشه توتوب بئله دئدی:

"اولو اولدوز! اگر ایشیقلاندیردیغین کسلر اولماسایدی، سنین خوشبخت‌لیین نه یه دؤنردی؟! دوز اون ایل سراسر منیم ماغارامین اوزرینه قالخدین: من اولماسایدیم، منیم غارتالیم، ایلانیم اولماسایدی، سن ایشیغیندان دویار، تنگه گه‌لر و بو یول سنی بئزدیرردی.

آمما بیز هر سحر سنی گؤزله‌ییر، سنین آرتیغینی قبول ائدیر و سنه خئییر- دوعا وئریردیک.

بیر باخ! من حددن آرتیق بال توپلامیش آری کیمی اؤز مودریک‌لییمدن تنگه گلمیشم؛ منه اللر لازیمدیر، منه ساری اوزادیلمیش اللر.

عاغیللی انسانلار عاغیل سیزلیقلاری، کاسیبلار ایسه زنگین‌لیکلری ایله یئنی دن فرحلَنَنه دک بؤلوشمک و پای وئرمک ایسته‌ییرم.

بونون اوچون من آشاغی ائنمه‌لییم: نئجه کی، بونو سن ائدیرسن - دنیزلره دالاراق، دونیانین عکس طرفینه ایشیق آپاراراق، ائی زنگین اولدوز!

من، یانلارینا ائنمک ایسته دییم انسانلارین آدلاندیردیغی - غروب ائتمه‌یی سنین کیمی باجارمالییام.

خئییر-دوعا وئرسنه منه، ائی گؤزو توخ، حتتا ان بؤیوک سعادته بئله حسد آپارمادان باخان!

بو آشیب-داشماغا حاضیر پیاله یه خئییر-دوعا وئر کی، او ایچینده‌کی قیزیلی سویو آخیتسین و سنین نشئه نین پاریلتیسینی عالمه یایسین!

بیر باخ، بو پیاله یئنه بوشالماق و زردوشت ده یئنیدن انسان اولماق ایسته‌ییر."

- زردوشتون غروبو بئله باشلادی.

.2

زردوشت تک-تنها داغلاری ترک ائتدی. بیر اینس-جینس گؤرونموردو. آمما مئشه‌یه تزه جه گیرمیشدی کی، قاباغیندا بیتکی کؤکلری آختارماق اوچون اؤز کوماسینی ترک ائتمیش پیرانی بیر قوجا پئیدا اولدو. قوجا زردوشتو گؤرچک دئدی:

- "بو سیاح منه تانیش گلیر: نئچه ایل اؤنجه او بوردان کئچیب، آدی زردوشت دور، آمما چوخ دییشیب.

او واخت داغلارا گولو گئدیردی، ایندی آتشیله دره‌لری یاندیرماقمی ایسته‌ییر؟ آتش پرست‌لرین جزاسیندان قورخمورمو گؤرن؟

هه، تانیدیم زردوشتو. اوز-گؤزوندن نور تؤکولور.

زردوشت یامان دییشیب. اوشاق ایدی، کامیل انسانا دؤنوب: یاخشی بو اؤلو جاماعاتین یانینا گئتمکده قصدین نه‌دیر؟

تنهالیق سنی دنیز کیمی آغوشونا آلمیشدی. ایندی ده ساحیله چیخماق خیالینا دوشموسن؟ سنده هئچ قورخو دئییلن شئی یوخدورمو؟ تزه دن جسده دؤنمکدن قورخمورسانمی"؟

زردوشت جاواب وئردی: " من انسانلاری سئویرم " .

- " بس من نییه مئشه‌یه چکیلمیشم، نییه اؤزومده دفن اولونموشام؟ اونا گؤره دئییلمی کی، انسانلاری قدریندن آرتیق سئویردیم؟

ایندی یالنیز آللاهی سئویرم. انسانلاری سئومیرم داها. انسان منیم نظریمده ناتامام، یاریمچیق مخلوقدور. انسانا محبت منی آخیریما چیخاردی " .

زردوشت جاواب وئردی: "من محبتدن دم وورمورام آخی؟ انسانلارا بخشیش وئره‌جه‌یم".

"اونلارا هئچ نه وئرمه، - قوجا دیللندی، - باجار نه‌لری وار اللریندن آل، اونلارا بئله لازیمدیر. اگر وئرمک ایسته‌ییرسنسه، صدقه وئر اونلارا، اؤزو ده آسانلیقلا یوخ، ایلان کیمی دیل چیخاراندان، دیزین-دیزین سوروننندن سونرا " !

"یوخ، - زردوشت اونون سؤزونو کسدی. - من صدقه پایلایاجاق قدر میسکین دئییلم " .

زردوشتون سؤزلری قوجانی گولدوردو: "گؤر هئچ سنین خزینه نی سایا سالاجاقلارمی؟ اونلار بیز غریب‌لردن شوبهه‌لنیر؛ بیزیم بیر شئی وئره بیله‌جه‌ییمیزه اینانمیرلار.

کوچه‌لرده تنها آددیم سسلریمیز اونلاری هورکودور. ائله کی گئجه واختی بیر آدامین گئتدیینی گؤردولر، اورکلرینه یوز قارا-قورخو دولور، اؤز-اؤزلرینه سوال ائدیرلر کی، گؤره سن بو اوغرو کیمین ائوینی یاراجاق؟

انسانلار آراسینا گئتمه، قال مئشه ده! یا دا یاخشیسی بودور حئیوانلارین یانینا یوللان! نییه آخی منیم کیمی اولماق ایسته میرسن؟ آییلارلا، قوشلارلا موصاحیبه‌لیک ائتمه‌یین نه‌یی پیس دیر"؟

" ائی پیر، سن مئشه ده نه ایش گؤرورسن آخی»؟

اختیار جاوابیندا: "من ماهنی قوشور، نغمه‌لر دئییر، ایسته‌ینده گولور، ایسته ینده آغلاییر، آللاهیمی اوره‌ییم ایسته‌ییینجه مدح ائدیرم، - دئدی.

من آللاهی، اؤز آللاهیمی نغمَمده، گولوشومده، گؤز یاشلاریمدا یاد ائدیرم. یاخشی، سنین بخشیشین نه اولا بئله"؟

بو سؤزلری ائشیدن زردوشت احتیراملا دئدی: "من سیزه نه وئره بیله رم کی؟ منی تئز باشدان ائله‌یین، چیخیب گئدیم کی، باری هئچ نه‌ییینیزی گؤتورمه‌ییم". بئله‌جه آیریلدیلار. آیریلارکن بو یاشلی-باشلی کیشیلر ایکی ساده دیل اوشاق کیمی گولوردولر.

ائله کی زردوشت تک قالدی، اؤز-اؤزونه سؤیله‌دی: "سن بیر ایشه باخ! بو قوجا پیر مئشه ده هر شئی دن خبرسیز یاشاییر. هله ایندییه جن بیلمیر کی، آللاه اؤلموشدور!»

.3

زردوشت راستینا چیخان بیرینجی شهره گیرنده بوتون اهالینی بازار مئیدانینا ییغیشان گؤردو. شهره های دوشموشدو کی، کندیرباز اویناداجاقلار. زردوشت اوزونو جاماعاتا توتوب دئدی: "سیزه فوق‌الانسان حاققیندا درس وئرمک ایسته‌ییرم! انسان بئله بیر شئیدیر کی، اؤزوندن یوکسه‌یه قالخمالیدیر. بس سیز کامیل لشمک نامینه الینیزی آغدان قارایا وورموسونوزمو؟

یئر اوزونون جمعی مخلوقاتی اؤزوندن داها عالی بیر شئی یارادیر، تکمیل‌لشمه‌یه، کامیل‌لشمه‌یه جان آتیر. بس سیز نییه قویروقدا سورونورسونوز، نییه بو آخینا قوشولمورسونوز؟ اؤز ناقیض‌لییینیزی دفع ائتمک عذابینا قاتلاشماقدانسا، حئیوان اجدادلارینیزین حالینا قاییتماغی افضل بیلیرسینیز.

انسانین نظرینده مئیمون نه‌دیر؟ لاغ هدفی، اوزونتولو خجالت. باخ، فوق‌الانسان اوچون ده انسان بئله بیر شئی اولمالیدیر: لاغ هدفی، اوزونتولو خجالت.

سیز سوخولجاندان انسانا دؤنه لی نه قدر سئللر-سولار آخیب، آمما گؤر سیز سوخولجان خیصلتیندن قورتارا بیلیبسینیزمی؟ بیر واختلار سیز مئیموندونوز، ایندی‌نین اؤزونده ده انسان طبیعتینده‌کی مئیمونلوق هر بیر مئیمونو مات قویور. سیزلردن ان عاغیللیسی فتنه دن و بیتکی ایله کابوسون قاریشیغیندان باشقا بیر شئی دئییلدیر.

من سیزی کابوس و یا بیتکی اولماغا چاغیرمیرام. سیزه فوق‌الانسان درسی وئرمک ایسته‌ییرم! فوق‌الانسان کورره ی-عرضین معناسیدیر. قوی ایراده نیز ده بونو دئسین: فوق‌الانسان کورره ی-عرضین معناسی اولمالیدیر!

قارداشلار، سیزی آند وئریرم ایناندیغینیزا، اؤز دونیانیزا سیغی‌نین، بو دونیایا پناه گتیرین. قویماییین او بیری دونیا حاققینداکی جفنگییاتلا گؤزونوزه کول اوفورسونلر. بئینینیزی بئله زهرله ین کسلره زهرلی ایلاندان باشقا نه آد وئرمک اولار؟ آمما یوخ، اونلارین آراسیندا ائله کوت بئیینلری ده وار کی، اؤز یالانلارینا اینانیرلار، اؤز یالانلاریندان زهرله نیبلر، ایلمیزالیم دانیشیقلاری یالان قان کیمی اؤز قلبلرینه ده ایشله‌ییب. تورپاق دا بئله‌لریندن بئزاردیر، گؤروم اونلاری لعنته گلسین! واخت واردی آللاهی تحقیر ائتمک ان آغیر قباحت ساییلیردی، آمما آللاه اؤلدو، بو گوناهلاردان قورتولدوق. ایندی گوناه دئدیین گؤزگؤرونمز، یئری بیلینمز بیر

قووه نین ایطاعتیندن چیخماق دئییل، اؤز دونیامیزدا شر ایشله ین کس داها آرتیق گوناها باتیر.

بیر زامانلار روح جیسمه دوشمن کسیلمیشدی. گویا بدنین آریقلیغی، ضعیف لییی، چیرکین لییی روحون اوجالیغینا دلالت ائدیردی. بو یوللا روح بدنی ترک ائتمک، گوناهکار دونیامیزدان قورتولماق ایسته‌ییردی.

اوه، بئله غدار روح اصلینده جیسیمدن قات-قات آرتیق ضعیف، دوشکون و عئیبجر ایدی؛ غدارلیق بو روحون احتراصینا دؤنموشدو.

بس ایندینی اؤزونده بیر منه دئیین - بدنینیز روحونوزون حاققیندا نه دوشونور؟ روحونوز سفالت، چیرکاب و منفور احتراصدان یوغرولماییبمی؟

بلی، انسان دئدیین موردار بیر لؤهمه دیر. گرک نئجه نهایتسیز بیر عوممان اولاسان کی، اؤز سویونو بولاندیرمادان بو لؤهمه نی آغوشونا آلا بیله سن.

باخ، فوق‌الانسان بئله بیر عوممااندیر، ائله سونسوز عوممان کی، بوتون حغارتلرینیز اونون سولاریندا ایتیب-باتیر، یویولوب آرینیر.

کئچیره‌جه‌ییینیز ان عالی حیسسین نه اولدوغونو بیلیرسینیزمی؟ بو، ایکراه ساعاتی‌نین چاتماسیدیر. او ساعاتین کی، سعادتینیز، عاغلینیز، فضیلت‌لرینیز بئله‌سیزی ایییرندیره جک.

او واخت کی، سیز دئدینیز: من بونامی سعادت دئییرم؟ بو کی، سفالت، رذالت، منفور بیر احتراصدیر. منیم سعادتیم ایسه یالنیز اؤزومو تأمین ائتمه مه لی، اونا حیاتین اؤزو برائت قازاندیرمالیدیر.

او واخت کی، سیز دئدینیز: منده عاغیل دئییلن شئیدن اسارت وارمی؟ وارسا نه اوچون او، پروانه اولوب علم آتشینده یانمیر؟ نه اوچون من اؤزومده علمه تشنه دویمورام؟ یالنیز موردار احتراصلارا آلوده اولان بئله عاغیل صاحیبینه سفیلدن، رذیلدن ساوایی نه آد وئرمک اولار؟

او واخت کی، سیز دئدینیز: بسدیر انسانیتدن، خئییرخواه لیقدان دم ووردوم! فضیلتلریم ده، قباحتلریم ده داها اوره‌ییمی ووروب. بونلار هامیسی سفالتدیر، رذالتدیر، موردار بیر احتراصدیر.

او واخت کی، سیز دئدینیز: منمی اؤزومو عدالتلی سانیرام؟ عدالت ایسته ین کس گرک سمندر قوشو کیمی آلوولارا توتوشسون. بس من بو اوددان-آلوودان کئچمه‌یه حاضیراممی؟

او واخت کی، سیز دئدینیز: شفقت دئدیکلری نه اولان شئیدیر آخی؟ اوره‌یی یومشاقلار اوچون قورولموش بیر تله. یوخ، من کیمسه‌یه تله قورماق ایسته میرم. - باخ، اوندا چاتاجاق بو ساعات! هئچ بونلار عاغلینیزا گلیبمی؟ هئچ بئله فریاد قوپاردیغینیز اولوبمو؟ آه، سیزین بو فریادینیزی ائشیتمکدن اؤترو من نه‌لردن کئچمزدیم!

بوغازاجان چیرکاب ایچینده اولان سیزلر الینیزی گؤیلره آچیب سمادان مرحمت دیله‌ییرسینیز.

هانی ائله بیر شیمشک کی، خیصلتینیزده‌کی ناقیض لیبی یاندیریب کوله دؤندرسین، روحونوزو نورا بله‌سین.

ائشیدین، فوق‌الانسان ائله بو شیمشه‌یین اؤزودور.

زردوشت ائله بونو دئمیشدی کی، جاماعات آراسیندان بیری قیشقیردی: "نه واختدیر کندیربازین سوراغین آلمیشیق، ایمکان وئر باخاق ده!» ائله بیل هامی هیمه بند ایمیش. یئربَیئردن زردوشتو اله سالیب گولمه‌یه باشلادیلار. بو سؤزلرین اونا عاییید اولدوغونو ظن ائدن کندیرباز تله‌سیک ایشه گیریشدی.

.4

زردوشت حئیرتله جاماعاتا باخدی. سونرا نه دوشوندوسه یئنیدن: انسان دئدییین بیر کندیردیر، حئیوانلا فوق‌الانسان آراسیندا بیر کندیر، اؤزو ده بو کندیر اوچورومون اوستونده بند اولونوب.

ییخیلا-دورا، زور-بلا ایله آزجا ایره لیله‌ییر، قورخا-قورخا دؤنوب گلدییی یوللارا نظر سالیر، اؤز یاشامیندان دهشته گلیر و... والسلام، جانینی تاپشیریر. بودور انسانین بوتون حیاتی!

انساندا بؤیوکلوک آدینا بیر شئی وارسا، او دا اونون سون مقصد دئییل، یالنیز مقصده دوغرو بیر واسیطه، کؤرپو اولماسیدیر، انساندا سئویله‌سی بیر شئی وارسا، اونون بیر آدلاماچ، کئچید اولماسی و گلدی-گئدرلیی دیر.

من محوه دوغرو گئدن آداملاری سئویرم، چونکو اونلار بو کؤرپونو کئچیرلر.

او آداملاری سئویرم کی، نیفرت ائتمه‌یی باجارسینلار، چونکو اصل قدیر بیلن و باشقا ساحیله جان آتان حسرت اوخلاری اونلاردیر.

او آداملاری سئویرم کی، جانلارینی بوش خیاللارا، معناسیز جفنگ ایدئیالارا دئییل، تورپاغا، وطنه فدا ائدیرلر، او تورپاغا کی، بیر واخت فوق‌الانسانین مسکنی اولاجاق.

او آداملاری سئویرم کی، دونیایا کور گلیب کور گئتمه سینلر، حیاتی آنلاماق ایسته سین‌لر کی، نه واخسا فوق‌الانسان یاشایا بیلسین. چونکو او اؤز محوینی چوخ ایسته‌ییر.

او آداملاری سئویرم کی، جانینا جفا وئریب فوق‌الانسانا یورد قورور و تورپاغی، حئیوانلاری و بیتکی‌لری فوق‌الانسان اوچون حاضیرلاییر.

مرد آداملاری سئویرم، چونکو گؤزویله اود گؤتوره-گؤتوره دونیانین غم یوکونو چیینینده داشیماغا تک اونلارین هنری چاتار. چونکو او اؤز محوینی چوخ ایسته‌ییر.

او آداملاری سئویرم کی، اؤز فضیلتینی سئوسین، چونکو فضیلت محوه دوغرو آتیلان حسرت اوخودور.

مردلییی ایله اؤلومو اؤلدورنلری، انسان کیمی یاشاییب انسان کیمی ده اؤلنلری سئویرم.

او کسی سئویرم کی، هر شئیین یاخشیسینا جان آتمیر، اصلینده تک بیر یاخشی جهتی اولان آدام ایدئال آدامدان یاخشیدیر، چونکو بئله ده انسان بو تک جهته داها چوخ آلیشیر، او، آلین یازیسی کیمی انسانا اؤلونجه یولداشلیق ائدیر.

او کسی سئویرم کی، اؤز اذیتی‌نین عوضینی گؤزلمیر و اؤزونه ائدیلدییی یاخشیلیغین عوضینی اؤده میر، چونکو او دایمی قوربانلار وئریر و اؤزونو قورومور.

او کسی سئویرم کی، حیاتدا ناخیشی توتاندا، بختی گتیرنده خجالت چکیر - "من بو اویونو دوز یوللا می اودموشام؟ - دئیه اؤز-اؤزوندن سوروشور، چونکو او اؤز محوینی چوخ ایسته‌ییر.

او کسی سئویرم کی، چکینمه دن قیزیل سؤزونو عملیندن اول یاییر، سونرا ایسه وعدینی آرتیقلاماسییله یئرینه یئتیریر.

او کسی سئویرم کی، گله‌جه‌یین آداملارینا برائت قازاندیریر، کئچمیشین آداملارینی ایسه باغیشلایا بیلیر. چونکو او ایندی‌نین انسانلاری‌نین الیندن محو اولماق ایسته‌ییر.

او کسی سئویرم کی، او اؤز آللاهینی جزالاندیریر، چونکو او اؤز آللاهینی سئویر، چونکو او اؤز آللاهین غضبیندن محو اولماق ایسته‌ییر.

درین قلبلری سئویرم، اونلار کؤورک بئله اولسا. چونکو اونلار هوسله بو کؤرپونو کئچیرلر.

قلبی دولو کسی سئویرم، چونکو او اؤزو-اؤزونو اونودور، و بوتون شئیلر اونون اؤزونده دیر: بئله‌لیکله بوتون شئیلر اونون محوینه گتیریر.

آزاد روحلو و آزاد اورکلی انسانی سئویرم: اونون باشی اونون اوره‌یی‌نین ائویدیر، اونون اوره‌یی ایسه اونو محوه دوغرو چاغیریر.

انسانلارین باشی اوستوندن آسیلمیش قارا بولوددان دوشن آغیر داملالارا بنزر کسلری سئویرم: اونلار شیمشه‌یین یاخینلاشماسینی جار چکیرلر و بوتون جار چکن‌لر کیمی محو اولورلار.

ائشیدین من شیمشه‌یین جارچیسییام، قارا بولوددان دوشن آغیر داملایام: بو شیمشک فوق‌الانساندیر.

.5

زردوشت بو سؤزلری دئمیشدی کی، گؤزو جاماعاتا ساتاشدی. ائله بیل نیطقی کسیلدی. اؤز-اؤزون: "بونلار کی، گولورلر، - دئدی، - منی آنلامادیلار، تک بیرجه کلمه نی بئله آنلامادیلار. یعنی دوغرودانمی بو آداملار تکجه قامچی‌نین دیلینی باشا دوشور؟! دوغرودانمی من طبیل کیمی و یا تؤوبه واعیظی کیمی گورولداماليیام؟ بلکه اونلار یالنیز کَکَله ین kəkələyən (تته پته ائله مک) آداما اینانا بیلرلر؟

- سانکی نیسه گووه نیرلر. اونلاری آیریجا اؤزوندن راضی ائدن نه اولا بیلر آخی؟ اونلار بونو مدنیت آدلاندیریرلار، محض بو اونلاری مال اوتاراندان فرقلندیریر.

بونا گؤره اونلار اؤزلری حاققیندا "نیفرت" سؤزونو ائشیتمک خوشلامیرلار. نه اولار، ائله سه من اونلارین غرورونا موراجیعت ائتمه‌لییم.

من اونلارا ان رذیل مخلوقدان، سونونجو انساندان دانیشاجام " .

و زردوشت خالقا بئله دئدی: قارشیمیزا مقصد قویماغین واختی گلیب. عالی اومیدیمیزین آغاجینی اکمک واختی گلیب. هله کی، تورپاغیمیزین گوجو قالیب. آمما نه واخسا بو گوج توکنه جک و بورادا بیر دنه ده اولسون اوجا بویلو آغاج بیته بیلمیه جک.

هئیهات! بیر آزدان انسان حسرت اوخونو انسانلارین باشی‌نین اوستوندن آتا بیلمیه جک، اونون یایین کیریشی (زِه) داها گرگین لییه دؤزمه میه جک.

سیزه دئییرم، قلبینیزده خاوس (هیولای روز ازل، هرج و مرج) داشییین کی، رقص ائدن اولدوز دوغا بیله‌سینیز. سیزه دئییرم کی، قلبینیزده او خاوس هله کی وار.

هئیهات! بیر آزدان انسان اولدوز دوغا بیلمیه جک. ان موردار انسانین زمانه سی گلیر، بو انسان آرتیق اؤز-اؤزونه نیفرت ائده بیلمیه جک.

باخین، من سیزه سونونجو انسانی گؤستریرم.

سونونجو انسان "سئوگی نه دئمکدیر؟ یاراتماق، جان آتماق نه دئمکدیر؟ اولدوز نه‌دیر؟ - دئییب گؤزلرینی دؤیه جک.

یئر اوزو اؤزو ده خیردالیب، سونونجو انسان اورادا آت اوینادیر و توخوندوغو هر شئی ده اؤزو کیمی جیلیزلاشیر.

اونون نسلی حشرات کیمی یئنیلمزدیر - سونونجو انسان هامیدان چوخ یاشاییر.

سونونجو انسانلار "بختورلیین یولونو تاپمیشیق" دئییب گؤزلرینی دؤیرلر.

سویوق اؤلکه‌لری ترک ائدیبلر - اونلارا ایستی لازیمدیر. قونشولارینی چوخ سئویرلر، اونلارا سیغینیرلار - اونلارا ایستی لازیمدیر. یاتاغا دوشمک و یا

بدگومان اولماق اونلاردا گوناه سایيلير، چونکو اونلار احتیاطلا یئرییرلر، - آدام و یا داش آنجاق آخماق آدامین آیاغینا ایلیشر. زهر ده وئرسن ایچرلر، تکی بیر آز دا برک اویوسونلار. اؤلومون ده آسانینا قاچیرلار، زهرین مقدارینی آزجا آرتیر، جانینی همیشه‌لیک قورتار. هله کی، ایش-گوج دالینجا دا گئدیرلر، باشلارینی نه ایله سه قاتمالیدیرلار آخی. آمما نباده ایش اَیلنجه حددینی کئچه.

نه وارلی، نه کاسیب اولاجاق: هره سی بیر جور باش آغریسیدیر. نه آغالیق عشقینه دوشن اولاجاق، نه ده قوللوق گؤسترمک ایسته ین: هره سی بیر جور باش آغریسیدیر.

باشسیز سورو! برابرچیلیک ایسته‌ییرلر، هامی برابردیر. باشقا جور دوشونورسنسه، اؤز ال-آیاغینلا گئت اوتور دلی خانادا.

اونلاردان ان عاغیللی لاری: "اول بوتون دونیا دلی خانا ایدی»، - دئییب گؤزلرینی دؤیرلر.

عاغلیمیز دا وار، دونیادان خبریمیز ده، اودور کی، کئف چکیب دویونجا گولمک اولار. اونلار هله ده بیر-بیرلری‌نین خترینه دَییر، آمما کین ساخلامیرلار - کین مدنی پوزا بیلر.

اونلارین گوندوزلر اوچون اؤز اَیلنجه‌لری، گئجه‌لر اوچون اؤز اَیلنجه‌لری وار؛ ان اساسی ایسه جان ساغلیغیدیر.

سونونجو انسانلار "بختورلیین یولونو تاپمیشیق" دئییب گؤزلرینی دؤیرلر.

بو یئرده زردوشتوم "مقددیمه" آدلاندیریلان بیرینجی نیطقی باشا چاتیر، چونکو بو آرا جاماعاتین قارا قیشقیریغی و گولومسمه سی زردوشتو سوسماغا وادار ائتدی. قارا-گوروه: "او سونونجو انسانلاری بری ائله، زردوشت! یا دا بیزیم اؤزوموزو سونونجو انسانلارا چئویر و بیز سنه فوق‌الانسانی پئشکئش ائله‌ییریک!"، - دئیه بوغازینی‌ییرتیردی. کئفلری آلا داغدا ایدی. شادلیقدان یئره-

گؤیه سیغمیردیلار. زردوشت ایسه اوره‌ییندە: "اونلار منی آنلامیر، منیم فیکیرلریم اونلارا چاتمیر" - دئیه اینله‌دی.

گؤر نئجه ایللردی داغلاردا یاشاییرام، موصاحیبیم گؤللر، آغاجلار اولوب: ایندی ایسه ائله بیل کی، چوبانلارلا دانیشیرام. روحومون سیجاغی، قلبیمین اودو داغی-داشی یاندیرار، آمما بونلار روحومو سویوق بیلیب سؤزومو دهشتلی زارافات ساندیلار. اوزومه باخیب گولورلر و گوله رک نیفرت ائدیرلر. گولوشلری‌نین بوزو دویولور.

.6

بو دم ائله بیر شئی اولدو کی، گؤزلر کور اولسون گؤرمه سین، قولاقلار کار اولسون ائشیتمه سین. بو آرا کندیرباز ایشینه باشلامیشدی آخی: او قفیلدن خیرداجا بیر قاپیدان سیویشیب چیخدی، بازار مئیدانی‌نین اوستوندن ایکی قالا آراسینا بند اولونموش کندیرین اوستونده آتیلیب-دوشمه‌یه باشلادی. یولون تن اورتاسینا چاتمیشدی کی، قاپی تزه دن آچیلدی، آلا-بزک گئیینمیش تلخه یه بنزر بیریسی بایرا آتیلدی، تله‌سیک اؤزونو اونا یئتیردی.

"ترپن، توپال،- دئیه قورخونج سسله باغیردی،- ترپن، تنبل اؤکوز، قاچاقمالچی، کیرشالانمیش صیفت! ائله ائله مه کی، سنی آیاغیمین آلتینا آلیب چیغناییم. بو قالالار آراسیندا سنین نه اؤلومون وار؟ سنین یئرین قالانین ایچیدیر، سنین کیمیسینی توتوب آغزی بیره سالماق لازیمدیر. اؤزون بیر زیبیل دئییلسن، ایش بیلن‌لرین یولو اوستونه کؤتوک کیمی یامانمیسان". هر سؤزو دئدیکجه اونا بیر آز دا یاخینلاشیردی. کندیربازا چاتماغینا بیرجه آددیم قالمیش ائله بیر وحشت اولدو کی، گؤرن‌لرین توکلری اورپشدی، قانلاری ایلیک‌لرینده دوندو، او،

توکورپه دن (توپورمک) بیر سسله چیغیریب کندیربازین باشی اوستوندن توللاندی. رقیبی‌نین غلبه سیندن چاشان کندیرباز باشینی تامام ایتیردی. سمتینی یانیلیب یولون اورتاسیندا تویونه-تویونه قالدی. کندیر الیندن چیخدی. آغاجینی بیر کنارا تولازلادی. یوماق کیمی بوکولوب گوروم-گوپیاز یئره ائله گلدی کی، دئیردین بس اونو هئللنج ساپاندینا قویوب آتدیلار. بازار اهلی‌نین آراسینا بیر چاخناشما دوشدو، ائله بیل آری یوواسینا داش آتدیلار. ایللاه دا جسد دوشن یئرده ایینه آتسان یئره دوشمزدی. ات اتین اوستیدی. زردوشت یئرینده جه دایانمیشدی. جسد دوز اونون بؤیرونه دوشدو. داغیم-داغیم اولموشدو. هئچ باخیلاسی دئییلدی. آمما نفسی هله اوستوندیدی. آز سونرا هوشو اؤزونه گلنده، زردوشتون بؤیرونده دیز چؤکدویونو گؤروب: "سن بورادا نه قاییریرسان؟ -دئیه هاندان-هانا دیللندی. -چوخدان سومویوم ائیمنمیشدی کی، شئیطان دالیمجا تویونور. آخیر کی، منی دارتیب جهنمه آپاریر، سن اونا مانع اولماق ایسته‌ییرسن»؟

زردوشت دیللندی: "دوستوم نه یه دئییرسن آند ایچیم، صادالادیغین شئیلرین هئچ بیری مؤوجود دئییل. نه شئیطان وار، نه ده جهنم. روحون جیسمیندن ده تئز اؤله جک. اودور کی، هئچ ندن قورخما». کیشی شوبهه ایله اونا باخیب دیللندی: "سؤزون دوزدورسه، اوندا من بیر شئی ایتیرمیرم. اصلینده من نَیَم آخی؟ بیر تیکه چؤرکدن اؤترو اویونبازلیق ائدن حئیواندان فرقیم نه دیر»؟

"ائله دئمه، - زردوشت دئدی، - "سن تهلوکه لی بیر شئیدن اؤزونه پئشه یاراتدین. بونا گؤره آداما نیفرت ائتمزلر. مادام کی بو پئشه سنین آخیرینا چیخدی، من سنی اؤز اللریمله تورپاغا تاپشیراجاغام".

زردوشتون سؤزلری جاوابسیز قالدی. داها کیشی دن سس-سمیر چیخمادی، آمما الی هئیسیز-هئیسیز ترپندی، دئیه سن، تشککور ائتمک اوچون زردوشتون الینی آختاریردی.

.7

بو آرا آخشام قانادینی بازار مئیدانی اوزرینه کردی. هره اؤز ایش-گوجونون دالینجا گئتدی. آخی هر ماراغین، دهشتین ده بیر حددی وار، واختی چاتاندا آدامی بئزدیریر. تکجه زردوشت مئییتین یانیندا اوتوردو. ائله برک خیالا دالمیشدی کی، واختی دا حیس ائتمیردی. بودور، گئجه ده دوشدو. آخشامین سرین نسیمی اونون اوزونو یالادی. زردوشت آیاغا قالخیب، قلبینه خطابن دئدی: "اووون عجب اوغورلو اولدو، زردوشت! آدام توتماق ایسته‌ییردین، قیسمتینه مئییت دوشدو.

انسان حیاتی نه قدر دهشتلیدی و معناسیزدیر، میسکین بیر اویونباز اونون طالعینی حل ائده بیلر.

من انسانلارا اونلارین حیاتی‌نین معناسینی آنلاتماق ایسته‌ییرم، اونلاری قارا-گوروهدان فوق‌الانسان سوییه سینه قالدیرماق ایسته‌ییرم.

لاکین من هله اونلارا یادام، دوشونجه‌لریم اونلارا چاتمیر. اونلارین نظرینده من سرسمله اؤلو آراسیندا بیر آدلاماجام.

زردوشت، سنین یوللارین دا بو گئجه کیمی ظولمت ایچینده دیر. گل، منیم سویوق، جانسیز یولداشیم! گئدک سنی سون منزیله یولا سالیم".

.8

زردوشت اؤلونو دالینا آلیب یولا دوزلدی. یوز آددیم آتمامیشدی کی، کیمسه قاباغینی کسدی. کیم اولسا یاخشیدیر - تلخک. او: "چیخ گئت بو شهردن،

زردوشت! -دئیه پیچیلدادی.— بورادا کیمسنین سنی گؤره سی گؤزو یوخدور. ان دوروست و عادیل آداملارین بئله سندن زهله‌سی گئدیر، او قدر نیفرتدن دم ووردون کی، اونلار سنی کوتله یه دوشمن بیلدیلر. دیندارلار ایسه لاپ سنین قانینی ایچرلر، سنی جاماعاتا تهلوکه کیمی قبول ائتدیلر. بختین کسدی کی، سنی اله سالیب گولدولر. دوغرودان یامان هَتَرن-پَتَرن دانیشیردین. بختین اوندا گتیردی کی، بو ایتین مئییتینه صاحیب دوردون. اؤزونو بئله آلچالتماغین بو گونلوک سنین جانینی قورتاردی، آمما ایندی شهردن چیخماسان، صاباح دا همن اویونو سنین باشینا آچاجاغام". سؤزونو قورتارار-قورتارماز کیشی ائله بیل غئیبه چکیلدی. زردوشت ایسه قارانلیق دؤنگه‌لرین ظولمتینی یارا-یارا خئیلی یول گئتدی.

شهر داروازاسی‌نین آغزیندا موردَشیرلرله قاباقلاشدی. مشعلین ایشیغینی اوزونه سالدیلار، زردوشت اولدوغونو بیلیب، اله سالماغا باشلادیلار. "زردوشت ایت مئییتی داشییر، آفرین زردوشت ده موردشیر اولدو. بیز اونسوز دا الیمیزی بئله زیبیله بولاشدیرمازدیق. زردوشت شئیطانین تیکه سینی الیندن آلماقمی ایسته‌ییر؟ نوش اولسون! آمما قورخ کی، شئیطان سندن ده فندگیر چیخسین، زردوشت! ایکینیزی ده بیردن چنگینه کئچیرسین"، - چیینلری آتیلا-آتیلا گولوردولر.

زردوشت اونلارین سؤزونه اعتینا ائتمه‌ییب یولونا داوام ائتدی. ایکی ساعاتدی کی، مئشه نین و باتاقلیقلارین ایچی ایله گئدیردی، آج قوردلارین اولارتیسینا او قدر قولاق آسدی کی، اونا دا آجلیق ال وئردی. بیر ائودن ایشیق گلدیینی گؤروب آیاق ساخلادی. "آجیندان اوره‌ییم گئدیر. منیم ایشتاهام دا باش چیخاریلاسی دئییل، واخت اولور کی، سوفره ییغیشمامیش تزه دن آچیرام، بو گون ایسه تئزدَنَن دیلیمین آلتیندان سو کئچمه‌ییب، آجلیق دا بیلمه میشم».

زردوشت قاپینی دؤیدو. قاپییا الینده فنر قوجا بیر کیشی چیخدی. "ناراحات یوخولاریمی پوزان کیمدیر بئله"؟ - دئیه سوروشدو.

" بیر دیری ایله، بیر اؤلو، - زردوشت دیللندی. - منه یئمه‌یه بیر شئی وئرین، سحردن دونیا قوتو دادمامیشام. آجلاری یئدیزدیرمک ثوابدیر".

قوجانین گئتمه‌یی ایله قاییتماغی بیر اولدو. زردوشته چؤرکله شراب گتیرمیشدی. "بو الدن-آیاقدان اوزاق یئرلر آجلارین قنیمیدیر. اونا گؤره بورادا دوشوب قالمیشام. من تنها قوجانین یانینا هردن حئیوانلار گلیر، هردن ده آداملارین گوذاری دوشور. یولداشینا دئ، قوی او دا یئسین، چوخ یورغون گؤرونور». زردوشت دئدی: "چتین من اونو یولا گتیرم، یولداشیم اؤلوب". "بونون منه دخلی یوخدور، -قوجا دئییندی. - منیم قاپیمی دؤین کس گرک چؤره‌ییمدن دادا. یئیین، سونرا خوش گلدینیز».

زردوشت یولو الینه آلیب آی ایشیغیندا داها ایکی ساعات یول گئتدی. اصلینده او، گئجه یول گئتمه‌یه عادتکرده ایدی، یاتان آدامین اوزونه باخماقدان دا چوخ خوشلانیردی. گون چرتنده زردوشت اؤزونو اوجسوز-بوجاقسیز بیر مئشه ده گؤردو. بوردان او یانا داها یول-ایز یوخ ایدی. قورد-قوش دیمه سین دئیه اؤلونو بیر آغاج اویوغونون خفه سینده دالدالادی، اؤزو ائله یئرده جه اوزاندی. و او دقیقه، بدنی یورغون، روحو ایسه مؤحکم، یوخویا گئتدی.

.9

زردوشت گون گونورتا یئرینه چاتاناجان یاتدی. آییلاندا مئشه‌یه، سوکوتا و تعجوبله اؤز ایچریسینه باخدی. سونرا او دنیزچی گمی دن یئنی قورو گؤرن کیمی، قفیلدن سیچراییب آیاغا قالخدی و سئویندی، چونکو اونا یئنی بیر حقیقت عیان اولموشدو. قلبینه خطابن دئدی:

"ائله بیل ایچیمده آی دوغدو، آنلادیم کی، منه مسلکداشلار لازیمدیر، کور-کورانه اراده مه تابع اولان اؤلو جانلار، روحسوز جسدلر یوخ. منه ائله مسلکداشلار گرکدیر کی، شعورلا منه قوشولسون، منیمله اوددان-آلوودان کئچمه‌یه حاضیر اولسون.

ائله بیل ایچیم نورلاندی. من اوزومو بوتون خالقا دئییل، اؤز مسلکداشلاریما توتمالی، سؤزومو تک اونلارا دئمه‌لییم. زردوشت بوتؤو بیر سورونون چوبانی و کئشیکچی ایتی اولا بیلمز.

بو سورودن اؤزومه لازیم اولانلاری سئچیب گؤتوره جییم - من بونون اوچون گلمیشم. بو خالق و سورو غضبلنه جک: زردوشت چوبانلار آراسیندا قولدور آدی قازانماق ایسته‌ییر. من اونلارا چوبان دئییرم، اونلارسا اؤزلرینی خئیرخواه و مؤمن سانیرلار:

من اونلارا چوبان دئییرم، آمما اونلار اؤزلری اؤزلرینه دیندار آدی قویوبلار.

سن بو خئیرخواه مؤمن‌لره بیر باخ! گؤر ان چوخ نیفرت ائتدیکلری کیمدیر؟ او کس کی، اونلارین دیرلر توپلومونو داغیدیر، قانونلارینی پوزور. لاکین، بو داغیدان - اصل یارادیجیدیر.

سن بوتون دینلرین دیندارلارینا باخ. گؤر ان چوخ زهله‌لری کیمدن گئدیر؟ او کسدن کی، اونلارین دیرلر توپلومونو داغیدیر، قانونلارینی پوزور. لاکین، بو داغیدان - اصل یارادیجیدیر.

یارادیجی انسان مسلکداش آختاریر. او اؤلو جانلار، باشسیز کوتله و اینانانلاری آختارمیر. یارادیجی انسان اؤزو کیمی یارادانلاری آختاریر، یئنی کیتابلاردا یئنی دیرلری بیان ائدنلری آختاریر.

یارادیجی انسان مسلکداش آختاریر، بیر ده اونونلا باهم محصول بیچینچیلری، ییغانلاری آختاریر. آخی اکدیکلری باشا گلیب، محصولو ییغیما حاضیردیر. آمما یوزلرله ساراغی اسکیکدیر، او دا غیظیندن سونبوللری یولوب-

تؤکور. یارادیجی انسان مسلکداش آختارير، اوراغینی ایتیله مه‌یی باجارانلاری آختارير. داغیدان و هر شئیه نیفرت ائدن آدلاندیراجاقلار اونلاری، دوشمن دئیه جکلر. آمما اونلار محصولو ییغیب، بایرام ائده جکلر.

یارادان آختارير زردوشت اؤزونه، او، اونونلا باهم محصولو ییغیب بایرام ائدنلر سوراغیندادیر: سورولرله، چوبانلارلا، اؤلولرله نه یارادا بیلر کی، او!

سنسه، منیم ایلک مسلکداشیم الویداع! سنی آغاج اویوغوندا یاخشی باسدیردیم، قورد-قوشدان دالدالادیم.

داها وعده تامامدیر، سندن آیریلیرام. دان اوزو یئنی بیر حقیقت عیان اولدو منه.

نه چوبان اولمالییام، نه موردَشیر. بیر داها اوزومو خالقا توتوب دانیشماق ایسته میرم؛ اؤلویه ده سون کره سؤزومو دئییرم.

یارادانا، محصول ییغانا، بایرام ائدنه قوشولماق ایسته‌ییرم؛ اونلارا گؤی قورشاغینی و فوق‌الانسانا آپاران بوتون پیللەلری گؤسترمک ایسته‌ییرم.

نغمه می تنهالارا و جوت-جوت تنها اولانلارا اوخویاجاغام؛ هله ائشیدیلمه میشی دینله مه‌یه قولاغی اولانلارین قلبینی سعادتیمله لیم هه لیم دولدوراجاغام.

مقصدیمه جان آتیرام، اؤز یولومو گئدیرم؛ لنگ‌لرین، آستاگل‌لرین اوستوندن آتیلاجاغام.

قوی منیم آددیملاریم اونلارین غروبو اولسون!

.10

زردوشت اوره‌ییندە بئله دئینده گون ایکی جیدا بویو قالخمیشدی. ناگاهان باشی اوستونده قوش سسی ائشیدنده گؤزلری حئیرتله گؤیلره ساری آچیلدی.

سمادا بیر غارتال قیی وورووردو، بیر ایلان دا اوندان آسیلی قالمیشدی، آمما غارتالین غنیمتی یوخ سیرداشی ایدی، حلقه-حلقه قیوریلیب غارتالین بوینوندا بند آلمیشدی.

"منیم حئیوانلاریمدیر" - زردوشتون اوره‌یی آتلاندی. "دونیانین ان مغرور و دونیانین ان عاغیللی حئیوانی. مندن خبر توتماغا چیخیبلار، بیلمک ایسته‌ییرلر، زردوشت ساغدیرمی؟

دوغرودان، گؤرن من ساغاممی؟

آداملار آراسیندا اولماق منه حئیوانلارین ایچینده یاشاماقدان قات-قات قورخولودور. یامان خاطالی یولا دوشموسن، زردوشت. قوی حئیوانلاریم منه یول گؤسترسین".

بو واخت زردوشت مئشه ده‌کی پیرین سؤزلرینی یادینا سالیب آه چکدی. اؤز-اؤزونه بئله دئدی:

"مودریک اولماق ایستردیم. کاش کی، بو ایلانین عاغلینجا عاغلیم اولایدی. آمما چوخ خام خیالا دوشموشم، ایسته‌ییرم کی، غروروم دایم عاغلیما سؤیکک دورسون.

گونلرین بیرینده عاغلیم منی ترک ائتسه، عاغلین یولداشلیغی ایسه چتین کی باشاجان اولسون، قوی اوندا غروروم آخماقلیغیما قوشولوب قاچسین".

زردوشتون غروبو بئله باشلادی.

زردوشتون نیطقلری

اوچ چئوریلمه حاققیندا

سیزه روحون اوچ چئوریلمه سی‌نین آدینی چکه جییم: روحون دوه یه، دوه نین شیره، سونوندا ایسه شیرین اوشاغا دؤنمه سیندن.

گوجلو، دؤزوملو روحون باشی چوخ بلالار چکیر، گوجو اونو ذلت‌لره، مشقت‌لره سؤق ائدیر.

"آغیر نه وار"؟ - دئیه دؤزوملو روح دوه کیمی یئره خیخلاییر کی، اونو راحاتجا یوکله‌سینلر.

"ان چتین شئی نه دیر، قوچاقلار: اونو منه وئرین کی، اؤز گوجومدن فیضیاب اولوم".

نه دیر بو؟ تکبر خترینه اؤزونو آلچالتماق؟ مدریکلییه ریشخند ائتمک نامینه آخماقلیغینی بوروزه وئرمک؟

یا غلبه یه چاتاچاتدا ایشیندن آیریلماق؟ یا دا انگین زیروه‌لره دیرماشیب آزدیرانی آزدیرماق؟

یا بئینینی لیم هه لیم بیلیکلرله دولدوروب حاق نامینه روحونو آجیندان گبرتمک؟

بو اونا بنزه میرمی کی، خسته یاتسان، جاندان یانانی باشدان ائله‌ییب کارلارلا موصاحیبلیک ائده سن کی، نه ایسته دیینی ده عؤموربیللاه ائشیتمیه‌لر.

یا حقیقتین آختاریرام دئیین موردار سویا گیرسن، اوستونه دیرماشان سویو قورباغالارین بئله خترینه دیمه‌یه سن؟

یا سنه نیفرت ائدنلری سئوه سن، و یا باشینا مین بیر اویون آچماق ایسته ین کابوسلارا ال اوزاداسان؟

بوتون بو یوکلری دؤزوملو روح یوکله نیب صحرایا تله سن دوه سایاغی اؤز بوینونا گؤتورور و اؤز صحراسینا یوللانیر.

کیمسه سیز صحرادا ایسه ایکینجی بیر چئوریلیش اولور: روح شیره دؤنوب آزادلیغا چیخماق ایسته‌ییر، اؤز صحراسیندا آغالیق ائتمک خیالینا دوشور.

اؤز آخیرینجی صاحیبینه قنیم کسیلیر، اونا و آللاهینا قارشی چیخماق خیالینا دوشور، غلبه نامینه ان آزمان اژداها ایله کلله-کلله یه گلیر.

بس روحون نه صاحیب، نه ده آللاه گؤزونده گؤرمک ایسته مه دیبی آزمان اژداها نه اولان شئیدیر؟

بو آزمان اژداهانین آدی "سن ائتمه لیسن"دیر. شیرین روحو ایسه "من ایسته‌ییرم" دئیه هارای چکیر.

"ائتمه لیسن" قاراتیکان کیمی روحون یولو اوستونده بیتیر، هر آن آغیر یوک کیمی اونو ازیر، امانینی قیریر، "ائتمه لیسن"!

مین ایللیکلرین دیرلری اژداها دریسی‌نین پولونون اوستونده پاریلداییر. اژداهالارینسا ان قدرتلیسی دئییر: "بوتون شئیلرین دیرلری منیم اوستومده پاریلداییر. بوتون دیرلر آرتیق معین ائدیلیب، و اونلارین هر بیریسی منم.

"ایسته‌ییرم" سؤزو اونودولمالیدیر. اژداها بئله دئییر.

قارداشلار، انسانین روحوندا شیر نه یه گرک. تمکینلی و اؤز یئرینی بیلم یوک حئیوانی نییه کیفایت دئییل؟

شیر هله یئنی دیه‌لر یاراداماز، آمما شیرین گوجو اؤزونه یئنی یارادیجیلیق اوچون آزادلیق یارادا بیلر.

آزادلیغی قازانماق و حتتا بورجون، وظیفه نین اؤنونده او مقدس "یوخ" سؤزونو دئیه بیلمک - بونون اوچون، قارداشلاریم، شیر اولماق گرکدیر.

یئنی دیرلر یاراتماق اوچون حقوق قازانماق، بو دؤزوملو و اؤز یئرینی بیلم روحون ان دهشتلی غلبه سیدیر. حقیقتن بئله روحا بو غارت و وحشیلیک کیمی گؤرونور.

او، "ائتمه لیسن"ی مقدس بیر بوت سانیر، اونا سجده ائدیردی؛ ایندی ایسه او، بو مقدس بوتده استیبداد و خیال گؤرمه لیدی. اؤز سئوداسیندان آزاد اولماق اوچون شیر اولماق گرکدیر.

اؤزونوز دئیین، قارداشلار، عؤهده سیندن شیرین بئله گلمه دیی بیر ایشی اوشاق باجارارمی؟ بس اوندا ییرتیجی شیرین اوشاغا چئوریلمه سینه نه لزوم وار؟

اوشاق معصوملوق، اونوتما، یئنی باشلانغیج، اویون، اؤز-اؤزونه دیغیرلانان تکر، ایلک حرکت، مقدس "هه" دئمکدیر.

یارادیجیلیق اویونو اوچون، قارداشلاریم، مقدس "تصدیق" سؤزو لازیمدیر: روح ایندی اؤز ایراده سینی یئریتمک ایستهییر، دونیانین یازیغی اؤزونه یئنی دونیا قازانیر.

سیزه روحون اوچ چئوریلمه سینی آنلاتدیم: روحون دوه یه، دوه نین شیره، سونوندا شیرین اوشاغا دؤنمه سینی. - زردوشت بئله دئدی. اوندا او، "الوان اینک" آدلی شهرده قالیردی.

فضیلت کافئدراسی حاققیندا

بیر مودریک کیشینی زردوشته برک تعریفله میشدیلر. دئییردیلر او، یوخودان، فضیلتدن قیامت صؤحبتلر ائدیر. اونو یوکسک قییمتلندیریلیر و موکافاتلاندیریردیلار. جاوانلار اونون یانیندا گلیر کافئدراسی‌نین اؤنونده آیلشیرلر.

زردوشت ده جاوانلارا قوشولوب اونون درسینه گئتدی. مودریک قوجا سؤزو بئله باشلادی:

یوخونون قارشیسیندا احتیرام و اوتانجاقلیق! بو، بیرینجیسی! پیس یاتان، گئجه نی دیری گؤزلو

آچان آداملاردان اوزاق اولون!

یوخو قارشیسیندا اوغرو اؤزونو اوتانجاق آپاریر. قارانلیقدا اوتانا-اوتانا، اوغرون-اوغرون ترپه نیر. آمما گئجه گؤزتچیسی اوتانماق بیلمیر. حیاسیزجاسینا شئیپورونو چالیر.

یاتماغین اؤزو خیرداجا صنعت دئییل: بونونچون گرک بوتون گونو اویاق اولاسان.

گونده اون دفعه اؤزونه قارشی چیخمالیسان، بو، آدامی او کی وار یورور، روحا تیریک کیمی تاثیر ائدیر.

گونده اون کره اؤز گوناهیندان کئچمه لی، اؤزونله باریشمالیسان: آخی کوسولولر پیس یاتیرلار.

گونده اون حقیقت اؤیرنمه لیسن، یوخسا روحون آج قالاجاق، بو حقیقتلری گئجه‌لر آختارمالی اولاجاقسان.

گونده اون دفعه گولوب شادلانمالیسان، یوخسا گئجه سنین معدن، بو غم-غصه آتاسی، سنی ناراحات ائده جک.

چوخلاری بونو بیلمیر: یاخشی یاتماق اوچون گرک انساندا بوتون فضیلت‌لر اولسون. ساختا شهادت وئردیممی؟ عهدیمی پوزدوممو؟ زینا ائتدیممی؟ دوستومون کنیزینه شور گؤزله باخدیم می؟ بونلارین هئچ بیری شیرین یوخو ایله بیر آرایا سیغان شئی دئییل.

دونیانین بوتون فضیلتلری سنده وارسا بئله، بیرکرملیک آنلاّمالیسان کی، واختی چاتاندا سن بوتون فضیلتلری یاتماغا گؤندرمه‌یه باجارمالیسان. قوی بو

گؤزلجه‌لر اؤز آراسیندا ساواشماسینلار. قوی بو ساواش سندن یان کئچسین، بدبخت!

آللاهینلا و قونشونلا باریش: شیرین یوخو بونو طلب ائدیر. قونشونون شئیطانی ایله ده باریش! یوخسا او گئجه‌لر یانینا گله جک.

حکومته حؤرمت و ایطاعت گؤستر، ایسته‌ییر قوی او لاپ آخساق اولسون. شیرین یوخو بونو طلب ائدیر. آخی نه ائتمک اولار کی، حکومت چوخ واخت اَیری آیاقلار اوستونده قرار توتور.

ان یاخشی چوبان، منجه، اودور کی، قویونلارینا برکتلی اوتلاقلاردا اوتارسین: شیرین یوخو بونو طلب ائدیر.

من نه بؤیوک نفوذ حسرتیندیم، نه ده حدسیز ثروت، بونلار آدامین اؤد کیسه سینی قیجیقلاندیریر. آمما تمیز آدی و بابات دولانیشیغی اولمایانلارین دا گؤزونه یوخو گئتمیر.

مجلیسین پیس اولماسیندان کیچیک اولماسی منیم اوچون داها خوشدور: آمما اودا واختیندا ییغیلیب داغیلمالیدیر: شیرین یوخو بونو طلب ائدیر.

منن یوخسول اولانلار منیم چوخ خوشوما گلیر: اونلار یوخویا یاردیمچیدیلار. اونلار خوشبختدیلر، علی الخصوص اؤز پایلارینی آلاندا.

خئییرخواه آدامین گونو بئله کئچیر. گئجه کی اولدو، یوخونو هارایلاماغا، البته‌کی، قورخورام. یوخو ایسته میر کی، اونو هارایلاسینلار - اونو بوتون فضیلتلرین آغاسینی!

گون عرضینده ائله‌دیکلریمی، فیکیرلشدیکلریمی دوشونوب-داشینیرام. فیکیرلریمی اینک کیمی چئینه یه-چئینه یه صبرله اؤزومدن سوروشورام گؤروم بو گون من هانسی اون ناقیضلییمی دفع ائتمیشم.

بس هانسی اون باریشیق، اون حقیقت، اون گولوشله قلبیمی سوسلندیرمیشم؟

بو قیرخ فیکری گؤتور-قوی ائتدییم واخت یوخو، بو فضیلتلر آغاسی اؤز-اؤزونه، منی آغوشونا آلیر.

یوخو گؤز قاپاقلاریمی دؤیجده‌ییر، اونلاری آغیرلاشدیریر. سونرا آغزیما توخونور: او آچیلا قالیر.

بو ان سئویملی اوغرو یانیما یاواش-یاواش یاخینلاشیر و فیکیرلریمی چالیب آپاریر. من ایسه سارساق کیمی یئریمده قالیرام، لاپ بو کافئدرا کیمی.

آمما بو وضعیتده چوخ قالا بیلمیرم، - گرک موطلق اوزاناسان.

قوجانین سؤزلرینی دینله‌دیکجه زردوشت اوره‌ییندە گولوردو: چونکو او حاققا تاپینمیشدی. او، قلبینه خطابن دئدی: بو قوجا اؤز قیرخ فیکرینله دلیدیر، نه دیر. آمما یوخودان یامان باشی چیخیر.

خوش او آدامین حالینا کی، بونون قونشولوغوندا یاشاییر. بئله یوخو یولوخوجودور، او لاپ قالین دیواردان دا سیرایت ائدر.

اونون کافئدراسی‌نین بیر اسراری وار. جاوانلار ناحاق یئره بو فضیلت واعیظی‌نین باشینا ییغیشمیرلار.

اونون بوتون مودریکلییی بوندان عیبارتدیر: گرک مؤحکم اویاق اولاسان کی، مؤحکم یوخون اولسون.

حقیقتن، حیاتین معناسی اولماسایدی و من هانسیسا معناسیزلیغی قبول ائتمک مجبوریتینده قالسایدیم، اوندا بو معناسیزلیق منه ان مقبول گؤرونردی.

ایندی باشا دوشورم کی، فضیلت معلیمی آختارانلارین آرادیغی اصلینده نه ایمیش. اونلار اؤزلرینه شیرین یوخو و تیریکلی فضیلتلر آختاریرمیشلار!

بو کافئدرانین بوتون تانینمیش مودریکلرین مودریکلییی رؤیاسیز اویقولاردیر: اونلار حیاتدا داها عالی بیر معنا گؤرمورلر.

ایندی، بئله فضیلت واعیظلری چوخدور، فقط بونون قدر صمیمی دئییللر. آمما اونلارین دؤورو چوخدان کئچیب. اونلار داها آیاق اوسته دورا بیلمیه جکلر، اوزاناجاقلار.

خوش بو یوخوجوللارین حالینا: چوخ کئچمز اونلار مورگو دؤیرلر. - زردوشت بئله دئدی.

" او بیری دونیا " نین مشتاقلاری حاققیندا

گونون بیرینده بوتون " او بیری دونیا " نین مشتاقلاری کیمی زردوشتون ده کؤنلونه او بیری دونیا دوشدو. دونیا منه جفاکئش، اوزگون بیر آللاهین اثری کیمی گؤروندو.

دونیا منه بیر رؤیا، ایلاهی بیر شعریت کیمی، یاراتدیغیندان ناراضی آللاهین گؤزلری اؤنونده‌کی الوان توستو کیمی گؤروندو.

خئییر و شر، حظ و اضطراب، من و سن - هامیسی منه یارادانین گؤزلری قارشیسینداکی الوان توستو کیمی گؤروندو. یارادان اؤزوندن اوز چئویرمک ایسته‌ییردی، دونیانی یاراتدی.

اؤز اضطرابلاریندان اوز چئویرمک و هر شئیی اونوتماق جفاکئشه سرمست حظدیر. بیر زامان دونیا منه سرمست حظ و اؤزونو اونوتما کیمی گؤرونوردو.

بو ابدی قوصورلو، ابدی تضادلارین عکسی، قوصورلو عکسی اولان دونیا اؤز قوصورلو یارادانیندان اؤترو سرمست حظ منبعی دیر: - بیر زامان دونیا منه بئله گؤرونوردو.

اودور کی، بیر دفعه منیم ده اوره‌ییمدن بوتون او بیری دونیا مشتاقلاری کیمی انسانلیغین او بیری تایی حاققیندا دوشوندوم. دوغرودانمی بو انسانلیغین او بیری تاییدیر؟

آه، قارداشلار، یاراتدیغیم بو آللاه، بوتون آللاهلار کیمی انسان دوهاسی‌نین بهری ایدی، او همده انسان دلی لیبی نین بهری ایدی!

او آللاه انسان ایدی، هم ده انسانین میسکین حیصه سی و اؤزومون "ائگو"سو ("من"ی): اؤز اودومدان، کولومدنجه یارانمیشدی بو کابوس. او بیری دونیادان گلیب-زاد ائلمه میشدی!

سونرا گؤرون نه باش وئرمیشدی، قارداشلار. من اؤزومو، عذابکئش "ائگو"مو یئندیم، کولومو داغلارا آپاردیم، ایچینده داها شعله لی بیر تونقال چاتدیم. ایشه باخ! کابوس مندن اوزاقلاشدی!

ایندی بئله کابوسلارا اینانماق مندن، شفا تاپان کسدن اؤترو عذاب-ایشکنجه اولاردی، عذابلی آلچالما اولاردی بو منیم اوچون. او بیری دونیانین مشتاقلارینا سؤزوم بودور.

اضطراب و گوجسوزلوک، بیر ده سعادتبن یالنیز ان چوخ ذلت چکنلره بللی اولان قیسا چیلغینلیق آنلاری - بوتون او بیری دونیالاری یارادان بو اولدو.

یورغونلوق...، بیر سیچراییشلا، بیر اؤلوم سیچراییشی ایله سونا وارماق ایسته ین یورغونلوق. بیلمه مزلیین میسکین یورغونلوغو. بو یورغونلوغون آرتیق هئچ ندن اوماجاغی یوخ: بوتون آللاهلاری و او بیری دونیالاری او یاراتدی.

اینانین، قارداشلار، جیسمدن الی اوزولن جیسم، آلدانمیش روحون بارماقلارییلا سونونجو دیوارلاری الـله‌ییر.

اینانین، قارداشلار! یئردن الی اوزولن جیسم مؤوجوداتین قارنی‌نین دردینی دینله‌دی.

و او زامان او باشینی سونونجو دیوارلارا چیرپماق ایسته دی، تک باشینلا دئییل، بوتونلوکله "او بیری دونیایا" کئچمک ایسته دی.

فقط "او بیری دونیا" انسان اوچون باغلیدیر. بو انسانسیز و غئیرانسانی سماوی بیر هئچلیکدیر؛ مؤوجوداتین - وارلیغین قارنی‌نین دردی ده انسانلا انسان دیلینده دانیشیر.

دوغروسو، هر وارلیغی اثبات ائتمک ده چتیندیر، دیللندیرمک ده. دئیین گؤرک، قارداشلار، ان اسرارانگیز شئیلر بوندان دا گؤزل شکیلده اثبات اولونماییبمی؟

بلی، اؤز وارلیغی حاققیندا سؤزون ان صافینی بو "ائگو" و "ائگو"نون تضادلاری، دولاشیقلاری دانیشیر، - بو یارادان، سئون، قییمتلندیرن، هر شئیین اؤلچو و دیری اولان "ائگو"نون.

"ائگو" - بو ان ناموسلو وارلیقدیر. "ائگو" یاراداندادا، خیالا دوشنده ده، قیریق قانادلارلا چاپالایاندادا جیسمدن دانیشیر و جیسمه جان آتیر.

گون-گوندن "ائگو" اؤز فیکرینی داها دوزگون ایفاده ائتمه‌یه اؤیره نیر و اؤیرندیکجه، جیسم و یئر اوزونو داها چوخ مدح ائدیر.

اؤز "ائگو"م منه یئنی بیر غرور اؤیرتدی، من ده اونو انسانلارا اؤیره دیرم: بیر داها باشینی سماوی شئیلرین توزونا سوخماییب اونو مغرور توت. مغرور توت اؤز بشری باشینی، یئرین معناسینی یارادان باشینی.

انسانلارا یئنی بیر ایراده اؤیره دیرم: انسانین کور-کورانه گئتدیبی یولو گئت، اونو تعریف ائت، خسته‌لر و اؤلولر ساياغی بو یولدان سارپما!

بدنه و تورپاغا نیفرت ائدنلر، اؤزلرینده سما و نیجات وئرن قان داملالاری ایجاد ائدنلر خسته‌لر و اؤلولر ایدی: آمما حتتا بو شیرین و تند زهرلری ده اونلار جیسم و تورپاقدان گؤتوروردو!

اؤز میسکین‌لیکلریندن قاچماق ایسته‌ییردیلر، فقط اولدوزلار اونلارا چوخ اوزاق ایدی. بو واخت اینله‌ییب سیزلاماغا باشلادیلار: "آه، کاش کی اؤزگه بیر وارلیغا، اؤزگه بیر سعادته سوخولماق اوچون سماوی یوللار اولایدی " ! - محض اوندا اونلار اؤز اویدورمالارینی و قانلی ایچکی‌لرینی ایجاد ائتدیلر.

بو نانکورلارا ائله گلیردی کی، اونلار اؤز بدنلریندن و بو تورپاقدان اوز دؤندره بیلیبلر.

بس بو دؤنوشدن دوغان نشئه، حظ اوچون کیمه بورجلودور اونلار؟ اؤز بدنلرینه و بو تورپاغا!

زردوشت خسته‌لره قارشی التفاتلی دیر. نه تسللی اوصوللارینا، نه ده نانکورلوقلارینا گؤره غضبلنمیر اونلارا. تکی ساغالسینلار، ناقیضلیکلرینی دفع ائدیب اؤزلرینه عالی بیر جیسم یاراتسینلار!

زردوشتون ساغالماقدا اولانا دا آچیغی توتمور. ساغالماقدا اولان انسان خولیاسینی عزیزله ینده و گئجه اولاجاغین آللاهی‌نین قبرینه ساری سورونده زردوشتون اونا دا آجیغی توتمور؛ لاکین اونون گؤز یاشلاری منیم اوچون خسته لییین و خسته بدنین تظاهورو اولاراق قالیر.

خیالپرست‌لرین، آللاها ایمان گتیرنلرین ایچینده خسته‌لر همیشه چوخ اولوب؛ اونلار ایدراک صاحیبلرینه و فضیلتلرین "دوروست لوک " دئییلن ان جاوانینا حدسیز نیفرت بسله‌ییرلر.

دایم گئری بویلانیرلار، قارانلیق چاغلارا ساری: او زامانلار ایستک ده، اینام دا بام-باشقا شئیلر ایدی، عاغلین چیلغینلیغی ایلاهی‌لیک، شوبهه ایسه گوناه ساییلیر.

یاخشی تانییرام بو ایلاهی‌لری، - ایسته‌ییرلر، هامی اونلارا اینانسین، شوبهه یاساق بویورولسون. اونلارین نه یه ایناندیقلارینی دا الیمین ایچی کیمی بیلیرم.

البتده‌کی، ایناندیقلاری نه "او بیری دونیا"دیر، نه ده شفا گتیرن قان داملالاری: صیدق اورکدن ایناندیقلاری بدندیر؛ اؤز بدنلرینی ایسه اونلار "اؤزونده شئی" سانیرلار.

آمما بو شئی خسته دیر: غلافلاریندان چیخماغی باجارسایدیلار، ممنونیتله ائدردیلر بونو. اونا گؤره اؤلوم واعیظلرینی دینله‌ییر، اؤزلری ده "او بیری دونیا"دان وضع ائدیرلر.

ائشیدین منی، قارداشلار، یاخشیسی بودور، ساغلام بدنین سسینه قولاق وئرین: بو، صاف و دوروست بیر سس دیر.

ساغلام بدن داها دوروست، داها تمیز، داها روان دانیشیر، او مکمل دیر و دوزقاتلی دیر. او، یئر اوزونون معناسیندان دانیشیر. -

زردوشت بئله دئدی.

بدنه نیفرت ائدنلر

سؤزوم، بدنه نیفرت ائدنلریدیر.

نه اؤیرندیکلرینیزی تزَلمه‌یه حاجت وار، نه ده اؤیرتدیکلرینیزی؛ سیز آنجاق بدنلرینیزی اونوتمالی و بوندان سونرا لال-دینمز قالمالیسینیز.

"من هم جیسمم، هم ده روحام"- اوشاق بئله دئییر. نییه گرک هامی اوشاقلار کیمی دئمه سین؟

آمما یاشلی باشلیلار: عاغلی کسن‌لر دئییر: من یالنیز جیسمم، وسسالام، قلب ایسه جیسمده اولان نه‌یینسه آدیدیر.

آمما اویانمیش و عاغلی کسن انسان دئییر: "من جیسمم، جیسمدن باشقا بیر شئی دئییلم؛ روح ایسه جیسمده اولان نه‌یینسه آدیدیر " .

بدن - بؤیوک ایدراک، بیر بئینی اولان توپلوم، حرب و صلح، سورو و چوبان دئمکدیر.

سنین کیچیک عاغلین دا وار، او، بدنی‌نین آلتیدیر، قارداش، بؤیوک ایدراکین بو کیچیک آلت و اویونچاغینا "روح" دئییرسن سن.

"من" دئییرسن، بو سؤزله افتخار ائدیرسن. آمما اوندان دا بؤیوک سنین بؤیوک ایدراکلی بدنیندیر، بونا ایسه سن اینانا بیلمیرسن. او، "ائگو" سؤزونو دئمیر، آمما "ائگو" ائدیر.

حیسسین دویوب عاغلین تانیدیغی شئیلرین هئچ واخت مقصدی اولمور. لاکین حیس ده، عاغیل دا سنی ایناندیرماق ایسته‌ییر کی، هر شئیین مقصدی محض اونلاردیر: گؤر، نئجه لووغادیر اونلار.

حیس و عاغیل اولسا-اولسا آلت و اویونجاقدیر: اونلارین آرخاسیندا "اؤز" لوک دورور. "اؤز" لوک حیسین گؤزلری ایله آختاریر، روحون قولاقلاری چیله‌دینله‌ییر.

"اؤز" لوک دایم دینله‌ییر، آختاریر: او مقایسه ائدیر، مجبور ائدیر، غارت ائدیر، داغیدیر.

آغالیق ائدیر، حتتا "ائگو" یا ده صاحیبله نیب او. فیکیرلری‌نین، حیس‌لری‌نین آرخاسیندا قارداش، قودرتلی بیر صاحیب، نامعلوم بیر مودریک دایانیر - آدینا "اؤز" لوک دئییرلر. او سنین بدنینده یاشاییر، سنین بدنین محض اودور.

بدنینده‌کی عاغیل عالی ایدراکینداکیندان قات-قات چوخدور. و کیم بیلیر، بو عالی ایدراکی سنین بدنین نه یه صرف ائده جک؟

سنین "اؤز"ون "ائگو" سینا و اونون مغرور سیچراییشلارینا گولور. "فیکرین بو سیچراییشلاری، اوچوشلاری نه‌ییمه گرکدیر؟ - اؤز-اؤزونه دئییر. - " بونلار کی مقصدیمه چاتماغا دولاشیق بیر یولدور".

او دئییر: "ائگو"نو حاق یولونا دارتان کندیر منم؛ "ائگو"نون آنلاییشلارینی فورمالاشدیران منم.

"اؤز"لوک "ائگو"یا دئییر: "بورادا آغری دوی"! او دا عذابدان قوورولور، فیکیرلشیر نئجه ائله‌سین بو آغریدان قورتولسون، - و محض بونا گؤره او، دوشونمه لیدیر.

"اؤز"لوک "ائگو"یا دئییر: "بورادا حظ دوی"! اونون شادلیغی‌نین حدودو اولمور، فیکیرلشیر، نئجه ائله‌سین بو شادلیغین عؤمرونو اوزاتسین، - و محض بونا گؤره او، دوشونمه لیدیر.

سؤزوم بدنه نیفرت ائدنلره دیر. اونلارین نیفرتلرین سببی ایسه حؤرمتلریدیر. حؤرمتی، نیفرتی، دیری، ایراده نی نه یاراتدی؟

بو حؤرمتی و نیفرتی یارادان "اؤز"لوک یاراتدی، حظ و اضطرابی او ایجاد ائتدی. یارادان بدن روحو اؤزونه ایراده آلتی کیمی یاراتدی.

آخماقلیق و نیفرتینیزله بئله‌سیز، بدن دوشمنلری، اؤز "اؤز"لویونوزه خیدمت ائدیرسینیز. بودور دئییرم: سیزین "اؤز"-ونوز اؤزو اؤلوب قورتارماق، حیاتدان اوز چئویرمک ایسته‌ییر.

هر شئیدن آرتیق ایسته دییی بیر شئیی ائتمه‌یه - اؤز فؤوقونده یاراتماغا - داها طاقتی قالماییب.

ان عمده ایسته‌یی، حیاتدان تک گؤزلمه سی بودور.

لاکین داها گئجدیر - بو اوزدن سیزین "اؤز"-ونوز محو اولماق ایسته‌ییر، بدن دوشمنلری.

سیزین "اؤز"-ونوز محو اولماق ایسته‌ییر، چونکو، سیز بدنین دوشمنی اولدونوز! چونکو سیزده داها اؤز فؤوقونوزده یاراتماق اقتداری قالماییب.

حیاتا، تورپاغا غضبلنمه‌ییینیز ده اونا گؤره دیر. نیفرتینیزین کج باخیشیندا کور بیر حسد یانیر.

من سیزین یولونوزلا گئتمیرم، سیز ائی بدنه نیفرت ائدنلر! منیم اوچون، سیز فوق الانسان آپاران کؤرپو دئییلسینیز. -

زردوشت بئله دئدی.

سئوینج و احتراصلار حاققیندا

قارداشیم، اگر سنین فضیلتین وارسا و او دوغرودان دا سنین فضیلتیندیرسه، اونو کیمسه ایله بؤلوشدورمه مه لیسن.

البتده، اونون آدینی چکمک، عزیزله مک ایسته‌ییرسن: اونون قولاقلارینی چکمک، اونونلا آیلنمک کئچیر اوره‌ییندن.

باخ! سن اونون آدینی خالقلا بؤلوشدون، ایندی سن اؤزون ده فضیلتینله بیرلیکده خالقا، سورویه چئوریلدین!

"قلبیمی عذاب و نشئه ایله دولدوران ایچیمده‌کی آجلیغی دیله گتیرمه‌یه نه سؤز وار، نه ده آد" دئسن نه یاخشی اولاردی.

قوی سنین فضیلتین هر هانسی آزدان یوکسکده دورسون و اوندان دانیشمالی اولسان پلتکله مکدن اوتانما.

بئله دئ، بو سایاق کَکَله: "بو فضیلت منیمدیر، نئجه وارسا ائله سئویر، بو حالیندا خوشلاییرام اونو، یالنیز بئله ایسته‌ییرم اونو من.

اونو نه آللاه، نه بنده قانونو، نه احتییاج اولدوغو اوچون سئویرم: مندن اؤترو نه سما، نه ده جنّت بلدچیسیدیر او.

سئودییم بشری فضیلتدیر: اورادا عاغیل آز، عوموم بشری ایدراک ایسه اوندان دا آزدیر.

آمما بو قوش اؤز یوواسینی منیم بؤیرومده قوروب: اونونچون اونو سئویر، باغریما باسیرام، -ایندی یانیمداجا اؤز قیزیل یومورتالاری اوستونده یاتیب".

بئله کَکَله مه لی، اؤز فضیلتینی مدح ائتمه لیسن.

بیر واختلار سنین احتراصلارین واردی، آدلارینا شر دئییردین. ایندی ایسه یالنیز فضیلتلرین وار: اونلار سنین احتراصلاریندان قایناقلانیر.

اؤزونون ان عالی مقصدینی بو احتراصلاردا گؤردون: بودور اونلار دا سنین فضیلت و سئوینجین اولدولار.

اگر سن طبیعتن توندمجاز، شهوتلی، مؤوهوماتچی، قیصاصچی اولسایدین بئله، فرق ائتمزدی: سونوندا بوتون ایستکلرین فضیلته، شئیطانلارین ملکلره چئوریله جکدی.

بیر واخت سنین زیرزمینده قودوز ایتلر واردی: سونوندا اونلار قوشا و اعجازکار نغمه کار قیزلارا دؤندولر.

زهریندن اؤزونه معجون دوزلتدین: اؤز اینه‌یینی - اؤز کدرینی - ساغدین، ایندی اونون امجکلری‌نین شیرین سودونو امیرسن.

ایندن بئله داها هئچ بیر شره قابیل دئییلسن سن، فضیلتلری‌نین موباریزه سیندن دوغان شردن ساوایی.

قارداشیم، بختورسنسه، سنین بیرجه فضیلتین اولاجاق: بئله ده کؤرپونو داها آسان کئچرسن.

چوخ فضیلت صاحیبی اولماق شرفلی، آمما آغیر آلین یازیدیر. چوخلاری فضیلتلرین دؤیوشوندن، اونلارا دؤیوش مئیدانی اولماقدان الدن دوشوب صحرالارا گئتدی، اؤزونو اؤلدوردو.

حرب و جنگ شردیرمی، قارداش؟ لاکین بو شر ضروریدیر؛ پاخیللیق، اینامسیزلیق، بؤهتان سنین فضیلتلری‌نین آراسیندا ضروری اولان کیمی.

باخ، سنین فضیلتلری‌نین هر بیری زیروه یه نئجه جان آتیر: او سنین بوتون روحونا حاکیم کسیلمک و اونون سؤزچوسو اولماق. هر بیر فضیلتین سنین غضبینی ده، نیفرتینی ده، سئوگینی ده رام ائتمک، سنه بوسبوتون صاحیبلنمک ایسته‌ییر.

فضیلتلرین هامیسی بیر-بیرینی قیسقانیر، قیسقانجلیق ایسه مودهیش شئیدیر. قیسقانجلیق فضیلتین اؤزونون ده آخیرینا چیخا بیلر.

قیسقانجلیق آلووو شعله‌لننده اول-آخیر زهرلی نئشترینی عقرب ساياق اؤزونه سانجیر.

آه، قارداشیم، فضیلتین اؤزونو شره سالدیغینی، اؤز زهریندن چاغلاییب اؤلدویونو هئچمی گؤرمه میسن؟

انسان بئله بیر شئیدیر کی، اؤزوندن یوکسه‌یه قالخمالیدیر: اونا گؤره ده سن اؤز فضیلتلرینی سئومه لیسن، چونکو سنین آخیرینا اونلار چیخاجاق.

زردوشت بئله دئدی.

رنگی قاچمیش جانی حاققیندا

سیز حاکیملر، قوربانلیق کسنلر حئیوان باشینی آیمه دن اؤلدورمک ایسته میرسینیز دئییلمی؟

باخین، رنگی قاچمیش جانی باشینی آیدی، گؤزلریندن اولمازین نیفرت یاغیر.

"منیم "ائگو"-م حدودلاردان کنارا چیخمالیدیر: "ائگو"م منه انسانلارا توکنمز نیفرت تلقین ائدیر". -جانی‌نین گؤزلری بئله دئییر.

او اؤزو اؤزونو محکوم ائدنده ان مقدس آن یاشادی؛ قویمایین کی، یوکسلمیش بئله آنی یاشامیش بیر انسان داها اؤز اوچورومونا قاییتسین!

اؤزو اؤزونه عذاب وئرنلره قورتولوش یوخدور، - ائرکن اؤلومدن ساوایی.

ائی، حاکیملر، سیزین قتله یئتیرمه نیز رحمدن دوغمالیدیر، قیصاصدان یوخ. اؤلدورنده دا حیات برائت قازاندیرمالیسینیز!

اؤلدوردوکلرینیزله باریشمانیز یئتمز. قوی سیزین غمینیز فوق الانسان محبت تلقین ائله‌سین: سونراکی عؤمرونوزه بئله برائت قازاندیرین!

"دوشمن" دئمه لیسینیز، "جانی" یوخ، "خسته" دئمه لیسینیز، "آلچاق" یوخ، "دلی" دئمه لیسینیز، "گوناهکار" یوخ.

سن ده، ائی قیرمیزی حاکیم، فیکرینده توتدوقلاری‌نین هامیسینی دیله گتیرسن، هر یئتن "بو موردار‌ی، زهرلی ایلانی ردد ائله‌یین"! - باغیراردی.

آمما فیکیر باشقا، ایش باشقا، ایشین ایدئیاسی ایسه تام باشقا شئیدیر. اونلارین آراسیندا سبب تکری فیرلانمیر.

بو رنگی قاچمیش انسانی سولدوران ایشین ایدئیاسی اولدو. نئجه کی، ایشینی گؤروردو، شؤوق ایچیندیدی، عؤهده سیندن ده باجاریقلا گلیردی، ائله کی، ایش گؤرولوب قورتاردی، نتیجه سیندن شاشیردی، تابلاشا بیلمه دی اونا.

او اؤزونه یالنیز ایش قووه سی تک باخیب. دلی‌لیک دئییرم بونا: ایستئنا اونون بوتون وارلیغینی چولغاییب.

یئرده چکیلمیش بیر خط تویوغو اووسونلاییر: تسلیم اولدوغو شئیطان انسانین کوت عاغلینی اووسونلاییر -بونا ایشدن سونراکی دلی‌لیک دئییرم من.

ائشیدین، ائی حاکیملر، باشقا بیر دلی‌لیک ده وار: او دا ایشدن اولکی دیر. آه، سیز بو قلبین درینلیکلرینه کیفایت قدر وارمادینیز!

قیرمیزی حاکیم سوروشور: "بو جانی نه‌یین خطرینه اؤلدوروب؟ او غارت ائتمک ایسته‌ییردی".

منسه سیزه دئییرم: اونون اوره‌یی قانا سوسامیشدی، غارته یوخ. غارت بهانه ایدی: بیچاغین وئردیی بختورلییه سوسامیشدی او!

آمما اونون میسکین عاغلی بو دلی لیپی آنلامادی و قاتیلی دیله توتدو: "نه بؤیوک شئیدیر -قاندیر دا! - دئدی: بلکه ال بولامیشکن بیر غارت ده ائدسن؟ قیصاص آلاسان، ه»؟

قاتیل میسکین عاغلینین سسینه قولاق آسدی: عاغلین بو سؤزلری قورغوشون کیمی قاتیلین اوستونه تؤکوردو و اؤلدوررکن او غارت ائدیردی. او اؤز دلی لیپی نین خجالتینی چکمک ایسته میردی.

و گوناهلاری‌نین قورغوشون سیقدتی یئنه اونون اوستونه چؤکوب و میسکین عاغلی یئنه اولکی تک کئی، هئیسیز، کوت اولاراق قالدی.

ائلجه باشینی سیلکله یه بیلسیدی، بو یوک آشیب تؤکولردی: آمما کیمدیر بو باشی سیلکله ین؟

ندیر بو آدام؟ روحون واسیطه سیله دونیایا یول آختاران بیرییغین خسته‌لیک: اونلار محض دونیادان قنیمتینی قوپارماق ایسته ینلردی.

ندیر بو آدام؟ بیر-بیری ایله یوللاشمایان بیر ییغین وحشی ایلان، - بودور داغیلیشدیلار، هره سی دونیانین بیر طرفینه، قنیمت آختارماغا گئتدیلر!

بو میسکین بدنه باخین! اونون چکدییی اضطراب و حسرتلری بو یازیق قلب آنلاماغا چالیشیردی، - بونو قاتیل حظی، بیچاغین وئردیی بختورلییی کیمی ایضاح ائدیردی.

کیم خستلنسه، ایندی " شر " ساییلان شر اونون اوستونه هوجوم چکیر: او، خسته، اونو اینجیدن شئیلرله هامییا عذاب وئرمک ایسته‌ییر. آمما باشقا واختلار دا وار ایدی، او واختین خئییری ده، شرعی ده بامباشقا ایدی.

بیر واختلار شوبهه ده، "اؤز" اونه یؤنلمیش ایراده ده شر سایبلیردی. او واختلار خسته کافیر و جادوگر اولوردو: کافیر کیمی، جادوگر کیمی ده عذاب چکیر، بو عذابی اؤزگه‌لره ده چکدیرمک ایسته‌ییردی.

آمما بو سیزین قولاغینیزا گیرمز: دئییرسینیز، بو سیزین خئیرخواه آداملارینیزا زییاندیر، دئییرسینیز. آخی، سیزین خئیرخواه آداملارینیزلا نه ایشیم وار!

سیزین خئیرخواه آداملارینیزدا منی چوخ شئی ایبرندیریر و بورادا اونلارین شرعیندن صؤحبت گئتمیر.

ایستردیم کی، اونلاری بیر دلیلیک چولغاسین، بو سولغون جانی کیمی اونلارین دا آخیرینا چیخسین!

ایستردیم کی، اونلارین دلی لیپی نین آدی حقیقت یا دا صداقت، یا دا عدالت اولسون: فقط سیزین خئیرخواه آداملارینیزین اؤز فضیلتی اوندان عیبرتدیر کی، اؤز میسکین منملییینده اوزون عؤمور یاشاسینلار.

من جوشقون سئلین اوستوندن آسیلمیش کؤرپونون بارماقلیغییام: کیم مندن توتا بیلیر، توتسون. آمما من سیزه قولتوق آغاجی دئییلم.

زردوشت بئله دئدی.

اوخو و یازی حاققیندا

یازیلار ایچینده قان یازیسینی سئویرم. قانینلا یاز، اوندا گؤررسن کی، قان روحدور.

اؤزگه قانینی آنلاماق آسان دئییل: بئکارچیلیقدان اوخویانلاردان زهلم گئدیر.

اوخوجونو تانییان اونونچون الینی آغدان قارایا دا وورمور. اوخوجولار داها بیر عصر یاشاسا، گؤرریک کی، روح اؤزو ده پیس ایلنه جک.

هر یئته نین اوخوماغی اؤیرنمک حاققین اولماسی، آخیردا، نه اینکی یازینی، فیکری ده کورلایاجاق.

بیر زامان روح آللاه ایدی، سونرا انسانا دؤندو، ایندی ایسه او لاپ قاراگوروها چئوریلیر.

قان و معمالارلا یازانلار اوخونولماق دئییل، ازبرلنمک ایستهییر.

داغلاردا ان کسه یول زیروه دن-زیروه یه گئدن یولدور؛ آمما بونونچون اوزون آیاقلارین اولمالیدیر. معمالار زیروه اولمالیدیر: اونلارین موراجیعت ائتدیکلری آدام ایسه بؤیوک و گوجلو اولمالیدیر.

هاوا آچیق، تمیز، تهلوکه یاخین، روح ایسه شنلیکله دولو: بونلار هامیسی بیر-بیرینه چوخ یاراشیر.

ایستهییرم باشیما کوبولدلار* (آلمان میفولوگیاسیندا یئرآلتی ثروتلرین قورویوجوسو - ه.ه.). ییغیلسین، چون جسورام من.

کابوسلاری اورکودن جسارت اؤزو اوچون کوبولدلار یارادیر - جسارت گولمک ایستهییر.

داها من سیزینله بیرلیکده حیس ائتمیرم: آلتیمداکی بو بولود، باشینا گولدویوم بو قارا بولود و آغیرلیق، - بودور سیزین شیمشکلی بولودونوز.

قالخماق ایسته ینده سیز یوخاری باخیرسینیز. منسه آشاغی باخیرام، چونکو یوخاردایام.

سیزلردن کیم زیروه ده اولا-اولا گوله بیلر؟

ان هوندور داغلاری قالخانلار بوتون صحنه و حیات فاجیعه‌لرینه گولور.

قایغیسیز، لاغباز، گوجلو - عاغیل بیزی بئله گؤرمک ایستهییر: او قادیندیر و یالنیز ایگیدلری سئویر.

دئییرسینیز: "حیات دؤزولمزدیر"! او حالدا بس سیزین گوندوزکو غرورونوز و آخشامکی ایطاعتینیز نه یه گرکدیر؟

حیات دؤزولمزدیر؛ اؤزونوزو یالاندان نرمه-نازیک گؤسترمه‌یین! بیز هامیمیز قشنگ یوک ائششکلرییک.

اوستونه دوشن بیر داملا شئهدن تیتره ین تومورجوقلا اورتاق نه کسییمیز وار؟

دوزدور، بیز حیاتی سئویریک: حیاتا دئییل، سئوگییه آلیشدیغیمیز اوچون.

هر سئوگیده دایم بیر آز دلیلیک اولور. دلیلیکده ده دایم بیر آز عاغیل.

و حتتا حیات عاشیقی اولان منه ائله گلیر کی؛ کپنکلر، صابون کؤپوکلری و اونلارا بنزه ین انسانلار خوشبختلیک حاققیندا هامیدان چوخ بیلیرلر.

بو یونگول عاغیلسیز ظریف هره کی خیرداجا قلبلرین پروازینی سئیر ائتمک زردوشتون روحونو ترانه‌لره و گؤز یاشلارینا قدر مست ائدیر.

ایناناسی اولسام، یالنیز رقص ائتمه‌یی باجاران آللاها ایناناردیم.

ایبلیسیمی گؤردوم: یامان جیددی، آغیر، ادالی توتوردو اؤزونو: بو آغیرلیق روحو ایدی او؛ هر شئیین یئره دوشمه سینه باعث ده اودور.

غضبله دئییل، گولوشله اؤلدوررلر. قالخین، آغیرلیق روحونو اؤلدورمه‌یه بیزه یاردیمچی اولون!

گزمه‌یی اؤیرندیم؛ او واختدان اؤزومه قاچماغی دا روا بیلمیشم. اوچماغی اؤیرندیم، او واختدان من یئریمدن ترپنمک اوچون کناردان تکان گؤزلمیرم.

ایندی یونگوللشمیشم، ایندی اوچورام، ایندی اؤزومه اوستدن آشاغی باخیرام، ایندی آللاه اؤزو بئله ایچیمده رقص ائدیر.

زردوشت بئله دئدی.

داغدا کی آغاج حاققیندا

زردوشتون گؤزو آلمیشدی کی، بیر گنج اوندان یان گزیر. آخشامین بیرینده تک باشینا "الوان اینک" آدلی بو شهرین دؤرد دؤوره سینی سارمیش داغلاری گزنده زردوشت همن گنجی گؤردو، او، آغاجا سؤیکه لی اوتورموشدو، یورغون باخیشلاری دره یه دیکیلمیشدی. زردوشت اوغلانین سؤیکندییی آغاجدان یاپیشیب بئله دئدی:

"بو آغاجی سیلکله مک ایسته سم، باجارمازدیم.

آمما بیزیم گؤرمه دیییمیز کولک اونا ظولم ائدیر، ایسته دیبی سمته اَییر. بیزی بوندان دا چوخ اَیین گؤرونمز اللر وار " .

گنج پرت اولوب آیاغا قالخدی و دئدی: "زردوشتون سسینی ائشیدیرم، ائله ایندیجه اونو دوشونوردوم".

زردوشت جاوابیندا: "داها قورخماق نییه - دئدی. آغاجین باشینا گلن انساندان دا یان کئچمیر.

او یوکسکلره، ایشیغا نه قدر جان آتیرسا، کؤکلری یئرین تکینه، آشاغی، ظولمتلره، دیبه، - شره او قدر چوخ ایشله‌ییر".

"بلی، شره! - گنج اوجادان دئدی. -نئجه اولور کی، سن منیم قلبیمی اوخودون»؟

زردوشت گولومسوندو: "ائله قلبلر وار کی، اونلاری اوخوماق اولمور، اوندا اونلاری اول اویدورماق لازیم گلیر".

"بلی، شره"! - گنج سؤزو تزه دن چئویردی. - دوز دئدین، زردوشت! داها اؤزومه اینانمیرام. یوکسکلییه جان آتماغا باشلایاندان سونرا نه اؤزوم اؤزومه نه ده باشقالاری منه اینانمیر، - بو نئجه اولدو آخی؟

چوخ تئز دییشیلیرم: بو گونوم دونه نیمی اینکار ائدیر. قالخارکن بعضی پیللەلرین اوستوندن آتیلیرام: - هئچ بیر پیلله ده بونو منه باغیشلامیر.

یوکسکده اولاندا گؤرورم کی، تنهایام. منی دیندیرن اولمور، تنهالیغین شاختاسی ایلیییمی چالیر. یوکسکده نەلری آختاریرام؟

نیفرتیم ده حسرتیمله قوشا بؤیویور؛ یوکسەیه قالخدیقجا، قالخانلارا نیفرت ائدیرم. یوکسکده نەلری آختاریرلار؟

اؤز دیرماشماغیمدان و بودرمەییمدن نئجه ده اوتانیرام! اؤز تنگ نفسیمه نئجه ده لاغ ائدیرم! اوچانلارا نئجه ده نیفرت ائدیرم! یوکسکلیکده اولماقدان نئجه ده بئزمیشم».

بو یئرده گنج سوسدو. زردوشت ایسه، یانیندا اولان آغاجی نظردن کئچیریب بئله دئدی: "بو آغاج داغدا تک-تنها دوروب، او انساندان و حئیواندان یوکسکده بیتیب.

ایشدیر، دانیشماق ایسته سه، آنلایاجاق کیمسه سی تاپیلمازدی: ائله یوکسکده بیتیب.

ائله هئی گؤزلەییر، گؤزلەییر، - گؤزلەدییی ندیر بس؟ بولودلارا چوخ یاخین یاشاییر: یقین ایلک شیمشه یی گؤزلەییر او"؟

زردوشت بونو سؤیله میشدی کی، گنج فغان ائتدی:

"ائلەدیر، زردوشت، دوز دئدین. یوکسەیه جان آتارکن اؤلوم آرزولاییردیم، سنسه منیم گؤزلەدییم شیمشکسن! باخ، سن ظهور ائدندن گؤر نه حالا دوشموشم. سنه بسلەدییم حسد منی محو ائتدی! - گنج بئله دئییب آجی-آجی آغلادی. زردوشت اونو قوجاقلاییب اؤزونله آپاردی.

بیر آز بو مینواللا گئدندن سونرا بو سؤزلری دئدی:

- اورەییم پارچالانیر. تهلوکه ده اولدوغونو سنین گؤزلرین سؤزلریندن داها یاخشی آنلادیر.

هله آزاد دئییلسن، هله آزادلیغی آختاریرسان. بو آختاریشین سنی اویادیب، یوخونو دا سنه حارام ائدیب.

آزاد زیروه‌لره جان آتیرسان، قلبین اولدوزلارا سوساییب. آمما سنین منفور ایستکلرین ده آزادلیغا جان آتیر.

ایچینده‌کی قودوز ایتلر آزادلیغا داربنیر: روحون بوتون بوخوولاری قیریب آتماق ایسترکن اونلار اؤز زیرزمیلرینده سئوینجدن اولاییرلار.

منجه سن هله آزادلیق آرزولایان محبوسسان؛ آه، بو محبوسلارین روحو عاغیللی اولدوغو قدر ده حیله گر و منفور اولور.

قورتولان روح هله تمیزلنمه لیدیر. حبسخانانین چیرک-پاساغی هله اونون اوستونده دیر: هله اونون باخیشلاری تمیزلنمه لیدیر.

هه، سنین تهلوکه نی بیلیرم. آمما سنی آند وئریرم اؤز محبتیمه، اؤز اومیدلریم: سئوگیندن، اومیدلریندن واز کئچمه!

هله کی، اؤزونو نجیب سانیرسان؛ سنی سئومه ین‌لرده، دالینجا آجیقلا باخانلار دا سنی نجیب سانیرلار. بیل کی، نجیب انسان چوخلاری‌نین یولو اوستونده دایانیب.

نجیب کس خئیرخواهلاریندا یولو اوستونده دایانیب، اونلار نجیبه خئیرخواه دئینده اصلینده یولدان چیخارماق ایسته‌ییرلر اونو.

نجیب کس یئنی بیر شئی، یئنی بیر فضیلت یاراتماق ایسته‌ییر. خئیرخواه ایسه کؤهنه نی، کؤهنه نین قورونوب ساخلانماسینی ایسته‌ییر.

درد اوندا دئییل کی، نجیب خئیرخواها دؤنر، درد بوراسیندادیر کی، او سیرتیغا، لاغبازا، داغیدانا چئوریله بیلر.

آه، نجیبلر تانیییرام کی، نه عالی اومیدلرینی ایتیردیلر. و ایندی اونلار بوتون عالی اومیدلره شر آتیردیلار.

ایندی اؤتری آیلنجه‌لره، احتراصلارا قاپیلیبلار: مقصدلری ایسه بیر گونلویه گوجله یئتیر.

"روح اؤزو ده شهوتدیر" -بئله دئییردیلر. اوندا روحلاری‌نین قانادلاری سیندی: ایندی او روح هر یانا سورونور، دیشله‌دیبی هر شئیی موردارلاییر.

بیر واخت اورکلریندن قهرمانلیق کئچیردی، ایندی شهوت قوردونا دؤنوبلر. اونلارین قهرمانلیغی گم و قورخودور.

سنی آند وئریرم محبتیمه، اومیدلریم: قلبینده‌کی قهرمانی آتما! عالی اومیدینی مقدس ساخلا! -

زردوشت بئله دئدی.

اؤلوم واعیظلری حاققیندا

اؤلوم واعیظلری وار؛ هر یاندان اؤلومو مدح ائدنلرین سسی گلیر، و یئر اوزو اؤلومو مدح اولوناسی کسلرله دولودور.

یئر اوزو آرتیق آداملارلا دولودور، حیات انسانلارین ایفارت [تباهی] چوخ اولماسییله کورلانیب. کاش "ابدی حیات" آدییلا اونلاری بو حیاتدان توولاییب قوپارماق اولایدی!

"ساریلار" یا دا کی، "قارالار" -اؤلوم واعیظلرینه بئله دئییرلر. آمما ایستردیم اونلاری سیزه باشقا رنگلرده گؤسترم.

اونلار، بو قورخونجلار بطن‌لرینده وحشی حئیوان گزدیریرلر؛ اونلارین شهوتدن و یا اؤز حیاتلارینا قست ائتمکدن باشقا سئچیملری قالماییب. آمما اونلارین شفقتی ده اؤز حیاتلارینا قصددیر.

اونلار، بو قورخونجلار هله هئچ آدام دا اولماییبدیر؛ قوی اونلار حیاتا نیفرتی تبلیغ ائتسینلر و اؤزلری ده گئتسینلر!

قلبی وَرَملی دیر اونلارین: دوغولجاق اؤلمه‌یه باشلاییر و یورغونلوق، ترک-دونیالیق تعلیمینه سوساییرلار.

اونلار هوسله اؤلو اولماق ایسته‌ییرلر، گلین اونلارین بو ایسته یینی آلقیشلایاق! اماندیر، بو اؤلولری خورتلاتمایاق، بو جانلی تابوتلاری ترپتمه یک!

قارشیلارینا چیخان ایستر خسته اولسون، ایستر قوجا، ایستر اؤلو، او ساعات دئیه جکلر کی، "حیات تکذیب اولوندو!»

حال بو کی تکذیب اولونان اونلار اؤزلری و وارلیغین تک بیرجه اوزونو گؤرن گؤزلردیر.

آغیر درد پرده سینه بورونوب اؤلوم گتیرن کیچیک تصادوف‌لره سوسایاراق، بئله‌جه دیشلرینی بیر-بیرینه سیخیب گؤزله‌ییرلر.

یا دا اونلار شیرنیات قاپیشدیریر و عئینی زاماندا اؤز اوشاق حرکتلرینه گولورلر: اونلار حیاتدان سامان چؤپو کیمی یاپیشیر و سامان چؤپوندن یاپیشمالارینا لاغ ائدیرلر.

اونلارین مودریکلیگی بودور: "یاشایان آخماقدیر، بیز ده بئله‌جه آخماقیق! دونیادا بوندان آخماق شئی اولا بیلمز!»

"یاشاماق یالنیز عذاب چکمکدیر"! -اؤزگه‌لر بئله دئییر، یالان دا دئمیرلر: اوندا چالیشین کی، قورتاراسینیز! چالیشین کی، بوسبوتون اضطیراب اولان بو حیات قورتارسین!

فضیلتینیزین قایداسی بئله سسلنمه لیدیر: "سن اؤزون اؤزونو اؤلدورمه لیسن! سن اؤزونو اؤزوندن اوغورلامالیسان! -

"شهوت گوناهدیر، - اؤلوم واعیظلری بئله دئییر - گلین بیر کنارا چکیلک، اوشاق تؤرتمه یک!»

"دوغماق عذابلی دیر، - باشقالاری ایسه بئله دئییر - نییه ده دوغاسان؟ اونسوز دا دوغولانلار هامیسی بدبخت اولور! " ائله اونلار دا اؤلوم واعیظلریدیر.

"رحم ائدین - اوچونجولر دئییر. -نَییم وارسا گؤتورون! اؤزومو ده آلین مندن! اوندا حیاتلا ایلیشکیم آزالار"!

اونلار دوغرودان مرحمتلی اولسایدیلار، اؤز یاخین آداملاریندا حیات عشقینی اؤلدورردیلر. غدارلیق - اونلارین ان بؤیوک یاخشیلیغی.

آمما اونلار حیاتدان یاخا قورتارماق ایسته‌ییرلر: اؤز زنجیر و بخشیشلری ایله باشقالارینی حیاتا داها مؤحکم باغلادیقلاری وئجلرینه ده دئییل.

ائی سیزلر - سرت امک، سورعت، یئنیلیک، غئیر-معین‌لیک سئونلر، - سیز اؤزونوزو پیس حیس ائدیرسینیز؛ سیزین بوتون فعالیتینیز اؤزوندن قاچما و اؤزونو اونوتما ایسته یی دیر.

حیاتا بیر آزاجیق اینامینیز اولسایدی، آنین تاثیرینه آز قاپیلاردینیز. گل کی، نه اینکی گؤزله مک، هئچ تنبللیک ائتمک اوچون قلبینیزده معنا چاتمیر!

هر یاندان اؤلومو مدح ائدنلرین سسی گلیر، و یئر اوزو اؤلومو مدح اولوناسی کسلرله دولودور.

یاخود "ابدی حیاتین" - منیم اوچون هامیسی بیردیر، - تکی اونلار یوبانمادان اورا یوللانسینلار.

زردوشت بئله دئدی.

حرب و حربچیلر حاققیندا

ان یاخشی دوشمنلریمیزدن امان دیله میریک، بیر ده بوتون قلبیمیزله سئودیکلریمیزدن. قویون، سیزه حقیقتی سؤیله ییم!

منیم حربچی قارداشلاریم! من سیزی اورکدن سئویرم، سیزینله یم، دایم سیزین برابرینیز اولموشام. و هم ده سیزین ان یاخشی دوشمنینیزم. قویون، سیزه حقیقتی سؤیله ییم!

اوریینیزده‌کی نیفرتدن ده، حسددن ده خبردارام. نیفرت و حسدی تانیمایاجاق قدر بؤیوک دئییلسینیز. باری اؤزونوزدن خجالت چکمیه جک قدر بؤیوک اولون!

و اگر ایدراک مجاهیدلری اولماغی باجارمیرسینیزسا، هئچ اولماسا اونون سیراوی دؤیوشچوسو اولون! اونلار بو مجاهیدلرین مژده چیسی و یول یولداشلاریدیر.

گؤز ایشله‌دیکجه بؤلوک-بؤلوک عسگر گؤرورم: جنگاور گؤرمک ایستردیم! گئیه جکلرینه "واحید فورما" دئییرلر: کاش اونون آلتینداکی لار "واحید فورما" اولمایایدی.

گؤزلرینیز هر آن دوشمن آختارمالیدیر - اؤز دوشمنینیزی. بعضی‌لرینیز ائله ایلک باخیشدان نیفرت ائدیر.

دوشمنینیزی آختارمالی، حربینیزی ائتمه لی، فیکیرلرینیز اوغروندا جنگه چیخمالیسینیز. و اگر فیکیرلرینیز مغلوب اولسا، بو مغلوبیتین اوزرینده ویجدانینیز ظفر چالمالیدیر.

صولحو یئنی ساواشلارا حاضیرلیق فورصتی کیمی سئومه لیسینیز. قیسا مدتلی صولح اوزوندان داها خوش گلمه لیدیر سیزه.

سیزی ایشه دئییل، مبارزه یه چاغیریرام. سیزی صولحه دئییل، غلبه یه چاغیریرام. قوی ایشینیز مبارزه، صولحونوز غلبه اولسون!

یالنیز الینده اوخ-یای اولاندا ساکیت اوتوروب سوسماق اولار: یوخسا بوش-بوش دانیشیب سؤیوشورلر. قوی صولحونوز غلبه اولسون!

دئییرسینیز، خئیرخواه مقصد حتتا حربی مقدس لشدیریر؟ منسه سیزه دئییرم کی، حربین خئیری هر بیر مقصدی مقدس لشدیریر.

حرب و جسارت بشر اؤولادینا محبتدن قات-قات چوخ ایش گؤروب. ایندییه دک مظلوملاری خیلاص ائدن سیزین رحمینیز دئییل، ایگیدلییینیزدی.

"یاخشی ندیر"؟ -سوروشورسونوز. یاخشی - ایگیدلیکدیر. "مهربان اولماق هم گؤزل، هم ده تاثیرلیدیر" بو سؤزلری سیز یوخ، بالاجا قیزلار دئیه بیلر.

دئییرلر اوره یینیز داشداندیر: حال بو کی اوره یینیز صمیمی دیر، خالیص دیر و من اوره یینیزین اوتانجینی سئویرم. سیز قابارمادان، اؤزگه‌لر ایسه چکیلمه دن اوتانیر.

عئیبَجرسینیزمی؟ نه اولار، قارداشلار! سیز ده عئیبجرلرین عباسی اولان عالی لییه بورونون!

قلبینیز بؤیودوکجه تکبرونوز آرتیر؛ و عالیجناب لیغینیزین مایاسینا غضب قاتیلیب. تانییرام سیزلری.

تکبرلو و مظلوم بیر-بیرییله غضبده قارشیلاشیر. آمما بیر-بیرینی آنلامیرلار. تانییرام سیزلری.

دوشمنینیز ایکراها دئییل، نیفرته لاییق اولمالیدیر. دوشمنلرینیزله فخر ائتمه لیسینیز، اوندا اونون اوغورو سیزین ده اوغورونوز اولار.

قیام قولون مردلییدیر. قوی سیزین مردلییینیز ایطاعت اولسون! قوی وئردییینیز امر بئله ایطاعت اولسون!

یاخشی حربچی‌نین قولاغیندا "سن ائتمه لیسن"، "من ایسته‌ییرم"دن خوش سسله نیر. سیزه عزیز اولان نه وارسا، اول اؤزونوزه امر ائتمه لیسینیز اونو!

قوی سیزین حیاتا محبتینیز ان عالی اومیدلره محبت اولسون، سیزین عالی اومیدینیز ایسه حیات حاققیندا ان عالی دوشونجه سی اولسون!

سیزین ان عالی دوشونجه نیزی ایسه من امر ائده جییم - ائشیدین، انسان بئله بیر شئی دیر کی، اؤزوندن یوکسه‌یه قالخمالیدیر.

بئله‌جه اؤز ایطاعت و حرب عؤمرونوزو یاشایین! اوزون عؤمور نه یه گرکدیر؟ هانسی ایگید رحمی قبول ائدر؟

سیزه یازیغیم گلمیر، سیزی قلبن سئویرم، منیم محاریبه قارداشلاریم! - زردوشت بئله دئدی.

یئنی بوت حاققیندا

هارداسا هله ده خالقلار، سورولر قالماقدادیر، بیزده ایسه باشقا جوردور، قارداشلار، بیزده دؤولتلر وار.

دؤولت؟ نه دئمکدیر بو؟ قولاقلارینیزی یاخشی-یاخشی آچین، ایندی سیزه خالقلارین اؤلوموندن دانیشاجاغام.

دؤولت بوتون سویوق اژداهالارین ان سویوغودور. یالانی دا سویوقدور اونون. گؤز نئجه یالانلار اویودوب تؤکور: "من، دؤولت، ائله - خالقام".

یالاندیر! خالقی یارادان، اونا اینام و سئوگی بخش ائدن یارادانلار اولدو، حیاتا بئله خیدمت ائتدیلر اونلار.

هر آددیمدا تله قوروب اونو دؤولت آدلاندیرانلار - داغیدانلاردیر: قوردوقلاری تله یه یوزلرجه آرزو-ایستک ایلیشدیریب باشی اوستدن قیلینج آسیبلار.

هارادا هله ده خالق قالیبسا او دؤولتی آنلامیر، اونو بد نظر، عادتلرین و قانونلار تاپدالانماسی کیمی گؤرور و نیفرت ائدیر.

سیزه بیر ایشارت وئریم: هر خالق خئیرینی، شرینی اؤز دیلینده آنلادیر - قونشو اونو آنلامیر. آخی، بو دیلی اؤز عادتلریندن، حقوقلاریندان ایجاد ائدیب او.

لاکین دؤولت بوتون دیللرده خئیر و شر حاققیندا یالان ساتیر: نه دئییرسه، یالاندیر، نه‌یی وارسا، اوغورلوقدور.

هر شئیی ساختادیر، اوغورلوق دیشلرله‌دیشله‌ییر بو دیشلی حئیوان. بطنی بئله ساختادیر اونون.

خئیر و شر دیللرین قاتیشیق سالینماسی: بودور سیزه وئره‌جه ییم ایشاره، دؤولتین ایشاره سی.

حقیقتن، بو ایشاره اؤلوم عزمیندن خبر وئریر! حقیقتن، اونون گؤزو اؤلوم واعیظلرینی گزیر!

چووخ-چوخلاری دوغولور: دؤولت آرتیق آداملار اوچون ایجاد اولونوب! باخ گؤر او اونلاری، چووخ-چوخلارینی نئجه توولاییر! گؤر بو چوخلاری او نئجه جلب ائدیر! گؤر نئجه اونلاری بوغور، چئینه‌ییر، گمیریر!

دونیادا مندن نهنگ شئی یوخدور: آللاهین ایداره ائدیجی بارماغیییام من "، - اژداها نره تپیر. و نه یازیق کی اونون قارشیسیندا دیز چؤکن یالنیز اوزون قولاقلار، دارگؤزلر دئییل!

آه، بؤیوک قلبلر، اؤز قارا یالانلارینی سیزه ده پیچیلدایییر او. آه، اونون گؤزو فداکار، زنگین قلبلری نئجه تئز تاپیر!

بلی، سیزلر ده گؤزوندن یاییینمیرسینیز اونون، کؤهنه آللاهین مظفرلری! دؤیوشلر سیزی یوروب، ایندی بو یورغونلوق یئنی بوته ستایش ائدیر!

اطرافینا قهرمانلاری، تمیزلری ییغماق ایسته‌ییر بو یئنی بوت! تمیز ویجدانین شفقلری آلتیندا اؤزونو گونه وئرمه یی خوشلاییر بو سویوق اژداها!

سیزینچون هر شئیندن کئچمه‌یه حاضیردیر، تکی اونا، بو یئنی بوته سجده ائتسه نیز: سیزین فضیلتینیزین شفقینی، مغرور گؤزلرینیزین باخیشینی بئله‌جه ساتین آلیر.

چووخ-چوخلارینی - سیزلری - آلدادیب تورا سالماق ایسته‌ییر! هه، عجب تله تیکه سی تاپیب، ایلاهی احترامین توزوندان فینخیران اؤلوم آتی!

هه، چوخلاری اوچون حیات دونونا گیرمیش اؤلوم ایجاد اولونوب: دوغرودان دا اؤلوم واعیظلری اوچون میثیل سیز خیدمتدیر!

او یئرده‌کی هامی، یاخشیلار دا، یامانلار دا زهر ایچیرلر؛ او یئرده‌کی، هامی، یاخشیلار دا، یامانلار دا اؤزونو ایتیریر؛ او یئرده‌کی هامی‌نین تدریجی انتحارینا "حیات" دئییلیر - من اورا دؤولت دئییرم.

بو آرتیق آداملارا باخین! اختراعچی لارین اثرینی، مودریکلرین خزینه سی اوغورلاییرلار: اوغورلوقلارینا مدنیت آدی قویورلار و هر شئیلری خسته لییه، بدبختلییه دؤنور.

بو آرتیق آداملارا باخین بیر! ایل-مدام خسته دیرلر، اؤدلرینی قوسور، آدینی قزئت قویورلار. بیر-بیرینی اودور، هئچ واخت دا هضم ائده بیلمیرلر.

بو آرتیق آداملارا باخین! ثروت قازانیر، آمما گونبَگون کاسیبلاییرلار. حاکیمیتدیر ایسته دیکلری، ایلک اؤنجه ایسه حاکیمیتین دیره یی، چوخلو پول، - آه، عاجیزلر!

بیر گؤر بو قیوراق مئیمونلار نئجه دیرماشیر! بیر-بیری‌نین تپه سینه دیرماشیر، سونرا ایسه لئهمه‌یه، اوچوروما یووارلانیرلار.

هامیسی تاخت-تاجا ساری دارتینیر: آخماقلار، ائله بیلیرلر خوشبختلیک تاخت-تاجدادیر! گاه لئهمه تاخت-تاجدا اوتورور، گاه دا تاخت-تاج لئهمه ده.

منجه، اونلارین هامیسی دَلی سُوو، چئویک مئیمونلاردیر، اونلار هاوالانیبلار. منجه، اونلارین بوتو، سویوق اژداها پیس ایله نیر؛ منجه بو بوت پرستلرین هامیسی پیس ایله نیر.

قارداشلار، اونلارین آغیزلاری‌نین، تاماهلاری‌نین قوخوسوندان بوغولماقمی ایسته‌ییرسینیز؟ تئز، پنجره‌لری سیندیرین، آچیقلیغا توللانین!

پیس قوخودان قاچین! آرتیق آداملارین بوت پرستلییندن اوزاق دولانین!

پیس قوخودان قاچین! انسان قوربانلاری‌نین توستوسوندن اوزاقلاشین!

هله کی آزاد تورپاقلار بؤیوک قلبلیلرین پیشوازینا منتظردیر. هله کی تنهالار و جوت-جوت تنها اولانلار اوچون دنیز قوخولو آزاد مکانلار وار.

هله کی، بؤیوک قلبلر اوچون آزاد حیات آزاد دوروب. دوغرودان دا دونیا مالینا یئیه‌لنمه ین کسه دونیا یئیه‌لنمز. آزین یوخسوللوغونا عشق اولسون!

دؤولت قورتاران یئرده، آرتیق اولمایان انسان باشلایان یئرده ضروریلرین نغمه سی باشلاییر؛ اونون ترانه سی یئگانه و عوضسیزدیر.

اورایا، دؤولتین قورتاردیغی یئره باخین، قارداشلار! فؤق الانسانا آپاران گؤی قورشاغینی و کؤرپونو گؤرمورسونوزمو؟ -

زردوشت بئله دئدی.

بازار میلچکلری حاققیندا

قاچ، دوستوم، اؤز تنهالیغینا قاچ! گؤرورم، قولاقلارین بؤیوک آداملارین هارای-قیشقیریغیندان باتیب، مظلوملارین آه-ناله‌سیندن یاغیر اولوب.

مئشه ده، قایالار دا سنینله برابر لیاقتله سوکوتا وارمیشدیلار. سئودیین او آغاجدان عبرت گؤتور، باشینی دنیزین اوزرینه اَیَرک ساکیتجه دینله‌ییر.

تنهالیغین قورتاردیغی یئرده بازار باشلانیر؛ بازارین باشلاندیغی یئرده ایسه ماهیر اویونبازلارین های-کویو و زهرلی میلچکلرین ویزیلتیسی باشلاییر.

تقدیم ائدن اولماسا، دونیانین ان یاخشی شئیلری ده هئچ نه یه دَیمز؛ خالق بو تقدیماتچیلارا بؤیوک آدام دئییر.

خالق بؤیویو، یعنی یارادانی آنلامیر، آمما بؤیوک شئیلرین تقدیماتچیلارینی و اویونبازلارینی سئویر.

دونیا یئنی دیر یارادانلارین باشینا فیرلانیر —سس سیزجه فیرلانیر. فقط خالق و شان-شؤهرت اویونبازلارین باشینا فیرلانیر - دونیانین گردیشی بئله‌دیر.

اویونبازین روحو وار، آمما روح ویجدانی یوخدور. او دایم باشقالارینی مؤحکم ایناندیردیغی بیر شئیه اینانیر - اؤزونه!

صاباح باشقا اینامی اولاجاق، بیریگون بامباشقا. حیسلری خالق کیمی چئویک، احوالی دَییشکن دیر.

دارماداغین ائتمه یی - ثبوت ائتمک بیلیر. دلی ائتمک - اونون دیلینجه ایناندیرماقدیر. قان اونون نظرینده دلیل‌لرین ان گؤزه لیدیر.

یالنیز حساس قولاقلارا نفوذ ائدن حقیقتی او، یالان و پوچ آدلاندیریر. اصلینده او تکجه دونیادا ان چوخ گورولتو قوپاران آللاهلارا اینانیر!

بایرام بازاری تلخَک‌لرله دولودور، - خالق ایسه بونلاری بؤیوک انسان بیلیب، بونلارلا اؤیونور! خالق اوچون اونلار آنین آغاسیدیرلار.

فقط آن اونلاری تلَسدیریر، اونلار دا سنی. سندن هه، یا یوخ جاوابی آلماق ایسته‌ییرلر. آماندیر، سن هه، یا یوخ آراسیندا قالماق ایسته‌ییرسن؟

ائی حقیقت عاشیقی، بو قئید-شرطسیزلره، بو تلسدیرنلره اَزنلره حسد چکمه! هله هئچ واخت حقیقت قئید-شرطسیزلرین الینه دوشمه‌ییب.

اوزاق دولان بو تله سن‌لردن، تکجه بازاردا "یا هه، یا یوخ" دئیه آدامی دیوارا دیرییَرلر.

درین بولاقلارین هامیسی‌نین حیاتی لَنگ کئچیر: دیبلرینه دوشن شئیی آییرد ائتمک اوچون چوخ گؤزلَمه لی اولورلار اونلار.

بوتون بؤیوکلر بازاردان و شؤهرتدن کنار گزیر: یئنی دیرلری یارادانلار ازلدن بازاردان و شؤهرتدن اوزاق یاشامیشلار.

تنهالیغا چکیل، دوستوم! گؤرورم، زهرلی میلچکلر سنده ساغ توتار یئر قویماییب. سرت، صفالی کوله یین اسدیبی یئرلره قاچ! تنهالیغا قاچ! کیچیک، میسکین انسانجیقلارا چوخ یاخین یاشامیشدین. اونلارین گؤرونمز قیصاصیندان قاچ! تک آرزولاری سندن قیصاص آلماقدیر.

ال قالدیرما اونلارا! نه سایلاری وار، نه حسابلاری، سنین آلنینا ایسه میلچک قیران اولماق یازیلماییب.

بو کیچیک، میسکین انسانجیقلارین سایی-حئسابی یوخدور؛ و بعضن یاغیش داملالاری، آلاق اوتلاری دا محتشم بیر تیکیلی‌نین آخیرینا چیخیر.

سن داش دئییلسن، آمما دامجیلار اویوم-اویوم اویوب سنی. دامجی چوخالینجا چاتلایاجاق، سیناجاقسان.

گؤرورم، زهرلی میلچک‌لر الدن سالیب سنی، قانین یوز یئردن چئشمه کیمی گؤز وئریب؛ غرورونسا سنی هئچ آجیقلانماغا دا قویمور.

گوناهسیزدیلار، آمما سنین قانینا سوساییبلار اونلار، قانسیز اورکلری اونلاری قانا یئریکله‌ییر، اونا گؤره ده اونلار سنی گوناهسیزجاسینا سانجیرلار.

آمما سن درین انسانسان، سن ان کیچیک یارالاردان درین عذاب چکیرسن؛ و هله تامام-کامال ساغالمامیش زهرلی قورد تَزه دن یارانا داراشیر.

بو قارینقولولاری اؤلدورمه‌یه غرورون یول وئرمیر. آمما اؤزونو گؤزله کی، اونلارین زهرلی زوراکیلیغینی چکمک سنین طالع یازینا دؤنمه سین!

اونلار اؤز تعریفلری ایله سنین بؤیور-باشیندا ویزیلداشیر، تعریفلری - زهله تؤکمکدیر . اونلارا سنین دری‌نین، قانی‌نین تماسی گرکدیر.

اونلار سنه آللاها، یا دا کی شئیطانا یالتاقلانان سایاق یالتاقلانیر، آللاهین، یا شئیطانین قارشیسیندایمیشلار کیمی جیگگیلدَشیرلر. نه ائتمه لی؟ یالتاقدان، ویزیلچکدن ساوایی بیر شئی دئییل اونلار.

هردن سنینله التفاتلی دولانیرلار. آمما بونون دا مایاسی قورخاقلارین بیجلییی دیر. بلی، قورخاقلار بیجدیر!

اؤز دار قلبلری ایله دایم سنی دوشونورلر، - دایم شوبهه لی گؤرونورسن اونلارا! نه‌یی چوخ دوشونورلرسه شوبهه لی گؤرونور اونلارا.

بوتون فضیلتلرین اوچون سنی جزالاندیریرلار: تک بیرجه شئیی باغیشلاییرلار سنه - سهولرینی.

مهربان، عدالتلی اولدوغونا گؤره دئییرسن: "اونلار اؤز میسکین‌لیکلرینه گؤره گوناهکار دئییل". حال بو کی اونلار اؤز دار قلب‌لرینده: "بوتون بؤیوکلوک‌لر گوناهکاردیر"، - دئییب دورور.

اونلارا قارشی نه قدر لوطفکار اولسان دا سنین ایکراهینی دویور، خئیرخواهلیغی‌نین عوضینی گیزلی یامانلیقلا قایتاریرلار.

سنین دیلسیز-آغیزسیز غرورون اونلارین ذؤوقونو اوخشامیر؛ سنین بیر آنلیغا دا اولسا شؤهرته اویدوغونو گؤرنده برکدن سئوینیرلر.

انساندا آنلادیغیمیز بیر شئی اولاندا اود ووروب یاندیریریق اونو. میسکین آداملاردان اؤزونو گؤزله!

سنین قارشیندا اونلار اؤز میسکین‌لیینی دویورلار؛ و اونلارین آلچاقلیغی گؤرونمز بیر انتقام اودوندا آلوولانیر.

گؤرمه دینمی، سن گلن کیمی نئجه سوسدولار، طاقت ده، توستو سؤنن آلووو ترک ائدن کیمی، اونلاری ترک ائتدی؟

هه، دوستوم، یاخینداکی لارین سن ویجدان تنه سی سن: چونکو اونلار سنه لاییق دئییل. اونا گؤره سنه نیفرت ائدیر و قانینی لذتله سوراردیلار.

یاخینداکی لارین دایم زهرلی میلچکلر اولاراق قالاجاق؛ سنده بؤیوکلوک آدینا نه وارسا، -اونلاری داها زهرلی ائده جک و میلچه یه داها چوخ بنزده جک اونلاری.

قاچ، دوستوم، اؤز تنهالیغینا قاچ، سرت، صفالی کوله یین اسدییی یئرلره قاچ! سنین آلنینا میلچک قیران اولماق یازیلماییب. -

زردوشت بئله دئدی.

عیصمت حاققیندا

مئشه‌نی سئویرم. شهرده یاشاماق چتیندیر: احتیراصلی‌آداملار چوخدور اورادا.

احتیراصلی قادی‌نین یوخوسونا گیرمکدنسه قاتیل الینه دوشمک یاخشی دئییلمی؟

بو کیشی‌لره بیر باخین: گؤزلریندن اوخونور کی، اونلار دونیادا قادینلا یاتماقدان گؤزل بیر شئی بیلمیرلر.

قلبلرین دیبینه چیرک ییغیلیب، و وای حالینا کی، بو چیرکین هله روحو دا اولا!

آه، سیز باری حئیوانلار کیمی مکمل اولسایدینیز! آمما حئیوانلارین گوناهسیزلیغا مالیکدیر.

مگر من- حیسلرینیزی اؤلدورون، - دئییرم سیزه؟ ایسته‌ییرم حیسلرینیز معصوم اولسون.

مگر من عیصمت توصیه ائدیرم سیزه؟ عیصمت کیمی اوچون فضیلت، چوخلاری اوچون ایسه دئمک اولار کی، قوصوردور.

اونلار اؤزلرینی [زینادان] بیرتهر ساخلاییرلار، آمما قول قویدوقلاری هر ایشدن قانجیق حیسیاتی بویلانیر.

حتتا فضیلتلری‌نین زیروه سینه، سرت روحلارینا قدر بو حئیوان اؤز چکیشمه‌لری، نیفاقلاری ایله ایزله‌ییر اونلاری.

و بیر تیکه جیسمی اوندان اسیرگه ینده، بیر تیکه روح اوچون نئجه ایلان دیلی چیخاریر بو قانجیق حیسیاتی!

فاجیعه‌لری، اورک پارچالایان شئیلری سئویرسینیز، دئییلمی؟ من ایسه سیزین قانجیغینیزا شوبهه ایله یاناشیرام.

گؤزلرینیزدن غدارلیق یاغیر، شهوتله باخیرسینیز عذابکئشه. مرحمت دئدیینیز شئی ساده جه لیباسینی دییشمیش شهوت دئییلمی؟

بیر رمز دئییم سیزه: چوخلاری شئیطانی قووماق ایسترکن اؤزلری "دونوزلارین ایچینه گیردی" ***(بو سیتات اینجیلدندیر -).***

عیصمتین چتین گؤروندویو کسلره اونو کنارا قویماق توصیه ائدین: قوی او جهنم یولونا، یعنی قلبین لئهمه و شهوتینه دؤنمه سین!

موردار شئیلردن دانیشیرام؟ منجه یوخ، بوندان بئترلری ده وار.

ایدراکلی انسان حقیقتین سولاری چیرکلی اولاندا دئییل، دایاز اولاندا او سویا گیرمه‌یه سئومیر.

ایلیگینجن عیصمتلی اولانلار دا وار: اونلارین اورکلری سیزینکیندن داها یومشاق، گولوشلری داها بولدور.

عیصمتین اؤزونه ده گولور اونلار، سوروشورلار: "عیصمت نه اولان شئیدیر؟

دلی‌لیک دئییلمی عیصمت؟ آمما بو دلی‌لیک اؤزو گلیب بیزی تاپیب، بیز اونو یوخ.

بیز بو قوناغا سیغیناجاق و قلبیمیزده یئر وئردیک: ایندی بیزیمله یاشاییر، - قوی ایسته دیی قدر قالسین"! -

زردوشت بئله دئدی.

دوست حاققیندا

"هر زامان تک قالماق منه چوخدور" - ترک-دونیا انسان بئله دوشونور. "بیر ایله بیر واختی گلدیکده ایکییه چئوریلیر».

"من" هر درد-سریمی اؤز "منیم"له بؤلوشورم، گؤره سن دوست اولماسا آدام بونا نئجه دؤزه بیلر؟

ترک-دونیا انسانی اوچون دوست همیشه اوچونجو شخصدیر: اوچونجو شخص ائله بیر مانعه دیر کی، ایکی نفرین صؤحبتینی درین اوچوروما یووارلانماغا قویمور.

آه، بوتون ترک-دونیالارین چوخ درین اوچوروملاری وار! بونا گؤره ده اونلار دایما دوست و دوستون بؤیوکلویو حسرتینده دیرلر.

بیزیم باشقالارینا اینامیمیز اؤزوموزه نه یئرده اینانماق ایسته دییمیزدن خبر وئریر. بیزیم دوست حسرتیمیز اصلینده اؤز جاسوسوموزدور.

چوخ واخت محبت بیزه یالنیز پاخیللیغی دفع ائتمک اوچون لازیم اولور. چوخ واخت اونا گؤره هجوم ائدیب دوشمن قازانیرلار کی، اؤزلری‌نین هجوما معروض قالا بیله جکلرینی گیزلتسینلر.

دوستلوق دیله مه‌یه جسارتی چاتمایان اصل احتیرام: "هئچ اولمازسا دوشمنیم اول"! -دئییر.

دوست تاپماق ایسته ین گرک اونون اوچون ساواشسین؛ ساواشماق اوچون ایسه دوشمن چیلیک ائتمه یی باجارمالیسان.

سنین دوستون، عئینی زاماندا دوشمنین دیر و سن بو دوشمنه ده حؤرمت ائتمه لیسن.

دوستونا یاخینلاشیب اونون طرفینه کئچمه مه‌یه بیلرسنمی؟

دوستون سنین ان قاتی دوشمنین اولمالیدیر. اونون ضیددینه گئدنده ده قلبن اونا ان یاخین آدام سن اولمالیسان.

دوستونون قارشیسیندا ماسکالانماق ایسته میرسن؟ دوستون فخر ائتمه لیدیر کی، سن اونا اؤز اصل سیمانی گؤستریرسن؟ آمما بونونچون اونون سندن زهله‌سی گئدیر.

اؤزونو سیرر پرده سینه بورومه سن جاماعاتین سنه آجیغی توتاجاق، حال بو کی لوت آدامدان قورخماغا هئچ بیر اساسیمیز یوخدور! البته آللاه اولسایدینیز، اؤز گئییمینیزدن اوتانماغا باجاراردینیز!

اؤزونو دوستون اوچون سن یئترینجه گؤزل بَزه نه بیلمزسن، چونکو سن اونون اوچون اوخ و فوق الانسان حسرتی اولمالیسان!

دوستونون اصلینده نئجه اولدوغونو بیلمک اوچون اونا هئچ یاتان یئرده باخمیسانمی؟ اصلینده دوستونون صیفتی ندیر آخی؟ بو سنین اؤزونون بیر آز ناهامار، کله-کؤتور گوزگوده‌کی عکسیندیر.

دوستونو هئچ یاتان یئرده گؤرموسنمی؟ اونون گؤرکمی سنی قورخوتمادی کی؟ اوف، دوستوم، انسان بئله بیر شئیدیر کی، اؤزوندن یوکسه‌یه قالخمالیدیر.

دوستون سنی دویماقدا دا، سوسماقدا دا ماهیر اولمالیدیر. ائله شئیلر وار کی، گرک سن ده گؤرمه مزلییه ووراسان. سنین یوخون دوستونون آییقلیقدا نه ائتدییندن سنه خبر وئرمه لیدیر.

سنین مرحمتین عالی دویغو اولمالیدیر: آمما گرک اول بیله سن گؤرک دوستونون بو مرحمته احتیاجی وارمی؟ بلکه او سنده‌کی سویوق گؤزلری و ابدیته دیکیلمیش باخیشلاری سئویر؟

دوستا مرحمت چوخ سرت قینین ایچینده گیزلنمه لیدیر، اونا دیش باتیران بو دیشدن الی چیخاجاغینی دا گؤزو آلتینا آلمالیدیر. اوندا آنجاق بو مرحمت ظریف و شیرین اولاجاق.

سن دوستون اوچون تمیز هاوانی، تنهالیغی، چؤره یی، درمانی عوض ائده بیلرسنمی؟ بعضن انسان اؤز زنجیرینی قیرا بیلمیر، آمما دوست اوچون خیلاصکار اولور.

کؤله سنمی؟ اوندا سندن دوست چیخماز. ظالیمسانمی؟ اوندا سنین دوستون اولا بیلمز.

چوخ-چوخ ایللر اوزونو قادین خیصلتینده کؤله و ظالیم گیزلنمیشدی. اونا گؤره قادین هله ده دوستلوغا قابیل دئییل: او یالنیز محبتی تانیییر.

قادین محبتی سئومه دیبی هر شئیه قارشی عدالتسیز و کوردور. آروادلارین شورلو محبتینده ده گؤزله نیلمزلیک و ایلدیریم وار، گوندوز ده گئجه دن اوزاق دئییل!

قادین هله دوستلوغا قابیل دئییل: آروادلار هله ده طبیعتن پیشیک و قوش اولاراق قالیر. یا دا ان یاخشی حالدا اینک.

قادین هله دوستلوغا قابیل دئییل. بس سیز، کیشی‌لر، دئیین گؤرک، سیزلردن کیم دوستلوغا قابیلدیر؟

کیشی‌لر، یازیقلار اولسون سیزین روحی یوخسوللوغونوزا، سیمیج‌لیینیزه! سیزین دوستلارینیزا وئردیینیزی من دوشمنیمه وئرر و بوندان قطعین کاسیب دوشمزدیم.

یولداشلیق وار: کاش دوستلوق دا اولایدی!

زردوشت بئله دئدی.

مین بیر مقصد حاققیندا

زردوشت چوخ اؤلکه‌لر گزدی، چوخ خالقلار گؤردو: هر دورلو خالقین خئیرینه ده بلد اولدو، شرینه ده. جومله-جاهاندا خئیردن و شردن اولو قووت تاپمادی.

هئچ بیر خالق دَیرلندیرمه کئچیرمه دن یاشایا بیلمز: اگر او اؤزونو قورویوب ساخلاماق ایسته‌ییرسه، وئردییی قیمت قونشونونکونون عئینی اولمامالیدیر.

بیر خالقین یاخشی دئدییی شئی باشقاسیندا ائیب و روسوایچیلیق سایيلیر: بئله گؤردوم. بورادا لعنتلنن چوخ شئیلر اورادا دفنه چلنگی ایله بزه دیلیر.

قونشو قونشونو هئچ واخت آنلامایيب: اونون قلبی مودام قونشونون آخماقلیق و غدارلیغیندان تعجبله نیب.

هر خالقین باشی اوستونده خئیرخواهلیق لؤوحه سی آسیلیب. یاخشی باخ، بو اونون اؤزونو یئنمه لؤوحه سیدیر، باخ، بو اونون حاکیمیت ایسته یی‌نین سسی دیر.

اونا چتین گؤرسنن هر شئیی تعریفله‌ییر؛ لابود و چتین شئیلری یاخشی، اونو ان بؤیوک احتیاجدان قورتاران نادیر و مشکل شئیلری ایسه مقدس آدلاندیریر.

او، اونا حؤکم ائتمه‌یه، ظفر چالماغا، قونشولارینی قورخو و حسددن چاتلاتماغا ایمکان وئرن شئیه زیروه، لابود باشلانغیج، معیار و هر شئیین معناسی سانیر.

دوغرودان دا، قارداشیم، بیر خالقین احتیاجینی، تورپاغینی، سماسینی، قونشوسونو تانیسان، اونون غلبه‌لری‌نین سیررى ده، نه‌یین نامینه پیلله‌لرله اومیدینه ساری دیرماندیغی دا سنه آیدین اولار.

"دایم بیرینجی اولمالی، هامی‌نین اؤنونده دایانمالیسان؛ سنین قیسقانج قلبین دوستوندان ساوایی کیمسه نی سئومَمه لیدیر"، - بو سؤزلر یونانین قلبینی سارسیدیردی؛ و او اؤز محتشم یولونو گئدیردی.

"حقیقتی سؤیله، اوخ-یایلا اوستا داوران"، - بو منیم آدیمین دا منسوب اولدوغو خالقا - آدی منیم اوچون عئینی درجه ده عزیز و آغیر اولان بیر خالقا هم عزیز هم ده آغیر گلیردی.

"آتا-آنایا احترام گؤستر، روحونون درین قاتلاریندا دا اونلارین خیدمتینده دایان" - بو وصیتی ایسه اؤزگه بیر خالق باشی اوستوندن آسدی، بونونلا اؤزونو قدرته و ابدیته قووشدوردو.

"صادیق اول، صداقت نامینه لاپ شر و خطالی ایشلرده ده قانینی آخیتماقدان چکینمه" -باشقا بیر خالق بونو اؤیرنه رک اؤزونو یئندی و بئله‌لیکله بؤیوک اومیدلره یئیه‌لندی.

حقیقتن، انسانلار اؤزونون بوتون خئیر و شرینی اؤزلری یارادیبلار. حقیقتن، اونلار بو خئیر و شری نه تاپیبلار، نه ده بو اونلارا ایلاهی وحی کیمی نازیل اولوب.

انسان اؤزونو ساخلاماق اوچون اول-اول شئیلره دیَر وئردی - اولجه او شئیلرین معناسینی یاراتدی، انسانی معناسینی! اونا گؤره او اؤزونه انسان دئییر، یعنی صراف!

صرافلیق - قیمت وئرمک - یاراتماقدیر: ائشیدین، ائی یارادانلار! قیمت وئرمک اؤزو بوتون قیمتلندیریلن شئیلرین ان قیمتلیسی دیر، اینجیسی دیر.

دیَر قیمتلندیرمه دن تؤره‌ییر؛ قیمتلندیرمه اولماسا، - حیات بیر چوروک قوزا دَیمزدی. دینله یین، ائی یارادانلار!

دیَرلرین دَییشمه سی - یارادانلارین دییشمه سی دیر. یارادان اولماق ایسته ین دایم محو ائتمه لیدیر.

یارادانلار اول خالقلار، چوخ سونرالار آیری-آیری فردلر اولوب؛ اصلینده آیریجا فرد اؤزو یارانیشین ان یئنی تظاهورلریندندیر.

بیر واخت خالقلار بویونلارینا خئیر لؤوحه سی آسمیشدیلار. حؤکم و ایطاعت ایسته یی‌نین قووشوغوندان یارانمیشدیر بو لؤوحه.

سورو حیسی "ائگو" حیسیندن داها قدیمدیر؛ و نه قدر کی تمیز ویجدان سورو آدلانیر، یالنیز ویجدانسیزلار "ائگو" دئییرلر.

دوغرودان دا حیله گر، سئوگیدن محروم، اؤز خئیرینی چوخلوغون خئیرینده آختاران "ائگو" سورونون باشلانغیجی دئییل، عکسینه، اونون سقوطودور.

سئونلر همیشه یارادانلار اولوب، خئیر و شری اونلار یارادیبلار. بوتون فضیلتلرین آدلاریندا سئوگی و غضب اودو کؤزریر.

زردوشت چوخ اؤلکه‌لر گزدی، چوخ خالقلار گؤردو: جومله-جاهاندا سئونلرین ایشلریندن اولو قووت تاپمادی: اونلارین آدی "خئیر" و "شر"دیر.

دوزو بو تعریف و دانلاق حاکیمیتی بیر زیرپی اژداهادیر. دئیین، قارداشلار، کیم منیم اوچون اونون عؤهده سیندن گلر؟ دئیین، کیم بو حئیوانا مین پئیسرلیک بوخوو آتا بیلر؟

ایندییه جن مین مقصد واردی، چونکو خالقلارین سایی مین ایدی. ایندی یالنیز بو مین پئیسرین بوخووو چاتمیر، واحید بیر مقصد چاتیشمیر. هله بشریتین مقصدی یوخدور.

آمما دئیین گؤرک، قارداشلار: اگر بشریتین مقصدی یوخدورسا، اونون اؤزو ده یوخ سایلیرمی؟ -

زردوشت بئله دئدی.

یاخین آدامینا محبت حاققیندا

یاخینلارینیزا ساری داربینیر، اوستەلیک بونا دایر گؤزل سؤزلر تاپیب دئییرسینیز. منسه سیزه دئییرم کی، سیزین یاخین آداملارینیزا اولان سئوگینیز اؤزونوزه خاراب سئوگینیزین نتیجه سیدیر.

سیز یاخین آداملارین یانینا اؤز الینیزدن قاچیر، آدینی دا فضیلت قویورسونوز. منسه سیزین "فداکارلیغینیزا" یاخشی بَلَدم.

"سن" "من"دن اولودور؛ "سن" دئییمینده مقدسلیک وار، "من"ده یوخ؛ اودور کی، انسان یاخین آدامینا جان آتیر.

یاخین آداملارینیزی سئومه یی توصیه ائدیرم سیزه؟ عکسینه، یاخینلاردان قاچماغی، اوزاقلاری سئومه یی سیزه توصیه ائدیرم!

اوزاق آداملارا، گله جک آداملارا محبت یاخین آدامینا محبتدن اولودور؛ شئیلره، خیاللارا محبت انسانا محبتدن اولودور.

قاباغیندا دوران بو کابوس سندن گؤزلدیر؛ نه اوچون سن اؤز اتینی، سومویونو اونا وئرمەیه سن. آمما سن قورخوب یاخین آدامی‌نین یانینا قاچیرسان.

اؤزونوزله‌دیل تاپیب یولا گئتمیر، قدرینجه سئومیرسینیز اؤزونوزو؛ بو اوزدن یاخین آداملارینیزی توولاییب سیزی سئومەیه تحریک ائدیر، اؤزونوزو اونلارین آخماقلیغی ایله موکافاتلاندیریرسینیز.

کاش سیز نه یاخین آداملارینیزلا، نه ده اونلارین قونشولارییله یولا گئتمەیه یدینیز، اوندا سیز اؤزونوز اؤزونوزدن اؤز مهربان دوستونوزو یاراداردینیز.

اؤز باره نیزده یاخشی بیر سؤز دئمک ایسته ینده شاهید تاپیرسینیز؛ ائله کی، اونلاری یولدان چیخاریب سیزین باره نیزده یاخشی دوشونمەیه وادار ائتدینیز، اوندا اؤزونوز ده اؤز گؤزونوزده اوجالیرسینیز.

یالانچی یالنیز بیلدییی‌نین عکسینی سؤیله ین آدام دئییل؛ اصل یالانچی بیلمه دیینی دانیشاندیر. اؤزگه‌لرله اؤز حاققینیزدا سیز محض بئله دانیشیر، قونشونوزو اؤزونوز حاققیندا آلدادیرسینیز.

عاغیلدان کام آدام دئییر: "انسانلارلا اونسیت خاصیتی کورلاییر، -ایللاه دا او اولمایاندا".

کیمی یاخین آداملاری‌نین یانینا اؤزونو آختارماغا گئدیر، کیمی اؤزونو اونوتماغا. اؤزونوزه اولان بو خاراب سئوگینیز تنهالیغی سیزین اوچون محبسه چئویریب.

یاخین آداملارا محبتینیزین قارشیلیغینی اوزاق آداملار اؤده‌ییر؛ و اگر بئشینیز بیر آرایا ییغیلسا، آلتینجی حؤکمن اؤلمه لیدیر.

سیزین بایراملارینیزی دا سئومیرم؛ اویونچو حددن آرتیق چوخدور، تاماشاچیلار دا اؤزلرینی اویونچودان بئشبئتر آپاریر.

سیزه یاخین آدام حاققیندا یوخ، دوست حاققیندا درس دئییرم. قوی دوست سیزین اوچون یئر اوزونون بایرامی، فوق الانسان یانغیسی اولسون.

سیزه دوستلوقدان، اودلو دوست قلبیندن درس دئییرم. آمما اودلو اورکله سئویلمک ایسته ین هر شئیی منیمسه مک باجارمالیدیر.

من سیزه کامیل، یارادان، - اؤز کامیل دونیاسینی بخش ائتمه‌یه هر آن حاضیر دوست حاققیندا درس دئییرم...

دونیا اونون اوچون محوریندن قوپسا دا یئنه اؤز چرخینه قاییدیر، - خئیر شردن، ضرورت تصادوفدن تؤره‌ییب آرتان کیمی.

بو گونونون سببی گله جک و ان اوزاقلار اولمالیدیر: دوستونون سیماسیندا اؤز سببین کیمی سن فوق الانسانی سئومه لیسن.

قارداشلاریم، سیزه یاخینلاری سئومه یی مصلحت گؤرمورم: مصلحتیم اوزاقلاری سئومکدیر.

زردوشت بئله دئدی.

یارادانین یوللاری حاققیندا

تنهالیغا چکیلمک ایسته‌ییرسن، قارداش؟ سنی اؤزونه قایتاران یولو آختاریرسان؟ بیر آز آیاق ساخلا، منی ائشیت.

سورو دئییر کی، "آختاران اؤزونو ده ایتیرر. تنهالیق گوناهدیر". نئجه واختدیر سن ده سورودن ایدین.

سورونون سسی سنین اؤز ایچینده هله چوخ سسلنه جک. دئسن کی، "منیم ویجدانیم سیزینکیندن دئییل " ، - بو شیکایت و ناله کیمی سسلنه جک اولاجاق.

باخ، بو ناله هله کی پارچالانمامیش ویجداندان گلیر، - ویجدانین بو سون ایشارتیسی سنین کدرینده کؤزرَجک.

سن اؤز کدرین یولونو گئتمک ایسته‌ییرسن، بو ائله سنین اؤزونه گئدن یولدور. گؤستر گؤروم، سنین بونا حاققین و گوجون چاتار؟

یئنی قووه سنمی؟ یئنی حاقسانمی؟ ایلک تکانسانمی؟ اؤز-اؤزونه دیغیرلانان تکرسنمی؟ اولدوزلارین اؤزونو سنین باشینا دولانماغا وادار ائده بیلرسنمی؟

آه، نه قدر یوکسکلیک دوشکونلری وار؟ نه قدر شؤهرت اسیرلری وار! ایناندیر منی کی، سن ده بو دوشکونلرین، بو اسیرلرین بیر تایی دئییلسن!

نه قدر بؤیوک فیکیرلر وار کی، اوفورولموش هاوا شارینا بنزه‌ییر: هاوانی شارا اوفورورلر، آمما او اصلینده یئنه ده بوش قالیر.

اؤزونو آزادمی سانیرسان؟ منه ان اساس دویغوندان دانیش، زنجیرلری قیرماغیندان یوخ.

سنین زنجیرینی قیرماغا حاققین چاتیردیمی؟

ائله آداملار وار کی، اؤز کؤله‌لیینی ایتیرمکله سون ذره دیرینی ده ایتیریر.

نه‌لردن آزاد اولدون؟ زردوشتون بونونلا نه ایشی وار؟ آمما آیدین گؤزلرین منه دئمه لیدیر، بو آزادلیق سنین نه‌یینه گرکدیر؟

اؤزون-اؤزونه اؤز یاخشیسینی و یامانینی وئره بیلرسنمی؛ اؤز اراده نی قانون کیمی باشی‌نین اوستوندن آسا بیلرسنمی؟ اؤزون-اؤزونه حاکیم اولوب لازیم گلسه، بو قانون آدیندان اؤزونو محشر آیاغینا چکه بیلرسنمی؟

اؤز قانونونون حاکیمینله و جللادی ایله اوز-اوزه قالماق دهشتدیر. ائله بیل کی، اولدوزو بوش فضایا و تکلیین بوز نفسی ایچینه آتیرسان.

ائی یالقیز انسان، هله کی چوخلونون اضطرابینی چکیرسن: هله کی نه جسارتینی، نه ده اومیدینی ایتیرمه میسن.

آمما گون گله جک تنهالیق سنی بئزدیره جک، غرورون قیریلاجاق، جسارتین توکَنه جک. گون گله جک: "من تنهایام"! - دئییب هارای تپه جکسن.

گون گله جک یوکسکلیین ال چاتماز، آلچاقلیغین ایسه بیرجه آددیملیغیندا اولاجاق؛ اؤز عالیجنابلیغین سنی بیر کابوس کیمی قورخوداجاق. گون گله جک "هر شئی یالاندیر" دئییب ناله چکه جکسن.

ائله حیسلر وار کی، قصدلری تنهالارین آخیرینا چیخماقدیر، بونو کی ائده بیلمه دیلر، گرک اؤزلری اؤله‌لر! بس سنین الیندن قاتیل‌لیک گلرمی؟

"ایکراه" دئییلن سؤز سنه، تانیشدیرمی، قارداش؟ بس سنه نیفرت ائدنلره قارشی عدالتلی اولماق ایشگنجه سی نئجه؟

چوخلارینی سنی یئنیدن تانیماغا وادار ائدرسن، اونلار ایسه بونون حاییفینی سنده قویمایاجاق. نئجه اولا بیلر؛ اونلارا بو قدر یاخینلاشمیشدین، آمما یان کئچدین؟ بونو سنه هئچ واخت باغیشلامایاجاقلار.

سن اونلاردان یوکسکده سن؛ آمما نه قدر زیروه یه قالخیرسانسا، پاخیللیغین گؤزونده او قدر کیچیلیرسن. باشلاری اوزرینده اوچانلاری ایسه بئله‌لری‌نین هئچ گؤرمه‌یه گؤزو یوخدور.

"هانسی یوللا منیمله عدالتلی اولماق ایستردینیز"! - دئمه لیسن. - "من قیسمتیمه عدالتسیزلیینیزی سئچیرم".

تنهالارین باشینا حاقسیزلیق و چیرکاب یاغدیریرلار؛ آمما، قارداشیم، اولدوز اولماق ایسته‌ییرسنسه، اونلاردان، نه اولور-اولسون، ایشیغینی اسیرگمه مه لیسن.

اؤزونو خئیرخواهلاردان، عدالتلی‌لردن گؤزله. اونلار اؤزلری اؤز فضیلتینی ایجاد ائدن آداملاری دار آغاجینا چکیرلر - یالقیزا نیفرت ائدیرلر.

اؤزونو مقدس ساده لوحلوکدن ده قورو! ساده، بسیط اولمایان هر شئی اونا ناتمیز گؤرونور، او تونقاللارین اودوایله اویناماغی سئومیر.

اؤزونو سئوگی توتمالاریندان گؤزله! یالقیز انسان راستینا چیخان هر کسه چوخ تئز ال اوزادیر.

ائله آداملار وار کی، اونلارا ال یوخ، پنجه اوزاتماق لازیمدیر، کاش هله پنجه نین جایناقلاری دا اولایدی!

آمما راستلاشاجاغین ان قورخولو دوشمن همیشه سن اؤزون اولاجاقسان؛ کئچدیین مئشه‌لرده، هر دلمه-دئشیکده اؤزون اؤز پوسقوندا دورورسان.

یالقیز انسان، سن اؤزونه طرف یول گئدیرسن. بو یول سنین اؤزوندن و یئددی شئیطانیندان قاباقدا گئدیر.

سن اؤزون اؤزونه کافیر ده، جادوگر ده، منججیم ده، سارساق دا، شککاک دا، مورتد ده، ظالیم دا اولمالیسان.

یالقیز انسان، سن یارادانلارین یولو ایله گئدیرسن، اؤز یئددی شئیطانیندان اؤزونه آللاه یاراتماق ایسته‌ییرسن.

یالقیز انسان، سن سئونلرین یولو ایله گئدیرسن: سن اؤزونو سئویرسن، اؤزونه نیفرتین ده بوندان دوغور، یالنیز سئونلر بئله نیفرت ائده بیلر.

سئون نَسه یاراتماق ایسته‌ییر، چونکو او نیفرت ائدیر! سئودیینه نیفرت ائتمه ین کس نه بیلیر سئوگی ندیر.

تنهالیغا اؤز سئوگینله و اؤز یارادیجی ایشینله چکیل، قارداش، چوخ-چوخ سونرالار حاق-عدالت آخسایا-آخسایا دالینجا گلیب چاتاجاق.

تنهالیغا چکیلنده منیم گؤز یاشلاریمی دا اؤزونله آپار، قارداش. من اؤزونون فوقونده یاراتماق ایسته ینلری و بوندان اؤلنلری سئویرم. -

زردوشت بئله دئدی.

جاوان و قوجا آروادلار حاققیندا

گئجه نین بو عالمی گیزلین-گیزلین هارا گئدیرسن، زردوشت؟ بورونجک آلتیندا گیزلتدیین ندیر؟ سنه باغیشلانمیش خزینه، یا سندن دوغولموش اوشاق؟ یوخسا سن ده اوغورلوغا قورشانمیسان، شررین دوستو؟

- ائله‌دیر، قارداش، - زردوشت دئدی. بو بیر خزینه دیر، منه باغیشلاییبلار: یانیمجا گزدیردییم بیر حقیقتدیر.

اؤزو ده او کؤرپه اوشاق کیمی ناراحاتدیر؛ آغزینی یوممماسان سسی عالمی باشینا گؤتورر.

بو گون غروب چاغی تک-تنها یولوملا گئدیردیم. قاباغیما بیر قوجا قاری چیخدی و قلبیمین ایچینه بئله دانیشدی "زردوشت بیز آروادلارا چوخ صؤحبتلر ائله‌ییب، آمما آروادلارین اؤزو حاققیندا هئچ واخت دانیشماییب".

اونا جاواب وئردیم کی، "آرواد باره ده‌کیشی ایله دانیشارلار".

"منه ده دانیش"، قاری قیر-ساققیز اولوب ال چکمک بیلمه دی، "اونسوز دا قوجالمیشام، دئدیینی او ساعات اونوداجام"، - دئدی.

علاچیم کسیلدی، آروادا دئدیم: "قادین تپه دن-دیرناغا معمادیر، بو معمانین ایسه تک بیر حللی وار: اونون آدی حامیله‌لیکدیر.

قادین اوچون کیشی واسیطه دیر: مقصد ایسه همیشه اوشاق اولاراق قالیر. بس کیشی اوچون آرواد نه دئمکدیر؟

اصل کیشی ایکی شئیه مئیل ائدیر: تهلوکه یه و اویونا. آروادی دا اونا گؤره ایسته‌ییر کی، او ان خطالی اویونجاقدیر.

گرک کیشینی حرب اوچون، آروادی ایسه حربچی‌نین نازینی چکمک، یورغونلوغونو چیخارماق اوچون تربییه ائده سن: یئرده قالان بوش شئی دیر.

حددن آرتیق شیرین مئیوه نی حربچی اوره یی گؤتورمز. آروادان اونا گؤره بئش اللی یاپیشیبلار کی، دونیانین ان شیرین قادینی‌نین دا خَمره سی آجیدان توتولوب.

کیشی نه قدر اوشاقجانلی اولور-اولسون، آرواد اوشاغا اوندان یاخشی بلددیر، آمما کیشی آروادان داها چوخ اوشاقدیر.

اصل کیشی اؤزو طبیعتن اوشاقدیر، بو اوشاق آیلنمک ایسته‌ییر. قادینلار، کیشی‌نین ایچینده‌کی بو اوشاغی تاپا بیلرسینیزمی؟

قوی قادین آلماز کیمی تمیز و ایشیقلی بیر اویونجاق اولسون و هله دوغولمامیش دونیانین فضیلتلرییله ایشیقلانسین.

قوی سئوگینیزده اولدوز ایشیغی گؤرونسون! قوی اومیدینیز تک بو اولسون: "کاش فوق الانسانی من دوغایدیم!»

قوی سئوگینیزده مردلیک اولسون! قورخدوغونوز آدامین اوستونه سئوگینیزله گئدین.

قوی سیزین شرفینیز سئوگینیزده اولسون! یوخسا قادین نه بیلیر شرف ندیر؟ آمما قوی سیزین شرفینیز بوندا اولسون کی، سئویلدییندن آرتیق سئوه سیز و قوی شرفینیز هئچ واخت ایکینجی اولماسین.

قوی کیشی، سئون قادیندان قورخسون، چونکو قادین هئچ بیر قورباندان چکینمیر، اؤزگه نه وارسا اونونچون دیرینی ایتیریر.

قوی کیشی، نیفرت ائدن قادیندان قورخسون. چونکو روحونون درینلیکلرینده‌کیشی اولسا-اولسا یاراماز، قادین ایسه موردارديدير.

قادین ان چوخ کیمه نیفرت ائدیر، بیلیرسن؟ - دمیرماقنیته [آهن‌ربا] دئییر: "بیلسن سنه نئجه نیفرت ائدیرم. منی جذب ائدیرسن، اؤزونه چکیرسن، آمما یاپیشدیرماغا گوجون چاتمیر".

"من بئله ایسته‌ییرم" - کیشی‌نین سعادتی بودور. "او بئله ایسته‌ییر" - قادی‌نین سعادتی ایسه بودور.

سئون اورکدن تابع اولان قادین - "باخ، دونیا آنجاق ایندی مکمل اولدو" - دوشونور.

قادین هم تابع اولمالیدیر، هم ده اؤز سطحینه مناسیب درینلیک تاپمالیدیر. سطح قادی‌نین قلبیدیر، دایاز سولارین اوستونده اولان لپه لی بیر قایساقدیر.

کیشی‌نین قلبی ایسه دریندیر، اونون جوشقون سولاری یئرآلتی ماغارالاردا جؤولان ائدیر؛ قادین اونون گوجونو دویور، آمما درک ائتمیر. -

اوندا قاری منه قاییتدی کی: "زردوشت چوخ ماراقلی سؤزلر سؤیله‌دی، بونلار خوصوصن گنجلریمیزه عایددیر.

غریبه دیر، زردوشت قادینلاری آز تانییر، آنجاق اونلار باره سینده حاقلی‌دیر. بلکه ده بو هئچ غریبه ده دئییل، آرواد یانیندا مومکون اولمایان شئی وار کی؟

آل، عوضینده سنه خیرداجا بیر حقیقت پای وئریم. او داها من قوجانین گره‌یی دئییل!

اونو یاخشی-یاخشی بوک، آغزینی دا تیخا، یوخسا بو حقیقت یامان چیغیراندیر، سسی عالمی باسار".

دئدیم: "یاخشی، قاری، او خیردا حقیقتینی بری وئر گؤروم". قاری نه دئسه یاخشیدیر؟ "آروادلارین یانینامی گئدیرسن؟ قامچینی یاددان چیخارما"!-

زردوشت بئله دئدی.

ایلانین سانجماسی حاققیندا

بیر گون زردوشت انجیر آغاجی‌نین آلتیندا یاتمیشدی، ایستی ایدی، او، الینی اوزونه قویموشدو. بو واخت بیر ایلان گلیب بوینوندان سانجدی کی، زردوشت آغریدان قیشقیردی. او، الینی اوزوندن چکدی و ایلانا باخدی؛ اوندا ایلان زردوشتو تانیدی، یئندمسیز حالدا دؤنوب گئتمک ایسته دی. "دایان گؤرک، - زردوشت دیللندی، -اول تشکورومو قبول ائت! منی واختیندا اویاتدین، یولوم یامان اوزاقدیر". ایلان دردلی-دردلی: "یوخ، یولون چوخ قیسادیر، -دئ-دی، - منیم زَهریم تئز اؤلدورور". زردوشت گولومسوندو. "نه واختدان بری اژداها ایلان زهریندن اؤلور؟ - دئدی.

-آمما هر حالدا گل زهرینی گئری گؤتور. او قدر وارلی دئییلسن کی، منه بئله هدیه وئره سن". اوندا ایلان یئنی دن اونون بوینونا ساریلیب یاراسینی یالاماغا باشلادی.

زردوشت بونو اؤز اصحابه‌لرینه دانیشاندا اونلار سوروشدولار: - "زردوشت، بو احوالاتدا نه عبرت آمیز، اخلاقی جهت وار"؟ زردوشت بونا بئله جاواب وئردی:

- خئیرخواهلار و عدالتلی‌لر منه اخلاقی داغیدان دئییر: دانیشدیغیم احوالاتین دا اخلاقی یوخدور.

دوشمنینیز وارسا، هئچ واخت اونون پیسلیینه یاخشیلیقلا جاواب وئرمه یین: چونکو بونونلا اونو اوتاندیریرسینیز. عکسینه، ثبوت ائدین کی، سیزین اوچون یاخشی بیر ایش گؤروب.

اونا غضبله نین، آمما اونو اوتاندیرمایین! سیزی لعنتله‌ییرلرسه، آلقیش ائتمه یینیز منیم خوشوما گلمیر. سیز ده اونلارا قوشولوب بیر آزجا لعنتله سَنیز، یاخشی اولار!

سیزه قارشی بؤیوک بیر حاقسیزلیق ائدیبلرسه، سیز ده تئز بئش خیردا-پارا حاقسیزلیق ائدین! حاقسیزلیغین یالنیز بیر آدامی نئجه ازدیینی گؤرمک دهشتدیر.

بونو بیلمیردینیز می؟ باشقالاری ایله حاقسیزلیغی بؤلوشمک حاققین یاریسیدیر. حاقسیزلیغی او کس اؤز اوستونه گؤتورمه لیدیر کی، بونو داشیماغا گوجو چاتسین!

کیچیک ده اولسا بیر قیصاص آلماق هئچ آلماماقدان داها انسانی بیر شئیدیر. اگر وئریلن جزا قایدا پوزانین حاققی دئییلسه و اونا شرف گتیرمیر، اوندا بئله جزا نه یه لازیمدیر؟

حاقلی اولا-اولا اؤزونو حاقسیز حساب ائتمک، حاقلی اولدوغونو ثبوت ائتمکدن داها عالیجناب بیر ایشدیر. آمما انسان بونون اوچون گرک کیفایت قدر زنگین اولسون.

سیزین سویوق عدالتینیزی سئومیرم؛ سیزین حاکیملرین گؤزلرینده همیشه جلاد و اونون بیچاغینی گؤرورم.

دئیین، هانی ائله بیر عدالت کی، مایاسی گؤزو آچیق سئوگیدن یوغرولسون؟

منه ائله بیر سئوگی گؤسترین کی، یالنیز جزا وئرن دئییل، گوناهی دا اؤز اوستونه گؤتورندیر.

منه ائله بیر عدالت گؤسترین کی، محکوم ائدندن ساوایی هامییا برائت قازاندیرسین!

بونو دا دینله مک ایسته‌ییرسینیزمی؟ تام عدالتلی اولماق ایسته ین کسین گؤزونده یالان دا خئیریه چیلییه چئوریلیر.

تام عدالتلی اولماغی نئجه ده ایستردیم! اوندا من هر کسه عملینه گؤره وئرردیم! ایندیلیک تسَلیم اودور کی، هامییا اؤزومدن نسه وئریرم.

و سوندا، قارداشلار، نَبادا ترک-دونیالارا قارشی حاقسیزلیق ائده سینیز! ترک-دونیا آدام اونوتماغی باجارمیر! او عوض چیخماغی دا باجارمیر.

ترک-دونیا آدام درین قویو کیمیدیر. اورا داش آتماغا نه وار، آمما ائله کی، داش قویونون دیبینه دوشدو، اونو دارتیب چیخارتماق ایسته ین اولاجاقمی؟

ترک-دونیا آدامین قلبینه دَیمکدن قورخون! ایشدیر، اونو اینجیتدینیزسه، اوندا اونو اؤلدورسه نیز یاخشیدیر!

زردوشت بئله دئدی.

اوشاق و عایله حاققیندا

سنه بیر سوالیم وار، قارداشیم؛ بو سوالی بیر شاقول کیمی سنین قلبینه آتیرام کی، اونون درینلیینی اؤیرَنم.

جاوانسان، اوشاق، عایله ایسته‌ییرسن. سندن سوروشورام: سنین کیمی بیر آدامین اوشاق آرزولاماغا حاققی وارمی؟

سن اؤزون غالیبسنمی؟ اؤزون اؤزونه غالیب گله بیلمیسنمی؟ اؤز حیسلری‌نین سولطانیسان می؟ فضیلتلری‌نین آغاسیسان می؟ سندن سوروشورام.

یوخسا سنی دیللندیرن وحشیلیک و طلباتدیر؟ بلکه تنهالیق؟ اؤزوندن ناراضیلیق؟

ایسته‌ییرم کی، قلبن ده آزادلیغین دا اوشاق حسرتینده اولسونلار! سن قلبینه و آزادلیغینا جانلی هئیکللر قویمالیسان.

اؤزوندن یوکسکده بیر شئی تیکمه لیسن. آمما گرک اولجه بدنین و روحون دوزقاتلی شکیلده تیکیلمه لیدیر.

سن تکجه آرتماغین دئییل، یوکسلمه نین قئیدینه قالمالیسان. قوی نیکاح باغی بو یولدا سنین یاردیمچین اولسون.

داها عالی بیر وجود یاراتمالیسان، ایلک تکان، اؤز-اؤزونه دیغیرلانان تکر - قیساسی: یارادانین اؤزونو یاراتمالیسان.

نیکاح دئینده من یارادانلارین اؤزلریندن داها کامیل بیر مخلوق یاراتماق نامینه قووشماق ایسته ییني باشا دوشورم. من عئینی اراده صاحیبلری‌نین بیر-بیرینه قارشیلیقلی احتیرامینا نیکاح دئییرم.

سنین نیکاحی‌نین معناسی و مغزی بو اولمالیدیر. آمما چوخلاری‌نین نیکاح آدلاندیردیغی بو لوزومسوز شئی - آه، هئچ بیلمیرم بونا نه آد وئریم؟

آه، جوتلویون بو روح کاسیبلیغی! آه، جوتلویون بو روح ایبرنج لییی! آه، جوتلویون بو میسکین منَملییی!

اونلار بوتون بونلاری نیکاح آدلاندیریر؛ اوسته‌لیک دئییرلر کی، کبینلرینی گؤیده آللاه کسیب.

ائله سه، من بو آرتیق انسانلارین گؤیلرینی ایسته میرم! یوخ، بونلار، گؤیلرین توروندا دولاشمیش حئیوانلار منه گرک دئییل.

قوی اؤزونون دوزوب قوشمادیغی بیر ایشه خئیر-دوعا وئرمک اوچون آغسای-آغسای گلن آللاه مندن اوزاق اولسون!

بئله نیکاحلارا گولمه یین! بختینه بئله والدین دوشن هانسی اوشاغین آجی گؤز یاشی تؤکمه‌یه حاققی چاتمیر؟

بیر کیشینی چوخ لیاقتلی، تورپاغین معناسی اوچون یئتیشمیش آدام سانیردیم، آمما ائله کی، اونون آروادینی گؤردوم، یئر اوزو گؤزومده دلی خانایا دؤندو.

کاش کی پیرله گیج تویوق جوتلشنده یئر اوزولرزه یه گلئیدی.

بیری قهرمان تک حقیقت آختاریشینا چیخدی، قازانجی ایسه بَزنمیش-دوزنمیش کیچیک بیر یالان اولدو. او، یازیق اؤزو بونا نیکاح دئییر.

او بیریسی هر آداملا اوتوروب-دورماز، مصاحیبینه ده طلبکارلیقلا یاناشاردی. آمما آخیردا اؤزونه ائله بیر مصاحیب سئچدی کی، جَمعی گؤردویو گونلر بورنوندان گلدی: او بونا نیکاح دئییر.

اوچونجوسو اؤزونه ملک خیصلت لی بیر قوللوقچو آختاریردی. آمما ایش ائله گتیردی کی، ووردو اؤزو بیر آروادین قولونا دؤندو، ایندی گرک اؤزو ملک اولا.

مال آلانلاری همیشه ائهماللی گؤرموشم، بیر شئیی آلمازدان یوز اؤلچوب بیر بیچرلر. دی گل، دونیانین ان کلَکباز آدامی دا آروادی ائله بیل گؤزویومولو آلیر.

بیر ییغین قیسا مدتلی دلی-دیوانه‌لیک - محبت دئدیینیز شئی بودور. داها بؤیوک بیر دلی‌لیک اولان نیکاحینیز بو قیسا مدتلی دلی‌لیکلره سون قویور.

نه اولا، کاش آروادا اولان محبتینیز و آروادین کیشیسینه محبتینی عذابکئش و پرده‌لنمیش آللاهلارا قارشی مرحمته دؤنئیدی! آمما یوخ، حئیوانلار اساسن بیر-بیرلرینی تاپیر.

سیزین ان عُلوی محبتینیز شووقلو بیر رمز، آغریلی بیر احتیراسدیر. محبت ایسه، سیزین ان یوکسک زیروه‌لره گئدن یولونوزو ایشیقلاندیراجاق بیر مشعل اولمالیدیر.

نه واختسا سیز اؤز فوقونوزده سئومه لیسینیز! سئومه یی اؤیرنمه‌یه باشلاییز! بونون اوچون گرک سئوگی‌نین آجی باده سینی نوش ائده سینیز.

ان درین سئوگی‌نین باده سی آجی اولار: سنی فوق الانسان حسرتینه توتوشدوران، سنین جانینا بو یارادان یانغیسینی سالان بو سئوگیدیر. یارادانین اوره ییندە یانغینی، فوق الانسانین اوخونو و حسرتینی: دئ، قارداشیم، نیکاحدان ایسته دیین بودورمو؟

بو ایسته یه، بئله نیکاحا من مقدس دئییرم. -

زردوشت بئله دئدی.

حاضیرلایان: همت شهبازی

Fridrix Nitsşe, ZƏRDÜŞT BELƏ DEDİ,
(Friedrich Nietzsche, Also Spracht Zaratustra)

WWW.KITABXANA.ORG SITE'nın REDAKTORUNDAN

İnternet kitabxanamızın oxucularına təqdim etdiyimiz bu mətn F. Nitsşenin "Zərdüşt belə dedi" əsərin, yalnız birinci bölməsidir. Əfsuslar olsun ki, tərcümənin müəllifi – gözəl mütəxəssis və dəyərli insan Aybəniz xanım Abbasova əsərin birinci bölməsini tərcümə edəndən sonra rəhmətə getdi. Bununla belə bu yarımçıq mətni oxucularımıza təqdim etmək qərarına gəlmişik: ümidvarıq ki, bu mətn oxucularımızda Nitsşenin yaradıcılığına cüzi də olsa təsəvvür yaradacaq və maraq oyadacaq.

Hikmət Hacızadə

Tərcüməçidən

Dünyanın bütün mütərəqqi ölkələrində nitsşeçilik aparıcı fəlsəfi cərəyanlardan biri sayıldığı, XX əsr falsəfi cərəyanlarının əksəriyyətinin (həyat fəlsəfəsi, praqmatizm, ekzistensializm və s.) dünyanın bir çox görkəmli yazıçı və şairlərinin onun təlimindən bəhrələndiyi halda, ölkəmizdə Nitsşe irsi müstəqillik dövrünə qədər qeyri-rəsmi şəkildə yasaq edilmişdi. Hazırkı dövrün həqiqət işığında Nitsşenin indiyəcən "faşizm ideologiyasının qaynağı" kimi təqdim olunan yaradıcılığına maraq xeyli artmış, dünyanı məhvərindən oynadan bu telim öz layiqli qiymətini almağa başlamışdır.

Nitsşe özü bu əsər barədə belə yazır: "Bu ya poeziya, ya beşinci incil, ya da nəsə hələ adı olmayan bir şeydir; bu manim əsərlərimin içərisində ən ciddisi, ən uğurlusudur".

Alman filosofları bu əsəri "seçilmiş insanların bibliyası hesab edir. Nitsşenin tələbəsi, məşhur filosof Peter Qast onu müqəddəs kitabların ən müqəddəsi sayır, "Zərdüşt"ün sətirbəsətir şərh olunacağı günün uzaqda olmadığını söyləyir. Nitsşe irsinə 1 əsr sonra müraciət etmiş Azərbaycan ədəbiyyatından bu şərhi gözləmək hələlik çətin olsa da son illər onun yaradıcılığına maraq müqayisə olunmaz dərəcədə artmışdır. 1992 ildə "Xəzər" jurnalının bir neçə sayında "Zərdüşt"ün türkcədən çevirməsində bəzi parçalar dərc olunmuşdu. Alman dilindən 1993 ildə edilmiş bu tərcümənin "Dədə Qorqud" jurnalının oxucularına daha maraqlı olacağı ümidi ilə onu oxucuların mühakiməsinə veririk.

Aybəniz Abbasova.

FRİDRİX NİTSŞE

ZƏRDÜŞT BELƏ DEDİ

HAMININ VƏ HEÇ KİMİN KİTABI

Birinci Bölmə

ZƏRDÜŞTÜN MÜQƏDDİMƏSİ

1.

FÖVQƏLİNSAN VƏ SONUNCU İNSAN HAQQINDA

Otuz yaşın tamamında Zərdüşt vətənini və vətənin gölünü tərk edib dağlara çəkildi. Düz on il ruhu və tənhalığından həzz alıb bundan usanmadı. Axır ki, qəlbində dönüş oldu - bir sabah şəfəqlə birgə oyandı, üzünü günəşə tutub belə dedi:
“Ulu ulduz! Əgər işıqlandırdığın kəslər olmasaydı, sənin xoşbəxtliyin nəyə dönərdi?! Düz on il sərasər mənim mağaramın üzərinə qalxdın: Mən olmasaydım, mənim qartalım, ilanım olmasaydı, sən işığından doyar, təngə gələr və bu yol səni bezdirərdi.
Amma biz hər səhər səni gözləyir, sənin artığını qəbul edir və sənə xeyir-dua verirdik.
Bir bax! Mən həddən artıq bal toplamış arı kimi öz müdrikliyimdən təngə gəlmişəm; mənə əllər lazımdır, mənə sarı uzadılmış əllər.

Ağıllı insanlar ağılsızlıqları, kasıblar isə zənginlikləri ilə yenidən fərəhlənənədək bölüşmək və pay vermək istəyirəm.

Bunun üçün mən aşağı enməliyəm: necə ki, bunu sən edirsən – dənizlərə dalaraq, dünyanın əks tərəfinə işıq apararaq, ey zəngin ulduz!

Mən, yanlarına enmək istədiyim insanların adlandırdığı – qürub etməyi sənin kimi bacarmalıyam.

Xeyir-dua versənə mənə, ey gözütox, hətta ən böyük səadətə belə həsəd aparmadan baxan!

Bu aşıb-daşmağa hazır piyaləyə xeyir-dua ver ki, o içindəki qızılı suyu axıtsın və sənin nəşənin parıltısını aləmə yaysın!

Bir bax, bu piyalə yenə boşalmaq və Zərdüşt də yenidən insan olmaq istəyir.”

– Zərdüştün qürubu belə başladı.

2.

Zərdüşt tək-tənha dağları tərk etdi. Bir ins-cins görünmürdü. Amma meşəyə təzəcə girmişdi ki, qabağında bitki kökləri axtarmaq üçün öz komasını tərk etmiş pirani bir qoca peyda oldu. Qoca Zərdüştü görçək dedi:

–“Bu səyyah mənə tanış gəlir: neçə il öncə o burdan keçib, adı Zərdüştdür, amma çox dəyişib.

O vaxt dağlara gülü gedirdi, indi atəşilə dərələri yandırmaqmı istəyir? Atəşpərəstlərin cəzasından qorxmurmu görən?

Hə, tanıdım Zərdüştü. Üz-gözündən nur tökülür.

Zərdüşt yaman dəyişib. Uşaq idi, kamil insana dönüb: yaxşı bu ölü camaatın yanına getməkdə qəsdin nədir?

Tənhalıq səni dəniz kimi ağuşuna almışdı. İndi də sahilə çıxmaq xəyalına düşmüsən? Səndə heç qorxu deyilən şey yoxdurmu? Təzədən cəsədə dönməkdən qorxmursanmı”?

Zərdüşt cavab verdi: “Mən insanları sevirəm”.

– “Bəs mən niyə meşəyə çəkilmişəm, niyə özümdə dəfn olunmuşam? Ona görə deyilmi ki, insanları qədərindən artıq sevirdim?

İndi yalnız allahı sevirəm. İnsanları sevmirəm daha. İnsan mənim nəzərimdə natamam, yarımçıq məxluqdur. İnsana məhəbbət məni axırıma çıxardı”.

Zərdüşt cavab verdi: “Mən məhəbbətdən dəm vurmuram axı? İnsanlara bəxşiş verəcəyəm”.

“Onlara heç nə vermə, – qoca dilləndi, – bacar nələri var əllərindən al, onlara belə lazımdır. Əgər vermək istəyirsənsə, sədəqə ver onlara, özü də asanlıqla yox, ilan kimi dil çıxarandan, dizin-dizin sürünəndən sonra”!

“Yox, – Zərdüşt onun sözünü kəsdi. – Mən sədəqə paylayacaq qədər miskin deyiləm”.

Zərdüştün sözləri qocanı güldürdü: “Gör heç sənin xəzinəni saya salacaqlarmı? Onlar biz qəriblərdən şübhələnir; bizim bir şey verə biləcəyimizə inanmırlar.

Küçələrdə tənha addım səslərimiz onları hürküdür. Elə ki gecə vaxtı bir adamın getdiyini gördülər, ürəklərinə yüz qara-qorxu dolur, öz-özlərinə sual edirlər ki, görəsən bu oğru kimin evini yaracaq?

İnsanlar arasına getmə, qal meşədə! ya da yaxşısı budur heyvanların yanına yollan! Niyə axı mənim kimi olmaq istəmirsən? Ayılarla, quşlarla müsahiblik etməyin nəyi pisdir”?

“Ey pir, sən meşədə nə iş görürsən axı»?

İxtiyar cavabında: “Mən mahnı qoşur, nəğmələr deyir, istəyəndə gülür, istəyəndə ağlayır, allahımı ürəyim istəyincə mədh edirəm, – dedi.

Mən allahı, öz allahımı nəğməmdə, gülüşümdə, göz yaşlarımda yad edirəm. Yaxşı, sənin bəxşişin nə ola belə”?

Bu sözləri eşidən Zərdüşt ehtiramla dedi: “Mən sizə nə verə bilərəm ki? Məni tez başdan eləyin, çıxıb gedim ki, barı heç nəyinizi götürməyim”. Beləcə ayrıldılar. Ayrılarkən bu yaşlı-başlı kişilər iki sadədil uşaq kimi gülürdülər.

Elə ki Zərdüşt tək qaldı, öz-özünə söylədi: “Sən bir işə bax! Bu qoca pir meşədə hər şeydən xəbərsiz yaşayır. Hələ indiyəcən bilmir ki, Allah ölmüşdür!»

3.

Zərdüşt rastına çıxan birinci şəhərə girəndə bütün əhalini bazar meydanına yığışan gördü. Şəhərə hay düşmüşdü ki, kəndirbaz oynadacaqlar. Zərdüşt üzünü camaata tutub dedi: “Sizə fövqəlinsan haqqında dərs vermək istəyirəm! İnsan belə bir şeydir

ki, özündən yüksəyə qalxmalıdır. Bəs siz kamilləşmək naminə əlinizi ağdan qaraya vurmusunuzmu?

Yer üzünün cəmi məxluqatı özündən daha ali bir şey yaradır, təkmilləşməyə, kamilləşməyə can atır. Bəs siz niyə quyruqda sürünürsünüz, niyə bu axına qoşulmursunuz? Öz naqisliyinizi dəf etmək əzabına qatlaşmaqdansa, heyvan əcdadlarınızın halına qayıtmağı əfzəl bilirsiniz.

İnsanın nəzərində meymun nədir? Lağ hədəfi, üzüntülü xəcalət. Bax, fövqəlinsan üçün də insan belə bir şey olmalıdır: lağ hədəfi, üzüntülü xəcalət.

Siz soxulcandan insana dönəli nə qədər sellər-sular axıb, amma gör siz soxulcan xislətindən qurtara bilibsinizmi? Bir vaxtlar siz meymundunuz, indinin özündə də insan təbiətindəki meymunluq hər bir meymunu mat qoyur. Sizlərdən ən ağıllısı fitnədən və bitki ilə kabusun qarışığından başqa bir şey deyildir.

Mən sizi kabus və ya bitki olmağa çağırmıram. Sizə fövqəlinsan dərsi vermək istəyirəm! Fövqəlinsan kürreyi-ərzin mənasıdır. Qoy iradəniz de bunu desin: Fövqəlinsan kürreyi-ərzin mənası olmalıdır!

Qardaşlar, sizi and verirəm inandığınıza, öz dünyanıza sığının, bu dünyaya pənah gətirin. Qoymayın o biri dünya haqqındakı cəfəngiyatla gözünüzə kül üfürsünlər. Beyninizi belə zəhərləyən kəslərə zəhərli ilandan başqa nə ad vermək olar? Amma yox, onların arasında elə kütbeyinləri də var ki, öz yalanlarına inanırlar, öz yalanlarından zəhərləniblər, ilmizalım danışıqları yalan qan kimi öz qəlblərinə də işləyib. Torpaq da belələrindən bezardır, görüm onları lənətə gəlsin! Vaxt vardı allahı təhqir etmək ən ağır qəbahət sayılırdı, amma allah öldü, bu günahlardan qurtulduq. İndi günah dediyin gözəgörünməz, yeribilinməz bir qüvvənin itaətindən çıxmaq deyil, öz dünyamızda şər işləyən kəs daha artıq günaha batır.

Bir zamanlar ruh cismə düşmən kəsilmişdi. Guya bədənin arıqlığı, zəifliyi, çirkinliyi ruhun ucalığına dəlalət edirdi. Bu yolla ruh bədəni tərk etmək, günahkar dünyamızdan qurtulmaq istəyirdi.

Oh, belə qəddar ruh əslində cisimdən qat-qat artıq zəif, düşkün və eybəcər idi; qəddarlıq bu ruhun ehtirasına dönmüşdü.

Bəs indini özündə bir mənə deyin – bədəniniz ruhunuzun haqqında nə düşünür? Ruhunuz səfalət, çirkab və mənfur ehtirasdan yoğurulmayıbmı?

Bəli, insan dediyin murdar bir lehmədir. Gərək necə nəhayətsiz bir ümman olasan ki, öz suyunu bulandırmadan bu lehməni ağuşuna ala biləsən.

Bax, fövqəlinsan belə bir ümmandır, elə sonsuz ümman ki, bütün həqarətləriniz onun sularında itib-batır, yuyulub arınır.

Keçirəcəyiniz ən ali hissin nə olduğunu bilirsinizmi? Bu, ikrah saatının çatmasıdır. O saatın ki, səadətiniz, ağlınız, fəzilətləriniz belə sizi iyrəndirəcək.

O vaxt ki, siz dediniz: Mən bunamı səadət deyirəm? Bu ki, səfalət, rəzalət, mənfur bir ehtirasdır. Mənim səadətim isə yalnız özümü təmin etməməli, ona həyatın özü bəraət qazandırmalıdır.

O vaxt ki, siz dediniz: Məndə ağıl deyilən şeydən əsarət varmı? Varsa nə üçün o, pərvanə olub elm atəşində yanmır? Nə üçün mən özümdə elmə təşnə duymuram? yalnız murdar ehtiraslara aludə olan belə ağıl sahibinə səfildən, rəzildən savayı nə ad vermək olar?

O vaxt ki, siz dediniz: Bəsdir insaniyyətdən, xeyirxahlıqdan dəm vurdum! Fəzilətlərim də, qəbahətlərim də daha ürəyimi vurub. Bunlar hamısı səfalətdir, rəzalətdir, murdar bir ehtirasdır.

O vaxt ki, siz dediniz: Mənmi özümü ədalətli sanıram? Ədalət istəyən kəs gərək səməndər quşu kimi alovlara tutuşsun. Bəs mən bu oddan-alovdan keçməyə hazırammı?

O vaxt ki, siz dediniz: Şəfqət dedikləri nə olan şeydir axı? Ürəyiyumşaqlar üçün qurulmuş bir tələ. Yox, mən kimsəyə tələ qurmaq istəmirəm. – Bax, onda çatacaq bu saat! Heç bunlar ağlınıza gəlibmi? Heç belə fəryad qopardığınız olubmu? Ah, sizin bu fəryadınızı eşitməkdən ötrü mən nələrdən keçməzdim!

Boğazacan çirkab içində olan sizlər əlinizi göylərə açıb səmadan mərhəmət diləyirsiniz.

Hanı elə bir şimşək ki, xislətinizdəki naqisliyi yandırıb külə döndərsin, ruhunuzu nura bələsin.

Eşidin, fövqəlinsan elə bu şimşəyin özüdür.

Zərdüşt elə bunu demişdi ki, camaat arasından biri qışqırdı: “Nə vaxtdır kəndirbazın sorağın almışıq, imkan ver baxaq də!» Elə bil hamı himə bənd imiş. Yerbəyerdən Zərdüştü ələ salıb gülməyə

başladılar. Bu sözlərin ona aid olduğunu zənn edən kəndirbaz tələsik işə girişdi.

4.

Zərdüşt heyrətlə camaata baxdı. Sonra nə düşündüsə yenidən: İnsan dediyin bir kəndirdir, heyvanla fövqəlinsan arasında bir kəndir, özü də bu kəndir uçurumun üstündə bənd olunub.

yıxıla-dura, zor-bəla ilə azca irəliləyir, qorxa-qorxa dönüb gəldiyi yollara nəzər salır, öz yaşamından dəhşətə gəlir və... vəssalam, canını tapşırır. Budur insanın bütün həyatı!

İnsanda böyüklük adına bir şey varsa, o da onun son məqsəd deyil, yalnız məqsədə doğru bir vasitə, körpü olmasıdır, insanda seviləsi bir şey varsa, onun bir adlamaç, keçid olması və gəldi-gedərliyidir.

Mən məhvə doğru gedən adamları sevirəm, çünki onlar bu körpünü keçirlər.

O adamları sevirəm ki, nifrət etməyi bacarsınlar, çünki əsl qədir bilən və başqa sahilə can atan həsrət oxları onlardır.

O adamları sevirəm ki, canlarını boş xəyallara, mənasız cəfəng ideyalara deyil, torpağa, vətənə fəda edirlər, o torpağa ki, bir vaxt fövqəlinsanın məskəni olacaq.

O adamları sevirəm ki, dünyaya kor gəlib kor getməsinlər, həyatı anlamaq istəsinlər ki, nə vaxt sa fövqəlinsan yaşaya bilsin. Çünki o öz məhvini çox istəyir.

O adamları sevirəm ki, canına cəfa verib fövqəlinsana yurd qurur və torpağı, heyvanları və bitkiləri fövqəlinsan üçün hazırlayır.

Mərd adamları sevirəm, çünki gözüylə od götürə-götürə dünyanın qəm yükünü çiynində daşımağa tək onların hünəri çatar. Çünki o öz məhvini çox istəyir.

O adamları sevirəm ki, öz fəzilətini sevsin, çünki fəzilət məhvə doğru atılan həsrət oxudur.

Mərdliyi ilə ölümü öldürənləri, insan kimi yaşayıb insan kimi də ölənləri sevirəm.

O kəsi sevirəm ki, hər şeyin yaxşısına can atmır, əslində tək bir yaxşı cəhəti olan adam ideal adamdan yaxşıdır, çünki belədə

insan bu tək cəhətə daha çox alışır, o, alın yazısı kimi insana ölüncə yoldaşlıq edir.

O kəsi sevirəm ki, öz əziyyətinin əvəzini gözləmir və özünə edildiyi yaxşılığın əvəzini ödəmir, çünki o daimi qurbanlar verir və özünü qorumur.

O kəsi sevirəm ki, həyatda naxışı tutanda, bəxti gətirəndə xəcalət çəkir – "Mən bu oyunu düz yolla mı udmuşam? – deyə öz-özündən soruşur, çünki o öz məhvini çox istəyir.

O kəsi sevirəm ki, çəkinmədən qızıl sözünü əməlindən əvvəl yayır, sonra isə vədini artıqlamasıylə yerinə yetirir.

O kəsi sevirəm ki, gələcəyin adamlarına bəraət qazandırır, keçmişin adamlarını isə bağışlaya bilir. Çünki o indinin insanlarının əlindən məhv olmaq istəyir.

O kəsi sevirəm ki, o öz allahını cəzalandırır, çünki o öz allahını sevir, çünki o öz allahın qəzəbindən məhv olmaq istəyir.

Dərin qəlbləri sevirəm, onlar kövrək belə olsa. Çünki onlar həvəslə bu körpünü keçirlər.

Qəlbi dolu kəsi sevirəm, çünki o özü-özünü unudur, və bütün şeylər onun özündədir: beləliklə bütün şeylər onun məhvinə gətirir.

Azad ruhlu və azad ürəkli insanı sevirəm: onun başı onun ürəyinin evidir, onun ürəyisə onu məhvə doğru çağırır.

İnsanların başı üstündən asılmış qara buluddan düşən ağır damlalara bənzər kəsləri sevirəm: onlar şimşəyin yaxınlaşmasını car çəkirlər və bütün car çəkənlər kimi məhv olurlar.

Eşidin mən şimşəyin carçısıyam, qara buluddan düşən ağır damlayam: bu şimşək fövqəlinsandır.

5.

Zərdüşt bu sözləri demişdi ki, gözü camaata sataşdı. Elə bil nitqi kəsildi. Öz-özünə: "Bunlar ki, gülürlər, – dedi, – məni anlamadılar, tək bircə kəlməni belə anlamadılar. Yəni doğrudanmı bu adamlar təkcə qamçının dilini başa düşür?! Doğrudanmı mən təbil kimi və ya tövbə vaizi kimi güruldamalıyam? Bəlkə onlar yalnız kəkələyən adama inana bilərlər?

– Sanki nəyəsə güvənirlər. Onları ayrıca özündən razı edən nə ola bilər axı? Onlar bunu mədəniyyət adlandırırlar, məhz bu onları malotarandan fərqləndirir.

Buna görə onlar özləri haqqında "nifrət" sözünü eşitmək xoşlamırlar. Nə olar, eləsə mən onların qururuna müraciət etməliyəm.

Mən onlara ən rəzil məxluqdan, sonuncu insandan danışacam".

Və Zərdüşt xalqa belə dedi: Qarşımıza məqsəd qoymağın vaxtı gəlib. Ali ümidimizin ağacını əkmək vaxtı gəlib. Hələ ki, torpağımızın gücü qalıb. Amma nə vaxtsa bu güc tükənəcək və burada bir dənə də olsun uca boylu ağac bitə bilməyəcək.

Heyhat! Bir azdan insan həsrət oxunu insanların başının üstündən ata bilməyəcək, onun yayın kirişi daha gərginliyə dözəmməyəcək.

Sizə deyirəm, qəlbinizdə xaos daşıyın ki, rəqs edən ulduz doğa biləsiniz. Sizə deyirəm ki, qəlbinizdə o xaos hələ ki var.

Heyhat! Bir azdan insan ulduz doğa bilməyəcək. Ən murdar insanın zamanəsi gəlir, bu insan artıq öz-özünə nifrət edə bilməyəcək.

Baxın, mən sizə sonuncu insanı göstərirəm.

Sonuncu insan "Sevgi nə deməkdir? Yaratmaq, can atmaq nə deməkdir? Ulduz nədir? – deyib gözlərini döyəcək.

Yer üzü özü də xırdalıb, sonuncu insan orada at oynadir və toxunduğu hər şey də özü kimi cılızlaşır.

Onun nəsli həşərat kimi yenilməzdir – sonuncu insan hamıdan çox yaşayır.

Sonuncu insanlar "bəxtəvərliyin yolunu tapmışıq" deyib gözlərini döyərlər.

Soyuq ölkələri tərk ediblər – onlara isti lazımdır. Qonşularını çox sevirlər, onlara sığınırlar – onlara isti lazımdır. Yatağa düşmək və ya bədgüman olmaq onlarda günah sayılır, çünki onlar ehtiyatla yeriyirlər, – adam və ya daş ancaq axmaq adamın ayağına ilişər. Zəhər də versən içərlər, təki bir az da bərk uyusunlar. Ölümün də asanına qaçırlar, zəhərin miqdarını azca artır, canını həmişəlik qurtar. Hələ ki, iş-güc dalınca da gedirlər, başlarını nə iləsə qatmalıdırlar axı. Amma nəbadə iş əyləncə həddini keçə.

Nə varlı, nə kasıb olacaq: hərəsi bir cür baş ağrısıdır. Nə ağalıq eşqinə düşən olacaq, nə də qulluq göstərmək istəyən: hərəsi bir cür baş ağrısıdır.

Başsız sürü! Bərabərçilik istəyirlər, hamı bərabərdir. Başqa cür düşünürsənsə, öz əl-ayağınla get otur dəlixanada.

Onlardan ən ağıllıları: "Əvvəl bütün dünya dəlixana idi», – deyib gözlərini döyərlər.

Ağlımız da var, dünyadan xəbərimiz də, odur ki, kef çəkib doyunca gülmək olar. Onlar hələ de bir-birlərinin xətrinə dəyir, amma kin saxlamırlar – kin mədəni poza bilər.

Onların gündüzlər üçün öz əyləncələri, gecələr üçün öz əyləncələri var; ən əsası isə can sağlığıdır.

Sonuncu insanlar "bəxtəvərliyin yolunu tapmışıq" deyib gözlərini döyərlər.

Bu yerdə Zərdüştüm "Müqəddimə" adlandırılan birinci nitqi başa çatır, çünki bu ara camaatın qaraqışqırığı və gülümsəməsi Zərdüştü susmağa vadar etdi. Qara-güruh: "O sonuncu insanları bəri elə, Zərdüşt! ya da bizim özümüzü sonuncu insanlara çevir və biz sənə fövqəlinsanı peşkəş eləyirik!", – deyə boğazını yırtırdı. Kefləri ala dağda idi. Şadlıqdan yerə-göyə sığmırdılar. Zərdüşt isə ürəyində: "Onlar məni anlamır, mənim fikirlərim onlara çatmır" – deyə inlədi.

Gör necə illərdi dağlarda yaşayıram, müsahibim göllər, ağaclar olub: indi isə elə bil ki, çobanlarla danışıram. Ruhumun sıcağı, qəlbimin odu dağı-daşı yandırar, amma bunlar ruhumu soyuq bilib sözümü dəhşətli zarafat sandılar. Üzümə baxıb gülürlər və gülərək nifrət edirlər. Gülüşlərinin buzu duyulur.

6.

Bu dəm elə bir şey oldu ki, gözlər kor olsun görməsin, qulaqlar kar olsun eşitməsin. Bu ara kəndirbaz işinə başlamışdı axı: o qəfildən xırdaca bir qapıdan sivişib çıxdı, bazar meydanının üstündən iki qala arasına bənd olunmuş kəndirin üstündə atılıb-düşməyə başladı. Yolun tən ortasına çatmışdı ki, qapı təzədən açıldı, ala-bəzək geyinmiş təlxəyə bənzər birisi bayıra atıldı, tələsik özünü ona yetirdi.

“Tərpən, topal,– deyə qorxunc səslə bağırdı,– tərpən, tənbəl öküz, qaçaqmalçı, kirşalanmış sifət! Elə eləmə ki, səni ayağımın altına alıb çığnayım. Bu qalalar arasında sənin nə ölümün var? Sənin yerin qalanın içidir, sənin kimisini tutub ağzıbirə salmaq lazımdır. Özün bir zibil deyilsən, iş bilənlərin yolu üstünə kötük kimi yamanmısan”. Hər sözü dedikcə ona bir az da yaxınlaşırdı. Kəndirbaza çatmağına bircə addım qalmış elə bir vəhşət oldu ki, görənlərin tükləri ürpəşdi, qanları iliklərində dondu, o, tükürpədən bir səslə çığırıb kəndirbazın başı üstündən tullandı. Rəqibinin qələbəsindən çaşan kəndirbaz başını tamam itirdi. Səmtini yanılıb yolun ortasında tüyünə-tüyünə qaldı. Kəndir əlindən çıxdı. Ağacını bir kənara tolazladı. Yumaq kimi bükülüb gürum-güppaz yerə elə gəldi ki, deyərdin bəs onu hellənc sapandına qoyub atdılar. Bazar əhlinin arasına bir çaxnaşma düşdü, elə bil arı yuvasına daş atdılar. İllah da cəsəd düşən yerdə iynə atsan yerə düşməzdi. Ət ətin üstəydi. Zərdüşt yerindəcə dayanmışdı. Cəsəd düz onun böyrünə düşdü. Dağım-dağım olmuşdu. Heç baxılası deyildi. Amma nəfəsi hələ üstündəydi. Az sonra huşu özünə gələndə, Zərdüştün böyründə diz çökdüyünü görüb: “Sən burada nə qayırırsan? – deyə handan-hana dilləndi. – Çoxdan sümüyüm eymənmişdi ki, şeytan dalımca tüyünür. Axır ki, məni dartıb cəhənnəmə aparır, sən ona mane olmaq istəyirsən»?

Zərdüşt dilləndi: “Dostum nəyə deyirsən and içim, sadaladığın şeylərin heç biri mövcud deyil. Nə şeytan var, nə də cəhənnəm. Ruhun cismindən də tez öləcək. Odur ki, heç nədən qorxma». Kişi şübhə ilə ona baxıb dilləndi: “Süzün düzdürsə, onda mən bir şey itirmirəm. Əslində mən nəyəm axı? Bir tikə çörəkdən ötrü oyunbazlıq edən heyvandan fərqim nədir»?

“Elə demə, – Zərdüşt dedi, – “sən təhlükəli bir şeydən özünü peşə yaratdın. Buna görə adama nifrət etməzlər. Madam ki bu peşə sənin axırına çıxdı, mən səni öz əllərimlə torpağa tapşıracağam”.

Zərdüştün sözləri cavabsız qaldı. Daha kişidən səs-səmir çıxmadı, amma əli heysiz-heysiz tərpəndi, deyəsən, təşəkkür etmək üçün Zərdüştün əlini axtarırdı.

7.

Bu ara axşam qanadını bazar meydanı üzərinə kərdi. Hərə öz iş-gücünün dalınca getdi. Axı hər marağın, dəhşətin də bir həddi var, vaxtı çatanda adamı bezdirir. Təkcə Zərdüşt meyitin yanında oturdu. Elə bərk xəyala dalmışdı ki, vaxtı da hiss etmirdi. Budur, gecə də düşdü. Axşamın sərin nəsimi onun üzünü yaladı. Zərdüşt ayağa qalxıb, qəlbinə xitabən dedi: "Ovun əcəb uğurlu oldu, Zərdüşt! Adam tutmaq istəyirdin, qismətinə meyit düşdü.

İnsan həyatı nə qədər dəhşətlidi və mənasızdır, miskin bir oyunbaz onun taleyini həll edə bilər.

Mən insanlara onların həyatının mənasını anlatmaq istəyirəm, onları qara-güruhdan fövqəlinsan səviyyəsinə qaldırmaq istəyirəm.

Lakin mən hələ onlara yadam, düşüncələrim onlara çatmır. Onların nəzərində mən sərsəmlə ölü arasında bir adlamacam.

Zərdüşt, sənin yolların da bu gecə kimi zülmət içindədir. Gəl, mənim soyuq, cansız yoldaşım! Kedək səni son mənzilə yola salım".

8.

Zərdüşt ölünü dalına alıb yola düzəldi. Yüz addım atmamışdı ki, kimsə qabağını kəsdi. Kim olsa yaxşıdır – təlxək. O: "Çıx get bu şəhərdən, Zərdüşt! – deyə pıçıldadı. – Burada kimsənin səni görəsi gözü yoxdur. Ən dürüst və adil adamların belə səndən zəhləsi gedir, o qədər nifrətdən dəm vurdun ki, onlar səni kütləyə düşmən bildilər. Dindarlar isə lap sənin qanını içərlər, səni camaata təhlükə kimi qəbul etdilər. Bəxtin kəsdi ki, səni ələ salıb güldülər. Doğrudan yaman hətərən-pətərən danışırdın. Bəxtin onda gətirdi ki, bu itin meyitinə sahib durdun. Özünü belə alçaltmağın bugünlük sənin canını qurtardı, Amma indi şəhərdən çıxmasan, sabah da həmən oyunu sənin başına açacaqam". Sözünü qurtarar-qurtarmaz kişi elə bil qeybə çəkildi. Zərdüşt isə qaranlıq döngələrin zülmətini yara-yara xeyli yol getdi.

Şəhər darvazasının ağzında mürdəşirlərlə qabaqlaşdı. Məşəlin işığını üzünə saldılar, Zərdüşt olduğunu bilib, ələ salmağa başladılar. "Zərdüşt it meyiti daşıyır, afərin Zərdüşt də mürdəşir

oldu. Biz onsuz da əlimizi belə zibilə bulaşdırmazdıq. Zərdüşt şeytanın tikəsini əlindən almaqmı istəyir? Nuş olsun! Amma qorx ki, şeytan səndən də fəndgir çıxsın, Zərdüşt! İkinizi də birdən cənginə keçirsin", – çiyinləri atıla-atıla gülürdülər.

Zərdüşt onların sözünə etina etməyib yoluna davam etdi. İki saatdı ki, meşənin və bataqlıqların içi ilə gedirdi, aç qurdların ulartısına o qədər qulaq asdı ki, ona da aclıq əl verdi. Bir evdən işıq gəldiyini görüb ayaq saxladı. "Acından ürəyim gedir. Mənim iştaham da baş çıxarılası deyil, vaxt olur ki, süfrə yığışmamış təzədən açıram, bu gün isə tezdənnən dilimin altından su keçməyib, aclıq da bilməmişəm».

Zərdüşt qapını döydü. Qapıya əlində fənər qoca bir kişi çıxdı. "Narahat yuxularımı pozan kimdir belə"? – deyə soruşdu.

"Bir diri ilə, bir ölü, – Zərdüşt dilləndi. – Mənə yeməyə bir şey verin, səhərdən dünya qutu dadmamışam. Acları yedizdirmək savabdır".

Qocanın getməyi ilə qayıtmağı bir oldu. Zərdüştə çörəklə şərab gətirmişdi. "Bu əldən-ayaqdan uzaq yerlər acların qənimidir. Ona görə burada düşüb qalmışam. Mən tənha qocanın yanına hərdən heyvanlar gəlir, hərdən də adamların güzarı düşür. Yoldaşına de, qoy o da yesin, çox yorğun görünür». Zərdüşt dedi: " Çətin mən onu yola gətirəm, yoldaşım ölüb". "Bunun mənə dəxli yoxdur, – qoca deyindi. – Mənim qapımı döyən kəs gərək çörəyimdən dada. Yeyin, sonra xoş gəldiniz».

Zərdüşt yolu əlinə alıb ay işığında daha iki saat yol getdi. Əslində o, gecə yol getməyə adətkarda idi, yatan adamın üzünə baxmaqdan da çox xoşlanırdı. Gün çərtəndə Zərdüşt özünü ucsuz-bucaqsız bir meşədə gördü. Burdan o yana daha yol-iz yox idi. Qurd-quş dəyməsin deyə ölünü bir ağac oyuğunun xəfəsində daldaladı, özü elə yerdəcə uzandı. Və o dəqiqə, bədəni yorğun, ruhu isə möhkəm, yuxuya getdi.

9.

Zərdüşt gün günorta yerinə çatanacan yatdı. Ayılanda meşəyə, sükuta və təəcüblə öz içərisinə baxdı. Sonra o dənizçi gəmidən yeni quru görən kimi, qəfildən sıçrayıb ayağa qalxdı və sevindi, çünki ona yeni bir həqiqət əyan olmuşdu. Qəlbinə xitabən dedi:

“Elə bil içimdə ay doğdu, anladım ki, mənə məsləkdaşlar lazımdır, kor-koranə iradəmə tabe olan ölü canlar, ruhsuz cəsədlər yox. Mənə elə məsləkdaşlar gərəkdir ki, şüurla mənə qoşulsun, mənimlə oddan-alovdan keçməyə hazır olsun.

Elə bil içim nurlandı. Mən üzümü bütün xalqa deyil, öz məsləkdaşlarıma tutmalı, sözümü tək onlara deməliyəm. Zərdüşt bütöv bir sürünün çobanı və keşikçi iti ola bilməz.

Bu sürüdən özümə lazım olanları seçib götürəcəyəm – mən bunun üçün gəlmişəm. Bu xalq və sürü qəzəblənəcək: Zərdüşt çobanlar arasında quldur adı qazanmaq istəyir. Mən onlara çoban deyirəm, onlarsa özlərini xeyirxah və mömin sanırlar:

Mən onlara çoban deyirəm, amma onlar özləri özlərinə dindar adı qoyublar.

Sən bu xeyirxah möminlərə bir bax! Gör ən çox nifrət etdikləri kimdir? O kəs ki, onların dəyərlər toplumunu dağıdır, qanunlarını pozur. Lakin, bu dağıdan – əsl yaradıcıdır.

Sən bütün dinlərin dindarlarına bax. Gör ən çox zəhlələri kimdən gedir? O kəsdən ki, onların dəyərlər toplumunu dağıdır, qanunlarını pozur. Lakin, bu dağıdan – əsl yaradıcıdır.

Yaradıcı insan məsləkdaş axtarır. O ölü canlar, başsız kütlə və inananları axtarmır. Yaradıcı insan özü kimi yaradanları axtarır, yeni kitablarda yeni dəyərləri bəyan edənləri axtarır.

Yaradıcı insan məsləkdaş axtarır, bir də onunla bahəm məhsul biçinçiləri, yığanları axtarır. Axı əkdikləri başa gəlib, məhsulu yığıma hazırdır. Amma yüzlərlə sarağı əskikdir, o da qeyzindən sünbülləri yolub-tökür. Yaradıcı insan məsləkdaş axtarır, orağını itiləməyi bacaranları axtarır. Dağıdan və hər şeyə nifrət edən adlandıracaqlar onları, düşmən deyəcəklər. Amma onlar məhsulu yığıb, bayram edəcəklər.

Yaradan axtarır Zərdüşt özünə, o, onunla bahəm məhsulu yığıb bayram edənlər sorağındadır: sürülərlə, çobanlarla, ölülərlə nə yarada bilər ki, o!

Sənsə, mənim ilk məsləkdaşım əlvida! Səni ağac oyuğunda yaxşı basdırdım, qurd-quşdan daldaladım.

Daha vədə tamamdır, səndən ayrılıram. Dan üzü yeni bir həqiqət əyan oldu mənə.

Nə çoban olmalıyam, nə mürdəşir. Bir daha üzümü xalqa tutub danışmaq istəmirəm; ölüyə də son kərə sözümü deyirəm.

Yaradana, məhsul yığana, bayram edənə qoşulmaq istəyirəm; onlara göy qurşağını və fövqəlinsana aparan bütün pillələri göstərmək istəyirəm.

Nəğməmi tənhalara və cüt-cüt tənha olanlara oxuyacağam; hələ eşidilməmişi dinləməyə qulağı olanların qəlbini səadətimlə limhəlim dolduracağam.

Məqsədimə can atıram, öz yolumu gedirəm; lənglərin, astagəllərin üstündən atılacağam.

Qoy mənim addımlarım onların qürubu olsun!

10.

Zərdüşt ürəyində belə deyəndə gün iki cida boyu qalxmışdı. Nakahan başı üstündə quş səsi eşidəndə gözləri heyrətlə göylərə sarı açıldı. Səmada bir qartal qıy vururdu, bir ilan da ondan asılı qalmışdı, amma qartalın qəniməti yox sirdaşı idi, həlqə-həlqə qıvrılıb qartalın boynunda bənd almışdı.

“Mənim heyvanlarımdır” – Zərdüştün ürəyi atlandı. “Dünyanın ən məğrur və dünyanın ən ağıllı heyvanı. Məndən xəbər tutmağa çıxıblar, bilmək istəyirlər, Zərdüşt saqdırmı?

Doğrudan, görən mən sağammı?

Adamlar arasında olmaq mənə heyvanların içində yaşamaqdan qat-qat qorxuludur. Yaman xatalı yola düşmüsən, Zərdüşt. Qoy heyvanlarım mənə yol göstərsin”.

Bu vaxt Zərdüşt meşədəki pirin sözlərini yadına salıb ah çəkdi. Öz-özünə belə dedi:

“Müdrik olmaq istərdim. Kaş ki, bu ilanın ağlınca ağlım olaydı. Amma çox xam xəyala düşmüşəm, istəyirəm ki, qururum daim ağlıma söykək dursun.

Günlərin birində ağlım məni tərk etsə, ağlın yoldaşlığı isə çətin ki başaçan olsun, qoy onda qururum axmaqlığıma qoşulub qaçsın”.

Zərdüştün qürubu belə başladı.

ZƏRDÜŞTÜN NİTQLƏRİ

Üç çevrilmə haqqında

Sizə ruhun üç çevrilməsinin adını çəkəcəm: ruhun dəvəyə, dəvənin şirə, sonunda isə şirin uşağa dönməsindən.

Güclü, dözümlü ruhun başı çox bəlalar çəkir, gücü onu zillətlərə, məşəqqətlərə sövq edir.

"Ağır nə var"? – deyə dözümlü ruh dəvə kimi yerə xıxlayır ki, onu rahatca yükləsinlər.

"Ən çətin şey nədir, qoçaqlar: onu mənə verin ki, öz gücümdən feyzyab olum".

Nədir bu? Təkəbbür xətrinə özünü alçaltmaq? Müdrikliyə rişxənd etmək naminə axmaqlığını büruzə vermək?

Ya qələbəyə çataçatda işindən ayrılmaq? ya da əngin zirvələrə dırmaşıb azdıranı azdırmaq?

Ya beynini limhəlim biliklərlə doldurub haqq naminə ruhunu acından gəbərtmək?

Bu ona bənzəmirmi ki, xəstə yatsan, candan yananı başdan eləyib karlarla müsahiblik edəsən ki, nə istədiyini də ömürbillah eşitməyələr.

ya həqiqətin axtarıram deyin murdar suya girsən, üstünə dırmaşan soyu qurbağaların belə xətrinə dəyməyəsən?

Ya sənə nifrət edənləri sevəsən, və ya başına min bir oyun açmaq istəyən kabuslara əl uzadasan?

Bütün bu yükləri dözümlü ruh yüklənib səhraya tələsən dəvə sayağı öz boynuna götürür və öz səhrasına yollanır.

Kimsəsiz səhrada isə ikinci bir çevriliş olur: Ruh şirə dönüb azadlığa çıxmaq istəyir, öz səhrasında ağalıq etmək xəyalına düşür.

Öz axırıncı sahibinə qənim kəsilir, ona və allahına qarşı çıxmaq xəyalına düşür, qələbə naminə ən azman əjdaha ilə kəllə-kəlləyə gəlir.

Bəs ruhun nə sahib, nə də allah gözündə görmək istəmədiyi azman əjdaha nə olan şeydir?

Bu azman əjdahanın adı "Sən etməlisən"dir. Şirin ruhu isə "Mən istəyirəm" deyə haray çəkir.

"Etməlisən" qaratikan kimi ruhun yolu üstündə bitir, hər an ağır yük kimi onu əzir, amanını qırır, "etməlisən"!

Min illiklərin dəyərləri əjdaha dərisinin pulunun üstündə parıldayır. Əjdahalarınsa ən qüdrətlisi deyir: "Bütün şeylərin

dəyərləri mənim üstümdə parıldayır. Bütün dəyərlər artıq müəyyən edilib, və onların hər birisi mənəm.

"İstəyirəm" sözü unudulmalıdır. Əjdaha belə deyir.

Qardaşlar, insanın ruhunda şir nəyə gərək. Təmkinli və öz yerini biləm yük heyvanı niyə kifayət deyil?

Şir hələ yeni dəyərlər yaradammaz, amma şirin gücü özünə yeni yaradıcılıq üçün azadlıq yarada bilər.

Azadlığı qazanmaq və hətta borcun, vəzifənin önündə o müqəddəs "yox" sözünü deyə bilmək – bunun üçün, qardaşlarım, şir olmaq gərəkdir.

Yeni dəyərlər yaratmaq üçün hüquq qazanmaq, bu dözümlü və öz yerini biləm ruhun ən dəhşətli qələbəsidir. Həqiqətən belə ruha bu qarət və vəhşilik kimi görünür.

O, "Etməlisən"i müqəddəs bir büt sanır, ona səcdə edirdi; indi isə o, bu müqəddəs bütdə istibdad və xəyal görməlidi. Öz sevdasından azad olmaq üçün şir olmaq gərəkdir.

Özünüz deyin, qardaşlar, öhdəsindən şirin belə gəlmədiyi bir işi uşaq bacararmı? Bəs onda yırtıcı şirin uşağa çevrilməsinə nə lüzum var?

Uşaq məsumluq, unutma, yeni başlanğıc, oyun, öz-özünə diyirlənən təkər, ilk hərəkət, müqəddəs "Hə" deməkdir.

Yaradıcılıq oyunu üçün, qardaşlarım, müqəddəs "təsdiq" sözü lazımdır: ruh indi öz iradəsini yeritmək istəyir, dünyanın yazığı özünə yeni dünya qazanır.

Sizə ruhun üç çevrilməsini anlatdım: ruhun dəvəyə, dəvənin şirə, sonunda şirin uşağa dönməsini. – Zərdüşt belə dedi. Onda o, "Əlvan inək" adlı şəhərdə qalırdı.

FƏZİLƏT KAFEDRASI HAQQINDA

Bir müdrik kişini Zərdüştə bərk tərifləmişdilər. Deyirdilər o, yuxudan, fəzilətdən qiyamət söhbətlər edir. Onu yüksək qiymətləndirilir və mükafatlandırırdılar. Cavanlar onun yanında gəlir kafedrasının önündə əyləşirlər. Zərdüşt də cavanlara qoşulub onun dərsinə getdi. Müdrik qoca sözü belə başladı:

yuxunun qarşısında ehtiram və utancaqlıq! Bu, birincisi! Pis yatan, gecəni dirigözlü

açan adamlardan uzaq olun!

yuxu qarşısında oğru özünü utancaq aparır. Qaranlıqda utana-utana, oğrun-oğrun tərpənir. Amma gecə gözətçisi utanmaq bilmir. Həyasızcasına şeypurunu çalır.

Yatmağın özü xırdaca sənət deyil: bununçün gərək bütün günü oyaq olasan.

Gündə on dəfə özünə qarşı çıxmalısan, bu, adamı o ki var yorur, ruha tiryək kimi təsir edir.

Gündə on kərə öz günahından keçməli, özünlə barışmalısan: axı küsülülər pis yatırlar.

Gündə on həqiqət öyrənməlisən, yoxsa ruhun ac qalacaq, bu həqiqətləri

gecələr axtarmalı olacaqsan.

Gündə on dəfə gülüb şadlanmalısan, yoxsa gecə sənin mədən, bu qəm-qüssə atası, səni narahat edəcək.

Çoxları bunu bilmir: yaxşı yatmaq üçün gərək insanda bütün fəzilətlər olsun. Saxta şəhadət verdimmi? Əhdimi pozdummu? Zina etdimmi? Dostumun kənizinə şor gözlə baxtım mi? Bunların heç biri şirin yuxu ilə bir araya sığan şey deyil.

Dünyanın bütün fəzilətləri səndə varsa belə, birkərəmlik anlamalısan ki, vaxtı çatanda sən bütün fəzilətləri yatmağa göndərməyə bacarmalısan. Qoy bu gözəlcələr öz arasında savaşmasınlar. Qoy bu savaş səndən yan keçsin, bədbəxt!

Allahınla və qonşunla barış: şirin yuxu bunu tələb edir. Qonşunun şeytanı ilə də barış! yoxsa o gecələr yanına gələcək.

Hökumətə hörmət və itaət göstər, istəyir qoy o lap axsaq olsun. Şirin yuxu bunu tələb edir. Axı nə etmək olar ki, hökumət çox vaxt əyri ayaqlar üstündə qərar tutur.

Ən yaxşı çoban, məncə, odur ki, qoyunlarına bərəkətli otlaqlarda otarsın: şirin yuxu bunu tələb edir.

Mən nə böyük nüfuz həsrətindəyəm, nə də hədsiz sərvət, bunlar adamın öd kisəsini qıcıqlandırır. Amma təmiz adı və babat dolanışığı olmayanların da gözünə yuxu getmir.

Məclisin pis olmasından kiçik olması mənimçün daha xoşdur: amma oda vaxtında yığılıb dağılmalıdır: şirin yuxu bunu tələb edir.

Mənən yoxsul olanlar mənim çox xoşuma gəlir: onlar yuxuya yardımçıdırlar. Onlar xoşbəxtdirlər, ələlxüsus öz paylarını alanda.

Xeyirxah adamın günü belə keçir. Gecə ki oldu, yuxunu haraylamağa, əlbəttə ki, qorxuram. Yuxu istəmir ki, onu haraylasınlar – onu bütün fəzilətlərin ağasını!

Gün ərzində elədiklərimi, fikirləşdiklərimi düşünüb-daşınıram. Fikirlərimi inək kimi çeynəyə-çeynəyə səbrlə özümdən soruşuram görüm bu gün mən hansı on naqisliyimi dəf etmişəm.

Bəs hansı on barışıq, on həqiqət, on gülüşlə qəlbimi süsləndirmişəm?

Bu qırx fikri götür-qoy etdiyim vaxt yuxu, bu fəzilətlər ağası öz-özünə, məni ağuşuna alır.

yuxu göz qapaqlarımı döyəcdəyir, onları ağırlaşdırır. Sonra ağzıma toxunur: o açıla qalır.

Bu ən sevimli oğru yanıma yavaş-yavaş yaxınlaşır və fikirlərimi çalıb aparır. Mən isə sarsaq kimi yerimdə qalıram, lap bu kafedra kimi.

Amma bu vəziyyətdə çox qala bilmirəm, – gərək mütləq uzanasan.

Qocanın sözlərini dinlədikcə Zərdüşt ürəyində gülürdü: çünki o haqqa tapınmışdı. O, qəlbinə xitabən dedi: Bu qoca öz qırx fikrinlə dəlidir, nədir. Amma yuxudan yaman başı çıxır.

Xoş o adamın halına ki, bunun qonşuluğunda yaşayır. Belə yuxu yoluxucudur, o lap qalın divardan da sirayət edər.

Onun kafedrasının bir əsrarı var. Cavanlar nahaq yerə bu fəzilət vaizinin başına yığışmırlar.

Onun bütün müdrikliyi bundan ibarətdir: Gərək möhkəm oyaq olasan ki, möhkəm yuxun olsun.

Həqiqətən, həyatın mənası olmasaydı və mən hansısa mənasızlığı qəbul etmək məcburiyyətində qalsaydım, onda bu mənasızlıq mənə ən məqbul görünərdi.

İndi başa düşürəm ki, fəzilət müəllimi axtaranların aradığı əslində nə imiş. Onlar özlərinə şirin yuxu və tiryəkli fəzilətlər axtarırmışlar!

Bu kafedranın bütün tanınmış müdriklərin müdrikliyi röyasız uyqulardır: onlar həyatda daha ali bir məna görmürlər.

İndi, belə fəzilət vaizləri çoxdur, fəqət bunun qədər səmimi deyillər. Amma onların dövrü çoxdan keçib. Onlar daha ayaq üstə dura bilməyəcəklər, uzanacaqlar.

Xoş bu yuxuculların halına: çox keçməz onlar mürgü döyərlər. –

Zərdüşt belə dedi.

“O BİRİ DÜNYA”NIN MÜŞTAQLARI HAQQINDA

Günün birində bütün “o biri dünya”nın müştaqları kimi Zərdüştün də könlünə o biri dünya düşdü. Dünya mənə cəfakeş, üzgün bir allahın əsəri kimi göründü.

Dünya mənə bir röya, ilahi bir şeriyyət kimi, yaratdığından narazı allahın gözləri önündəki əlvan tüstü kimi göründü.

Xeyir və şər, həzz və iztirab, mən və sən – hamısı mənə yaradanın gözləri qarşısındakı əlvan tüstü kimi göründü. Yaradan özündən üz çevirmək istəyirdi, dünyanı yaratdı.

Öz iztirablarından üz çevirmək və hər şeyi unutmaq cəfakeşə sərməst həzzdir. Bir zaman dünya mənə sərməst həzz və özünü unutma kimi görünürdü.

Bu əbədən qüsurlu, əbədi təzadların əksi, qüsurlu əksi olan dünya öz qüsurlu yaradanından ötrü sərməst həzz mənbəyidir: – bir zaman dünya mənə belə görünürdü.

Odur ki, bir dəfə mənim də ürəyimdən bütün o biri dünya müştaqları kimi insanlığın o biri tayı haqqında düşündüm. doğrudanmı bu insanlığın o biri tayıdır?

Ah, qardaşlar, yaratdığım bu allah, bütün allahlar kimi insan dühasının bəhəri idi, o həmdə insan dəliliyinin bəhəri idi!

O Allah insan idi, həm də insanın miskin hissəsi və özümün “Ego”su (“Mən”i): öz odumdan, külümdəncə yaranmışdı bu kabus. O biri dünyadan gəlib-zad eləməmişdi!

Sonra görün nə baş vermişdi, qardaşlar. Mən özümü, əzabkeş “Ego”mu yendim, külümü dağlara apardım, içində daha şöləli bir tonqal çatdım. İşə bax! Kabus məndən uzaqlaşdı!

İndi belə Kabuslara inanmaq məndən, şəfa tapan kəsdən ötrü əzab-işkəncə olardı, əzablı alçalma olardı bu mənimçün. O biri dünyanın müştaqlarına sözüm budur.

İztirab və gücsüzlük, bir də səadətin yalnız ön çox zillət çəkənlərə bəlli olan qısa çılğınlıq anları – bütün o biri dünyaları yaradan bu oldu.

Yorğunluq..., bir sıçrayışla, bir ölüm sıçrayışı ilə sona varmaq istəyən yorğunluq. Bilməməzliyin miskin yorğunluğu. Bu yorğunluğun artıq heç nədən umacağı yox: bütün allahları və o biri dünyaları o yaratdı.

İnanın, qardaşlar, cismdən əli üzülən cism, aldanmış ruhun barmaqlarıyla sonuncu divarları əlləyir.

İnanın, qardaşlar! Yerdən əli üzülən cism mövcudatın qarnının dərdini dinlədi.

Və o zaman o başını sonuncu divarlara çırpmaq istədi, tək başınla deyil, bütünlüklə "o biri dünyaya" keçmək istədi.

Fəqət "o biri dünya" insan üçün bağlıdır. Bu insansız və qeyri-insani səmavi bir heçlikdir; mövcudatın - varlığın qarnının dərdi də insanla insan dilində danışır.

Doğrusu, hər varlığı isbat etmək də çətindir, dilləndirmək də. Deyin görək, qardaşlar, ən əsrarəngiz şeylər bundan da közəl şəkildə isbat olunmayıbmı?

Bəli, öz varlığı haqqında sözün ən safını bu "Ego" və "Ego"nun təzadları, dolaşıqları danışır, – bu yaradan, sevən, qiymətləndirən, hər şeyin ölçü və dəyəri olan "Ego"nun.

"Ego" – bu ən namuslu varlıqdır. "Ego" yaradandada, xəyala düşəndədə, qırıq qanadlarla çapalayandada cismdən danışır və cismə can atır.

Gün-gündən "Ego" öz fikrini daha düzgün ifadə etməyə öyrənir və öyrəndikcə, cism və yer üzünü daha çox mədh edir.

Öz "Ego"m mənə yeni bir qürur öyrətdi, mən də onu insanlara öyrədirəm: bir daha başını səmavi şeylərin tozuna soxmayıb onu məğrur tut. Məğrur tut öz bəşəri başını, yerin mənasını yaradan başını.

İnsanlara yeni bir iradə öyrədirəm: insanın kor-koranə getdiyi yolu get, onu tərif et, xəstələr və ölülər sayağı bu yoldan sarpma!

Bədənə və torpağa nifrət edənlər, özlərində səma və nicatverən qan damlaları icad edənlər xəstələr və ölülər idi: amma hətta bu şirin və tünd zəhərləri də onlar cism və torpaqdan götürürdü!

Öz miskinliklərindən qaçmaq istəyirdilər, fəqət ulduzlar onlara çox uzaq idi. Bu vaxt inləyib sızlamağa başladılar: "Ah, kaş ki özgə bir varlığa, özgə bir səadətə soxulmaq üçün səmavi yollar olaydı"! – məhz onda onlar öz uydurmalarını və qanlı içkilərini icad etdilər.

Bu nankorlara elə gəlirdi ki, onlar öz bədənlərindən və bu torpaqdan üz döndərə biliblər.

Bəs bu dönüşdən doğan nəşə, həzz üçün kimə borcludur onlar? Öz bədənlərinə və bu torpağa!

Zərdüşt xəstələrə qarşı iltifatlıdır. Nə təsəlli üsullarına, nə də nankorluqlarına görə qəzəblənmir onlara. Təki sağalsınlar, naqisliklərini dəf edib özlərinə ali bir cism yaratsınlar!

Zərdüştün sağalmaqda olana da açığı tutmur. Sağalmaqda olan insan xülyasını əzizləyəndə və gecə olacağın Allahının qəbrinə sarı sürünəndə Zərdüştün ona da açığı tutmur; lakin onun Göz yaşları mənimçün xəstəliyin və xəstə bədənin təzahürü olaraq qalır.

Xəyalpərəstlərin, Allaha iman gətirənlərin içində xəstələr həmişə çox olub; onlar idrak sahiblərinə və fəzilətlərin "dürüstlük" deyilən ən cavanına hədsiz nifrət bəsləyirlər.

Daim geri boylanırlar, qaranlıq çağlara sarı: o zamanlar istək də, inam da bam-başqa şeylər idi, ağlın çılğınlığı ilahilik, şübhə isə günah sayılır.

Yaxşı tanıyıram bu ilahiləri, – istəyirlər, hamı onlara inansın, şübhə yasaq buyurulsun. Onların nəyə inandıqlarını da əlimin içi kimi bilirəm.

Əlbəttə ki, inandıqları nə "o biri dünya"dir, nə də şəfa gətirən qan damlaları: sidq ürəkdən inandıqları bədəndir; öz bədənlərini isə onlar "özündə şey" sanırlar.

Amma bu şey xəstədir: qılaflarından çıxmağı bacarsaydılar, məmnuniyyətlə edərdilər bunu. Ona görə ölüm vaizlərini dinləyir, özləri də "o biri dünya"dan vəz edirlər.

Eşidin məni, qardaşlar, yaxşısı budur, sağlam bədənin səsinə qulaq verin: bu, saf və dürüst bir səsdir.

Sağlam bədən daha dürüst, daha təmiz, daha rəvan danışır, o mükəmməldir və düzqatlıdır. O, yer üzünün mənasından danışır. –

Zərdüşt belə dedi.

BƏDƏNƏ NİFRƏT EDƏNLƏR

Sözüm, bədənə nifrət edənləridir.

Nə öyrəndiklərinizi təzələməyə hacət var, nə də öyrətdiklərinizi; siz ancaq bədənlərinizi unutmalı və bundan sonra lal-dinməz qalmalısınız.

“Mən həm cisməm, həm də ruham” – uşaq belə deyir. Niyə gərək hamı uşaqlar kimi deməsin?

Amma yaşlıbaşlılar: ağlıkəsənlər deyir: Mən yalnız cisməm, vəssalam, qəlb isə cismdə olan nəyinsə adıdır.

Amma oyanmış və ağlıkəsən insan deyir: “Mən cisməm, cismdən başqa bir şey deyiləm; ruh isə cismdə olan nəyinsə adıdır”.

Bədən – böyük idrak, bir beyni olan toplum, hərb və sülh, sürü və çoban deməkdir.

Sənin kiçik ağlın də var, o, bədəninin alətidir, qardaş, böyük idrakın bu kiçik alət və oyunçağına “ruh” deyirsən sən.

“Mən” deyirsən, bu sözlə iftixar edirsən. Amma ondan da böyük sənin böyük idraklı bədənindir, buna isə sən inana bilmirsən. O, “Ego” sözünü demir, amma “Ego” edir.

Hissin duyub ağlın tanıdığı şeylərin heç vaxt məqsədi olmur. Lakin hiss də, ağıl da səni inandırmaq istəyir ki, hər şeyin məqsədi məhz onlardır: gör, necə lovğadır onlar.

Hiss və ağıl olsa-olsa alət və oyuncaqdır: onların arxasında “Öz”lük durur. “Öz”lük hissin gözləri ilə axtarır, ruhun qulaqları çilə dinləyir.

“Öz”lük daim dinləyir, axtarır: o müqayisə edir, məcbur edir, qarət edir, dağıdır.

Ağalıq edir, hətta “Ego”ya də sahiblənib o. Fikirlərinin, hislərinin arxasında qardaş, qüdrətli bir sahib, naməlum bir müdrik dayanır – adına “Öz”lük deyirlər. O sənin bədənində yaşayır, sənin bədənin məhz odur.

Bədənindəki ağıl ali idrakındakından qat-qat çoxdur. Və kim bilir, bu ali idrakı sənin bədənin nəyə sərf edəcək?

Sənin “Öz”ün “Ego”sına və onun məğrur sıçrayışlarına gülür. “Fikrin bu sıçrayışları, uçuşları nəyimə gərəkdir? – öz-özünə deyir. – “Bunlar ki məqsədimə çatmağa dolaşıq bir yoldur”.

O deyir: “Ego”nu haqq yoluna dartan kəndir mənəm; “Ego”nun anlayışlarını formalaşdıran mənəm.

“Öz”lük “Ego”ya deyir: “Burada ağrı duy” ! O da əzabdan qovrulur, fikirləşir necə eləsin bu ağrıdan qurtulsun, – və məhz buna görə o, düşünməlidir.

“Öz”lük “Ego”ya deyir: “Burada həzz duy”! Onun şadlığının hüdudu olmur, fikirləşir, necə eləsin bu şadlığın ömrünü uzatsın, – və məhz buna görə o, düşünməlidir.

Sözüm bədənə nifrət edənlərədir. Onların nifrətlərin səbəbi isə hörmətləridir. Hörməti, nifrəti, dəyəri, iradəni nə yaratdı?

Bu hörməti və nifrəti yaradan “Öz”lük yaratdı, həzz və iztirabı o icad etdi. Yaradan bədən ruhu özünə iradə aləti kimi yaratdı.

Axmaqlıq və nifrətinizlə belə siz, bədən düşmənləri, öz “Öz”lüyünüzə xidmət edirsiniz. Budur deyirəm: sizin “Öz”ünüz özü ölüb qurtarmaq, həyatdan üz çevirmək istəyir.

Hər şeydən artıq istədiyi bir şeyi etməyə – öz fövqündə yaratmağa – daha taqəti qalmayıb.

Ən ümdə istəyi, həyatdan tək gözləməsi budur.

Lakin daha gecdir – bu üzdən sizin “Öz”ünüz məhv olmaq istəyir, badən düşmənləri.

Sizin “Öz”ünüz məhv olmaq istəyir, çünki, siz bədənin düşməni oldunuz! Çünki sizdə daha öz fövqünüzdə yaratmaq iqtidarı qalmayıb.

Həyata, torpağa qəzəblənməyiniz də ona görədir. Nifrətinizin kəc baxışında kor bir həsəd yanır.

Mən sizin yolunuzla getmirəm, siz ey bədənə nifrət edənlər! Mənim üçün, siz fövqəlinsana aparan körpü deyilsiniz. –

Zərdüşt belə dedi.

SEVİNC VƏ EHTİRASLAR HAQQINDA

Qardaşım, əgər sənin fəzilətin varsa və o doğrudan da sənin fəzilətindirsə, onu kimsə ilə bölüşdürməməlisən.

Əlbəttə, onun adını çəkmək, əzizləmək istəyirsən: onun qulaqlarını çəkmək, onunla əylənmək keçir ürəyindən.

Bax! Sən onun adını xalqla bölüşdün, indi sən özün də fəzilətinlə birlikdə xalqa, sürüyə çevrildin!

“Qəlbimi əzab və nəşə ilə dolduran içimdəki aclığı dilə gətirməyə nə söz var, nə də ad” desən nə yaxşı olardı.

Qoy sənin fəzilətin hər hansı azdan yüksəkdə dursun və ondan danışmalı olsan pəltəkləməkdən utanma.

Belə de, bu sayaq kəkələ: “Bu fəzilət mənimdir, necə varsa elə sevir, bu halında xoşlayıram onu, yalnız belə istəyirəm onu mən.

Onu nə allah, nə bəndə qanunu, nə ehtiyac olduğu üçün sevirəm: məndən ötrü nə səma, nə də cənnət bələdçisidir o.

Sevdiyim bəşəri fəzilətdir: orada ağıl az, ümumbəşəri idrak isə ondan da azdır.

Amma bu quş öz yuvasını mənim böyrümdə qurub: onunçun onu sevir, bağrıma basıram, – indi yanımdaca öz qızıl yumurtaları üstündə yatıb”.

Belə kəkələməli, öz fəzilətini mədh etməlisən.

Bir vaxtlar sənin ehtirasların vardı, adlarına şər deyirdin. İndi isə yalnız fəzilətlərin var: onlar sənin ehtiraslarından qaynaqlanır.

Özünün ən ali məqsədini bu ehtiraslarda gördün: budur onlar da sənin fəzilət və sevincin oldular.

Əgər sən təbiətən tündməçaz, şəhvətli, mövhumatçı, qisasçı olsaydın belə, fərq etməzdi: sonunda bütün istəklərin fəzilətə, şeytanların mələklərə çevriləcəkdi.

Bir vaxt sənin zirzəmində quduz itlər vardı: sonunda onlar quşa və ecazkar nəğməkar qızlara döndülər.

Zəhərindən özünə məcun düzəltdin: öz inəyini – öz kədərini – sağdın, indi onun əmcəklərinin şirin südünü əmirsən.

İndən belə daha heç bir şərə qabil deyilsən sən, fəzilətlərinin mübarizəsindən doğan şərdən savayı.

Qardaşım, bəxtəvərsənsə, sənin bircə fəzilətin olacaq: bələdə körpünü daha asan keçərsən.

Çox fəzilət sahibi olmaq şərəfli, amma ağır alın yazıdır. Çoxları fəzilətlərin döyüşündən, onlara döyüş meydanı olmaqdan əldən düşüb səhralara getdi, özünü öldürdü.

Hərb və cəng şərdirmi, qardaş? Lakin bu şər zəruridir; paxıllıq, inamsızlıq, böhtan sənin fəzilətlərinin arasında zəruri olan kimi.

Bax, sənin fəzilətlərinin hər biri zirvəyə necə can atır: o sənin bütün ruhuna hakim kəsilmək və onun sözçüsü olmaq. Hər bir fəzilətin sənin qəzəbini də, nifrətini də, sevgini də ram etmək, sənə büs-bütün sahiblənmək istəyir.

Fəzilətlərin hamısı bir-birini qısqanır, qısqanclıq isə müdhiş şeydir. Qısqanclıq fəzilətin özünün də axırına çıxa bilər.

Qısqanclıq alovu şölələnəndə əvvəl-axır zəhərli neştərini əqrəb sayaq özünə sancır.

Ah, qardaşım, fəzilətin özünü şərə saldığını, öz zəhərindən çağlayıb öldüyünü heçmi görməmisən?

İnsan belə bir şeydir ki, özündən yüksəyə qalxmalıdır: ona görə də sən öz fəzilətlərini sevməlisən, çünki sənin axırına onlar çıxacaq.

Zərdüşt belə dedi.

RƏNGİ QAÇMIŞ CANİ HAQQINDA

Siz hakimlər, qurbanlıq kəsənlər heyvan başını əymədən öldürmək istəmirsiniz deyilmi?

Baxın, rəngi qaçmış cani başını əydi, gözlərindən olmazın nifrət yağır.

“Mənim “Ego”m hüdudlardan kənara çıxmalıdır: “Ego”m mənə insanlara tükənməz nifrət təlqin edir”. – caninin gözləri belə deyir.

O özü özünü məhkum edəndə ən müqəddəs an yaşadı; qoymayın ki, yüksəlmiş belə anı yaşamış bir insan daha öz uçurumuna qayıtsın!

Özü özünə əzab verənlərə qurtuluş yoxdur, – erkən ölümdən savayı.

Ey, hakimlər, sizin qətlə yetirməniz rəhmdən doğmalıdır, qisasdan yox. Öldürəndə da həyat bəraət qazandırmalısınız!

Öldürdüklərinizlə barışmanız yetməz. Qoy sizin qəminiz fövqəlinsana məhəbbət təlqin eləsin: sonrakı ömrünüzə belə bəraət qazandırın!

“Düşmən” deməlisiniz, “cani” yox, “xəstə” deməlisiniz, “alçaq” yox, “dəli” deməlisiniz, “günahkar” yox.

Sən də, ey qırmızı hakim, fikrində tutduqlarının hamısını dilə gətirsən, hər yetən “Bu murdarı, zəhərli ilanı rədd eləyin”! – bağırardı.

Amma fikir başqa, iş başqa, işin ideyası isə tam başqa şeydir. Onların arasında səbəb təkəri fırlanmır.

Bu rəngi qaçmış insanı solduran işin ideyası oldu. Necə ki, işini görürdü, şövq içindəydi, öhdəsindən də bacarıqla gəlirdi, elə ki, iş görülüb qurtardı, nəticəsindən şaşırdı, tablaşa bilmədi ona.

O özünə yalnız iş qüvvəsi tək baxıb. Dəlilik deyirəm buna: istisna onun bütün varlığını çulğayıb.

Yerdə çəkilmiş bir xətt toyuğu ovsunlayır: təslim olduğu şeytan insanın küt ağlını ovsunlayır – buna işdən sonrakı dəlilik deyirəm mən.

Eşidin, ey hakimlər, başqa bir dəlilik də var: o da işdən əvvəlkidir. Ah, siz bu qəlbin dərinliklərinə kifayət qədər varmadınız!

Qırmızı hakim soruşur: "bu cani nəyin xətrinə öldürüb? O qarət etmək istəyirdi".

Mənsə sizə deyirəm: onun ürəyi qana susamışdı, qarətə yox. Qarət bəhanə idi: bıçağın verdiyi bəxtəvərliyə susamışdı o!

Amma onun miskin ağlı bu dəliliyi anlamadı və qatili dilə tutdu: "Nə böyük şeydir – qandır da! – dedi: bəlkə əl bulamışkən bir qarət də edəsən? Qisas alasan, hə»?

Qatil miskin ağlının səsinə qulaq asdı: ağlın bu sözləri qurğuşun kimi qatilin üstünə tökürdü və öldürərkən o qarət edirdi. O öz dəliliyinin xəcalətini çəkmək istəmirdi.

Və günahlarının qurğuşun siqdəti yenə onun üstünə çöküb və miskin ağlı yenə əvvəlki tək key, heysiz, küt olaraq qaldı.

Eləcə başını silkələyə bilsəydi, bu yük aşıb tökülərdi: amma kimdir bu başı silkələyən?

Nədir bu adam? Ruhun vasitəsilə dünyaya yol axtaran bir yığın xəstəlik: onlar məhz dünyadan qənimətini qoparmaq istəyənlərdi.

Nədir bu adam? Bir-biri ilə yollaşmayan bir yığın vəhşi ilan, – budur dağılışdılar, hərəsi dünyanın bir tərəfinə, qənimət axtarmağa getdilər!

Bu miskin bədənə baxın! Onun çəkdiyi iztirab və həsrətləri bu yazıq qəlb anlamağa çalışırdı, – bunu qatil həzzi, bıçağın verdiyi bəxtəvərliyi kimi izah edirdi.

Kim xəstələnsə, indi "şər" sayılan şər onun üstünə hücum çəkir: o, xəstə, onu incidən şeylərlə hamıya əzab vermək istəyir. Amma başqa vaxtlar da var idi, o vaxtın xeyiri də, şəri də bambaşqa idi.

Bir vaxtlar şübhə də, “Öz”ünə yönəlmiş iradə də şər sayılırdı. O vaxtlar xəstə kafir və cadugər olurdu: kafir kimi, cadugər kimi də əzab çəkir, bu əzabı özgələrə də çəkdirmək istəyirdi.

Amma bu sizin qulağınıza girməz: deyirsiniz, bu sizin xeyirxah adamlarınıza ziyandır, deyirsiniz. Axı, sizin xeyirxah adamlarınızla nə işim var!

Sizin xeyirxah adamlarınızda məni çox şey iyrəndirir və burada onların şərindən söhbət getmir.

İstərdim ki, onları bir dəlilik çulğasın, bu solğun cani kimi onların da axırına çıxsın!

İstərdim ki, onların dəliliyinin adı həqiqət ya da sədaqət, ya da ədalət olsun: fəqət sizin xeyirxah adamlarınızın öz fəziləti ondan ibrətdir ki, öz miskin mənəmliyində uzun ömür yaşasınlar.

Mən coşqun selin üstündən asılmış körpünün barmaqlığıyam: kim məndən tuta bilir, tutsun. Amma mən sizə qoltuq ağacı deyiləm.

Zərdüşt belə dedi.

OXU VƏ YAZI HAQQINDA

Yazılar içində qan yazısını sevirəm. Qanınla yaz, onda görərsən ki, qan ruhdur.

Özgə qanını anlamaq asan deyil: bekarçılıqdan oxuyanlardan zəhləm gedir.

Oxucunu tanıyan onunçün əlini ağdan qaraya da vurmur. Oxucular daha bir əsr yaşasa, görərik ki, ruh özü də pis iylənəcək.

Hər yetənin oxumağı öyrənmək haqqın olması, axırda, nəyinki yazını, fikri də korlayacaq.

Bir zaman ruh Allah idi, sonra insana döndü, indi isə o lap qaragüruha çevrilir.

Qan və müəmmalarla yazanlar oxunulmaq deyil, əzbərlənmək istəyir.

Dağlarda ən kəsə yol zirvədən-zirvəyə gedən yoldur; amma bununçün uzun ayaqların olmalıdır. Müəmmalar zirvə olmalıdır: onların müraciət etdikləri adam isə böyük və güclü olmalıdır.

Hava açıq, təmiz, təhlükə yaxın, ruh isə şənliklə dolu: bunlar hamısı bir-birinə çox yaraşır.

İstəyirəm başıma koboldlar* yığılsın, çün cəsuram mən.

(*kobold – alman mifologiyasında yeraltı sərvətlərin qoruyucusu – H.H.).

Kabusları ürküdən cəsarət özü üçün koboldlar yaradır – cəsarət gülmək istəyir.

Daha mən sizinlə birlikdə hiss etmirəm: altımdakı bu bulud, başına güldüyüm bu qara bulud və ağırlıq, – budur sizin şimşəkli buludunuz.

Qalxmaq istəyəndə siz yuxarı baxırsınız. Mənsə aşağı baxıram, çünki yuxardayam.

Sizlərdən kim zirvədə ola-ola gülə bilər?

Ən hündür dağları qalxanlar bütün səhnə və həyat faciələrinə gülür.

Qayğısız, lağbaz, güclü – ağıl bizi belə görmək istəyir: o qadındır və yalnız igidləri sevir.

Deyirsiniz: “həyat dözülməzdir”! O halda bəs sizin gündüzkü qürurunuz və axşamkı itaətiniz nəyə gərəkdir?

Həyat dözülməzdir; özünüzü yalandan nərmə-nazik göstərməyin! Biz hamımız qəşəng yük eşşəklərriyik.

Üstünə düşən bir damla şehdən titrəyən tumurcuqla ortaq nə kəsiyimiz var?

Düzdür, biz həyatı sevirik: həyata deyil, sevgiyə alışdığımız üçün.

Hər sevgidə daim bir az dəlilik olur. Dəlilikdə də daim bir az ağıl.

Və hətta həyat aşiqi olan mənə elə gəlir ki; kəpənəklər, sabun köpükləri və onlara bənzəyən insanlar xoşbəxtlik haqqında hamıdan çox bilirlər.

Bu yüngül ağılsız zərif hərəki xırdaca qəlblərin pərvazını seyr etmək Zərdüştün ruhunu tərənələrə və göz yaşlarına qədər məst edir.

İnanası olsam, yalnız rəqs etməyi bacaran Allaha inanardım.

İblisimi gördüm: yaman ciddi, ağır, ədalı tuturdu özünü: bu ağırlıq ruhu idi o; hər şeyin yerə düşməsinə bais də odur.

Qəzəblə deyil, gülüşlə öldürərlər. Qalxın, ağırlıq ruhunu öldürməyə bizə yardımçı olun!

Gəzməyi öyrəndim; o vaxtdan özümə qaçmağı da rəva bilmişəm. Uçmağı öyrəndim, o vaxtdan mən yerimdən tərpənmək üçün kənardan təkan gözləmirəm.

İndi yüngülləşmişəm, indi uçuram, indi özümə üstdən aşağı baxıram, indi Allah özü belə içimdə rəqs edir.

Zərdüşt belə dedi.

DAĞDAKI AĞAC HAQQINDA

Zərdüştün gözü almışdı ki, bir gənc ondan yan gəzir. Axşamın birində təkbaşına "Əlvan inək" adlı bu şəhərin dörd dövrəsini sarmış dağları gəzəndə Zərdüşt həmən gənci gördü, o, ağaca söykəli oturmuşdu, yorğun baxışları dərəyə dikilmişdi. Zərdüşt oğlanın söykəndiyi ağacdan yapışıb belə dedi:

"Bu ağacı silkələmək istəsəm, bacarmazdım.

Amma bizim görmədiyimiz külək ona zülm edir, istədiyi səmta əyir. Bizi bundanda çox əyən görünməz əllər var".

Gənc pərt olub ayağa qalxdı və dedi: "Zərdüştün səsini eşidirəm, elə indicə onu düşünürdüm".

Zərdüşt cavabında: "Daha qorxmaq niyə – dedi. Ağacın başına gələn insandan da yan keçmir.

O yüksəklərə, işığa nə qədər can atırsa, kökləri yerin təkinə, aşağı, zülmətlərə, dibə, – şərə o qədər çox işləyir".

"Bəli, şərə! – gənc ucadan dedi. –Necə olur ki, sən mənim qəlbimi oxudun»?

Zərdüşt gülümsündü: "Elə qəlblər var ki, onları oxumaq olmur, onda onları əvvəl uydurmaq lazım gəlir".

"Bəli, şərə"! – gənc sözü təzədən çevirdi. – Düz dedin, Zərdüşt! Daha özümə inanmıram. Yüksəkliyə can atmağa başlayandan sonra nə özüm özümə nə də başqaları mənə inanmır, – bu necə oldu axı?

Çox tez dəyişilirəm: bu günüm dünənimi inkar edir. Qalxarkən bəzi pillələrin üstündən atılıram: – heç bir pillə də bunu mənə bağışlamır.

Yüksəkdə olanda görürəm ki, tənhayam. Məni dindirən olmur, tənhalığın şaxtası iliyimi çalır. Yüksəkdə nələri axtarıram?

Nifrətim də həsrətimlə qoşa böyüyür; yüksəyə qalxdıqca, qalxanlara nifrət edirəm. Yüksəkdə nələri axtarırlar?

Öz dırmaşmağımdan və büdrəməyimdən necə də utanıram! Öz təng nəfəsimə necə də lağ edirəm! Uçanlara necə də nifrət edirəm! Yüksəklikdə olmaqdan necə də bezmişəm».

Bu yerdə gənc susdu. Zərdüşt isə, yanında olan ağacı nəzərdən keçirib belə dedi: "Bu ağac dağda tək-tənha durub, o insandan və heyvandan yüksəkdə bitib.

İşdir, danışmaq istəsə, anlayacaq kimsəsi tapılmazdı: elə yüksəkdə bitib.

Elə hey gözləyir, gözləyir, – gözlədiyi nədir bəs? Buludlara çox yaxın yaşayır: yəqin ilk şimşəyi gözləyir o"?

Zərdüşt bunu söyləmişdi ki, gənc fəğan etdi:

"Elədir, Zərdüşt, düz dedin. Yüksəyə can atarkən ölüm arzulayırdım, sənsə mənim gözlədiyim şimşəksən! Bax, sən zühur edəndən gör nə hala düşmüşəm. Sənə bəslədiyim həsəd məni məhv etdi! – gənc belə deyib acı-acı ağladı. Zərdüşt onu qucaqlayıb özünlə apardı.

Bir az bu minvalla gedəndən sonra bu sözləri dedi:

– Ürəyim parçalanır. Təhlükədə olduğunu sənin gözlərin sözlərindən daha yaxşı anladır.

Hələ azad deyilsən, hələ azadlığı axtarırsan. Bu axtarışın səni oyadıb, yuxunu da sənə haram edib.

Azad zirvələrə can atırsan, qəlbin ulduzlara susayıb. Amma sənin mənfur istəklərin də azadlığa can atır.

İçindəki quduz itlər azadlığa darbınır: ruhun bütün buxovları qırıb atmaq istərkən onlar öz zirzəmilərində sevincdən ulayırlar.

Məncə sən hələ azadlıq arzulayan məhbussan; ah, bu məhbusların ruhu ağıllı olduğu qədər də hiyləgər və mənfur olur.

Qurtulan ruh hələ təmizlənməlidir. Həbsxananın çirk-pasağı hələ onun üstündədir: hələ onun baxışları təmizlənməlidir.

Hə, sənin təhlükəni bilirəm. Amma səni and verirəm öz məhəbbətimə, öz ümidlərimə: sevgindən, ümidlərindən vaz keçmə!

Hələ ki, özünü nəcib sanırsan; səni sevməyənlərdə, dalınca acıqla baxanlar da səni nəcib sanırlar. Bil ki, nəcib insan çoxlarının yolu üstündə dayanıb.

Nəcib kəs xeyirxahlarında yolu üstündə dayanıb, onlar nəcibə xeyirxah deyəndə əslində yoldan çıxarmaq istəyirlər onu.

Nəcib kəs yeni bir şey, yeni bir fəzilət yaratmaq istəyir. Xeyirxah isə köhnəni, köhnənin qorunub saxlanmasını istəyir.

Dərd onda deyil ki, nəcib xeyirxaha dönər, dərd burasındadır ki, o sırtığa, lağbaza, dağıdana çevrilə bilər.

Ah, nəciblər tanıyıram ki, ən ali ümidlərini itirdilər. Və indi onlar bütün ali ümidlərə şər atırdılar.

İndi ötəri əyləncələrə, ehtiraslara qapılıblar: məqsədləri isə bir günlüyə güclə yetir.

"Ruh özü də şəhvətdir" – belə deyirdilər. Onda ruhlarının qanadları sındı: indi o ruh hər yana sürünür, dişlədiyi hər şeyi murdarlayır.

Bir vaxt ürəklərindən qəhrəmanlıq keçirdi, indi şəhvət qurduna dönüblər. Onların qəhrəmanlığı gəm və qorxudur.

Səni and verirəm məhəbbətimə, ümidlərimə: qəlbindəki qəhrəmanı atma! Ali ümidini müqəddəs saxla! –

Zərdüşt belə dedi.

ÖLÜM VAİZLƏRİ HAQQINDA

Ölüm vaizləri var; hər yandan ölümü mədh edənlərin səsi gəlir, və yer üzü ölümü mədh olunası kəslərlə doludur.

Yer üzü artıq adamlarla doludur, həyat insanların ifart çox olmasıylə korlanıb. Kaş "əbədi həyat" adıyla onları bu həyatdan tovlayıb qoparmaq olaydı!

"Sarılar" ya da ki, "qaralar" – ölüm vaizlərinə belə deyirlər. Amma istərdim onları sizə başqa rənglərdə göstərəm.

Onlar, bu qorxunclar bətnlərində vəhşi heyvan gəzdiririlər; onların şəhvətdən və ya öz həyatlarına qəst etməkdən başqa seçimləri qalmayıb. Amma onların şəfqəti də öz həyatlarına qəstdir.

Onlar, bu qorxunclar hələ heç adam da olmayıbdır; qoy onlar həyata nifrəti təbliğ etsinlər və özləri də getsinlər!

Qəlbi vərəmlidir onların: doğulcaq ölməyə başlayır və yorğunluq, tərki-dünyalıq təliminə susayırlar.

Onlar həvəslə ölü olmaq istəyirlər, gəlin onların bu istəyini alqışlayaq! Amandır, bu ölüləri xortlatmayaq, bu canlı tabutları tərpətməyək!

Qarşılarına çıxan istər xəstə olsun, istər qoca, istər ölü, o saat deyəcəklər ki, "həyat təkzib olundu!»

Halbuki təkzib olunan onlar özləri və varlığın tək bircə üzünü görən gözlərdir.

Ağır dərd pərdəsinə bürünüb ölüm gətirən kiçik təsadüflərə susayaraq, beləcə dişlərini bir-birinə sıxıb gözləyirlər.

Ya da onlar şirniyyat qapışdırır və eyni zamanda öz uşaq hərəkətlərinə gülürlər: onlar həyatdan saman çöpü kimi yapışır və saman çöpündən yapışmalarına lağ edirlər.

Onların müdrikliyi budur: "Yaşayan axmaqdır, biz də beləcə axmaqıq! Dünyada bundan axmaq şey ola bilməz!»

"Yaşamaq yalnız əzab çəkməkdir"! – özgələr belə deyir, yalan da demirlər: onda çalışın ki, qurtarasınız! Çalışın ki, büsbütün iztirab olan bu həyat qurtarsın!

Fəzilətinizin qaydası belə səslənməlidir: "sən özün özünü öldürməlisən! Sən özünü özündən oğurlamalısan! –

"Şəhvət günahdır, – ölüm vaizləri belə deyir – gəlin bir kənara çəkilək, uşaq törətməyək!»

"Doğmaq əzablıdır, – başqaları isə belə deyir – niyə də doğasan? Onsuz da doğulanlar hamısı bədbəxt olur!" Elə onlar da ölüm vaizləridir.

"Rəhm edin – üçüncülər deyir. – Nəyim varsa götürün! Özümü də alın məndən! Onda həyatla ilişkim azalar"!

Onlar doğrudan mərhəmətli olsaydılar, öz yaxın adamlarında həyat eşqini öldürərdilər. Qəddarlıq – onların ən böyük yaxşılığı.

Amma onlar həyatdan yaxa qurtarmaq istəyirlər: öz zənçir və bəxşişləri ilə başqalarını həyata daha möhkəm bağladıqları veclərinə də deyil.

Ey sizlər – sərt əmək, sürət, yenilik, qeyri-müəyyənlik sevənlər, – siz özünüzü pis hiss edirsiniz; sizin bütün fəaliyyətiniz özündənqaçma və özünü unutma istəyidir.

Həyata bir azacıq inamınız olsaydı, anın təsirinə az qapılardınız. Gəl ki, nəinki gözləmək, heç tənbəllik etmək üçün qəlbinizdə məna çatmır!

Hər yandan ölümü mədh edənlərin səsi gəlir, və yer üzü ölümü mədh olunası kəslərlə doludur.

Yaxud “əbədi həyatın” – mənim üçün hamısı birdir, – təki onlar yubanmadan ora yollansınlar.

Zərdüşt belə dedi.

HƏRB VƏ HƏRBÇİLƏR HAQQINDA

Ən yaxşı düşmənlərimizdən aman diləmirik, bir də bütün qəlbimizlə sevdiklərimizdən. Qoyun, sizə həqiqəti söyləyim!

Mənim hərbçi qardaşlarım! Mən sizi ürəkdən sevirəm, sizinləyam, daim sizin bərabəriniz olmuşam. Və həm də sizin ən yaxşı düşmənizəm. Qoyun, sizə həqiqəti söyləyim!

Ürəyinizdəki nifrətdən də, həsəddən də xəbərdaram. Nifrət və həsədi tanımayacaq qədər böyük deyilsiniz. Barı özünüzdən xəcalət çəkməyəcək qədər böyük olun!

Və əgər idrak mücahidləri olmağı bacarmırsınızsa, heç olmasa onun sıravi döyüşçüsü olun! Onlar bu mücahidlərin müjdəçisi və yol yoldaşlarıdır.

Göz işlədikcə bölük-bölük əsgər görürəm: cəngavər görmək istərdim! Geyəcəklərinə “vahid forma” deyirlər: kaş onun altındakılar “vahid forma” olmayaydı.

Gözləriniz hər an düşmən axtarmalıdır – öz düşmənizi. Bəzilərinizə elə ilk baxışdan nifrət edir.

Düşmənizi axtarmalı, hərbinizi etməli, fikirləriniz uğrunda cəngə çıxmalısınız. Və əgər fikirləriniz məğlub olsa, bu məğlubiyyətin üzərində vicdanınız zəfər çalmalıdır.

Sülhü yeni savaşlara hazırlıq fürsəti kimi sevməlisiniz. Qısa müddətli sülh uzundan daha xoş gəlməlidir sizə.

Sizi işə deyil, mübarizəyə çağırıram. Sizi sülhə deyil, qələbəyə çağırıram. Qoy işiniz mübarizə, sülhünüz qələbə olsun!

Yalnız əlində ox-yay olanda sakit oturub susmaq olar: yoxsa boş-boş danışıb söyüşürlər. Qoy sülhünüz qələbə olsun!

Deyirsiniz, xeyirxah məqsəd hətta hərbi müqəddəsləşdirir? Mənsə sizə deyirəm ki, hərbin xeyri hər bir məqsədi müqəddəsləşdirir.

Hərb və cəsarət bəşər övladına məhəbbətdən qat-qat çox iş görüb. İndiyədək məzlumları xilas edən sizin rəhminiz deyil, igidliyinizdi.

“Yaxşı nədir”? – soruşursunuz. Yaxşı – igidlikdir. “Mehriban olmaq həm gözəl, həm də təsirlidir” bu sözləri siz yox, balaca qızlar deyə bilər.

Deyirlər ürəyiniz daşdandır: halbuki ürəyiniz səmimidir, xalisdir və mən ürəyinizin utancınızı sevirəm. Siz qabarmadan, özgələr isə çəkilmədən utanır.

Eybəcərsinizmi? Nə olar, qardaşlar! Siz də eybəcərlərin əbası olan aliliyə bürünün!

Qəlbiniz böyüdükcə təkəbbürünüz artır; və alicənablığınızın mayasına qəzəb qatılıb. Tanıyıram sizləri.

Təkəbbürlü və məzlum bir-biriylə qəzəbdə qarşılaşır. Amma bir-birini anlamırlar. Tanıyıram sizləri.

Düşməniniz ikraha deyil, nifrətə layiq olmalıdır. Düşmənlərinizlə fəxr etməlisiniz, onda onun uğuru sizin də uğurunuz olar.

Qiyam qulun mərdliyidir. Qoy sizin mərdliyiniz itaət olsun! Qoy verdiyiniz əmr belə itaət olsun!

Yaxşı hərbçinin qulağında “sən etməlisən”, “mən istəyirəm”dən xoş səslənir. Sizə əziz olan nə varsa, əvvəl özünüzə əmr etməlisiniz onu!

Qoy sizin həyata məhəbbətiniz ən ali ümidlərə məhəbbət olsun, sizin ali ümidiniz isə həyat haqqında ən ali düşüncəsi olsun!

Sizin ən ali düşüncənizi isə mən əmr edəcəyəm – eşidin, insan belə bir şeydir ki, özündən yüksəyə qalxmalıdır.

Beləcə öz itaət və hərb ömrünüzü yaşayın! Uzun ömür nəyə gərəkdir? Hansı igid rəhmi qəbul edər?

Sizə yazığım gəlmir, sizi qəlbən sevirəm, mənim müharibə qardaşlarım! –

Zərdüşt belə dedi.

YENİ BÜT HAQQINDA

Hardasa hələ də xalqlar, sürülər qalmaqdadır, bizdə isə başqa cürdür, qardaşlar, bizdə dövlətlər var.

Dövlət? Nə deməkdir bu? Qulaqlarınızı yaxşı-yaxşı açın, indi sizə xalqların ölümündən danışacağam.

Dövlət bütün soyuq əjdahaların ən soyuğudur. Yalanı da soyuqdur onun. Gör necə yalanlar üyüdüb tökür: “mən, dövlət, elə – xalqam”.

Yalandır! Xalqı yaradan, ona inam və sevgi bəxş edən yaradanlar oldu, həyata belə xidmət etdilər onlar.

Hər addımda tələ qurub onu dövlət adlandıranlar – dağıdanlardır: qurduqları tələyə yüzlərcə arzu-istək ilişdirib başı üstdən qılınc asıblar.

Harada hələ də xalq qalıbsa o dövləti anlamır, onu bəd nəzər, adətlərin və qanunlar tapdalanması kimi görür və nifrət edir.

Sizə bir işarət verim: hər xalq xeyrini, şərini öz dilində anladır – qonşu onu anlamır. Axı, bu dili öz adətlərindən, hüquqlarından icad edib o.

Lakin dövlət bütün dillərdə xeyir və şər haqqında yalan satır: nə deyirsə, yalandır, nəyi varsa, oğurluqdur.

Hər şeyi saxtadır, oğurluq dişlərlə dişləyir bu dişli heyvan. Bətni belə saxtadır onun.

Xeyir və şər dillərin qatışıq salınması: budur sizə verəcəyim işarə, dövlətin işarəsi.

Həqiqətən, bu işarə ölüm əzmindən xəbər verir! Həqiqətən, onun gözü ölüm vaizlərini gəzir!

Çoox-çoxları doğulur: dövlət artıq adamlar üçün icad olunub! Bax gör o onları, çoox-çoxlarını necə tovlayır! Gör bu çoxları o necə cəlb edir! Gör necə onları boğur, çeynəyir, gəmirir!

Dünyada məndən nəhəng şey yoxdur: Allahın idarəedici barmağıyam mən”, – əjdaha nərə təpir. Və nə yazıq ki onun qarşısında diz çökən yalnız uzunqulaqlar, dargözlər deyil!

Ah, böyük qəlblər, öz qara yalanlarını sizə də pıçıldayır o. Ah, onun gözü fədakar, zəngin qəlbləri necə tez tapır!

Bəli, sizlər də gözündən yayınmırsınız onun, köhnə Allahın müzəffərləri! Döyüşlər sizi yorub, indi bu yorğunluq yeni bütə sitayiş edir!

Ətrafına qəhrəmanları, təmizləri yığmaq istəyir bu yeni büt! Təmiz vicdanın şəfəqləri altında özünü günə verməyi xoşlayır bu soyuq əjdaha!

Sizinçün hər şeyindən keçməyə hazırdır, təki ona, bu yeni bütə səcdə edəsiniz: sizin fəzilətinizin şəfəqini, məğrur gözlərinizin baxışını beləcə satın alır.

Çoox-çoxlarını – sizləri – aldadıb tora salmaq istəyir! Hə, əcəb tələ tikəsi tapıb, ilahi ehtiramın tozundan fınxıran ölüm atı!

Hə, çoxları üçün həyat donuna kirmiş ölüm icad olunub: doğrudan da ölüm vaizləri üçün misilsiz xidmətdir!

O yerdə ki hamı, yaxşılar da, yamanlar da zəhər içirlər; o yerdə ki, hamı, yaxşılar da, yamanlar da özünü itirir; o yerdə ki hamının tədrici intiharına "həyat" deyilir – mən ora dövlət deyirəm.

Bu artıq adamlara baxın! İxtiraçıların əsərini, müdriklərin xəzinəsi oğurlayırlar: oğurluqlarına mədəniyyət adı qoyurlar və hər şeyləri xəstəliyə, bədbəxtliyə dönür.

Bu artıq adamlara baxın bir! İl-müdam xəstədirlər, ödlərini qusur, adını qəzet qoyurlar. bir-birini udur, heç vaxt da həzm edə bilmirlər.

Bu artıq adamlara baxın! Sərvət qazanır, amma günbəgün kasıblayırlar. Hakimiyyətdir istədikləri, ilk öncə isə hakimiyyətin dirəyi, çoxlu pul, – ah, acizlər!

Bir gör bu qıvraq meymunlar necə dırmaşır! Bir-birinin təpəsinə dırmaşır, sonra isə lehməyə, uçuruma yuvarlanırlar.

Hamısı taxt-taca sarı dartınır: axmaqlar, elə bilirlər xoşbəxtlik taxt-tacdadır! Gah lehmə taxt-tacda oturur, gah da taxt-tac lehmədə.

Məncə, onların hamısı dəlisov, çevik meymunlardır, onlar havalanıblar. Məncə, onların bütü, soyuq əjdaha pis iylənir; məncə bu bütpərəstlərin hamısı pis iylənir.

Qardaşlar, onların ağızlarının, tamahlarının qoxusundan boğulmaqmı istəyirsiniz? Tez, pəncərələri sındırın, açıqlığa tullanın!

Pis qoxudan qaçın! Artıq adamların bütparəstliyindən uzaq dolanın!

Pis qoxudan qaçın! İnsan qurbanlarının tüstüsündən uzaqlaşın!

Hələ ki azad torpaqlar böyük qəlblilərin pişvazına müntəzirdir. Hələ ki tənhalar və cüt-cüt tənha olanlar üçün dəniz qoxulu azad məkanlar var.

Hələ ki, böyük qəlblər üçün azad həyat azad durub. Doğrudan da dünya malına yiyələnməyən kəsə dünya yiyələnməz. Azın yoxsulluğuna eşq olsun!

Dövlət qurtaran yerdə, artıq olmayan insan başlayan yerdə zərurilərin nəğməsi başlayır; onun təranəsi yeganə və əvəzsizdir.

Oraya, dövlətin qurtardığı yerə baxın, qardaşlar! Fövqəlinsana aparan göy qurşağını və körpünü görmürsünüzmü? –

Zərdüşt belə dedi.

BAZAR MİLÇƏKLƏRİ HAQQINDA

Qaç, dostum, öz tənhalığına qaç! Görürəm, qulaqların böyük adamların haray-qışqırığından batıb, məzlumların ah-naləsindən yağır olub.

Meşə də, qayalar da sənlə bərabər ləyaqətlə sükuta varmışdılar. Sevdiyin o ağacdan ibrət götür, başını dənizin üzərinə əyərək sakitcə dinləyir.

Tənhalığın qurtardığı yerdə bazar başlanır; bazarın başlandığı yerdə isə mahir oyunbazların hay-küyü və zəhərli milçəklərin vızıltısı başlayır.

Təqdim edəm olmasa, dünyanın ən yaxşı şeyləri də heç nəyə dəyməz; xalq bu təqdimatçılara böyük adam deyir.

Xalq böyüyü, yəni yaradanı anlamır, amma böyük şeylərin təqdimatçılarını və oyunbazlarını sevir.

Dünya yeni dəyər yaradanların başına fırlanır – səssizcə fırlanır. Fəqət xalq və şan-şöhrət oyunbazların başına fırlanır – dünyanın gərdişi belədir.

Oyunbazın ruhu var, amma ruh vicdanı yoxdur. O daim başqalarını möhkəm inandırdığı bir şeyə inanır – özünə!

Sabah başqa inamı olacaq, birigün bambaşqa. Hissləri xalq kimi çevik, əhvalı dəyişkəndir.

Darmadağın etməyi – sübut etmək bilir. Dəli etmək – onun dilincə inandırmaqdır. Qan onun nəzərində dəlillərin ən gözəlidir.

Yalnız həssas qulaqlara nüfuz edən həqiqəti o, yalan və puç adlandırır. Əslində o təkcə dünyada ən çox gurultu qoparan allahlara inanır!

Bayram bazarı təlxəklərlə doludur, – xalq isə bunları böyük insan bilib, bunlarla öyünür! Xalq üçün onlar anın ağasıdırlar.

Fəqət an onları tələsdirir, onlar da səni. Səndən Hə, ya Yox cavabı almaq istəyirlər. Amandır, sən Hə, ya Yox arasında qalmaq istəyirsən?

Ey həqiqət aşiqi, bu qeyd-şərtsizlərə, bu tələsdirənlərə əzənlərə həsəd çəkmə! Hələ heç vaxt həqiqət qeyd-şərtsizlərin əlinə düşməyib.

Uzaq dolan bu tələsənlərdən, təkcə bazarda "ya hə, ya yox" deyə adamı divara dirəyərlər.

Dərin bulaqların hamısının həyatı ləng keçir: diblərinə düşən şeyi ayırd etmək üçün çox gözləməli olurlar onlar.

Bütün böyüklər bazardan və şöhrətdən kənar gəzir: yeni dəyərləri yaradanlar əzəldən bazardan və şöhrətdən uzaq yaşamışlar.

Tənhalığa çəkil, dostum! Görürəm, zəhərli milçəklər səndə sağ tutar yer qoymayıb. Sərt, səfalı küləyin əsdiyi yerlərə qaç! Tənhalığa qaç! Kiçik, miskin insancıqlara çox yaxın yaşamışdın. Onların görünməz qisasından qaç! Tək arzuları səndən qisas almaqdır.

Əl qaldırma onlara! Nə sayları var, nə hesabları, sənin alnına isə milçəkqıran olmaq yazılmayıb.

Bu kiçik, miskin insancıqların sayı-hesabı yoxdur; və bəzən yağış damlaları, alaq otları da möhtəşəm bir tikilinin axırına çıxır.

Sən daş deyilsən, amma damcılar oyum-oyum oyub səni. Damcı çoxalınca çatlayacaq, sınacaqsan.

Görürəm, zəhərli milçəklər əldən salıb səni, qanın yüz yerdən çeşmə kimi göz verib; qururunsa səni heç acıqlanmağa da qoymur.

Günahsızdılar, amma sənin qanına susayıblar onlar, qansız ürəkləri onları qana yerikləyir, ona görə də onlar səni günahsızcasına sancırlar.

Amma sən dərin insansan, sən ən kiçik yaralardan dərin əzab çəkirsən; və hələ tamam-kamal sağalmamış zəhərli qurd təzədən yarana daraşır.

Bu qarınquluları öldürməyə qururun yol vermir. Amma özünü gözlə ki, onların zəhərli zorakılığını çəkmək sənin tale yazına dönməsin!

Onlar öz tərifləri ilə sənin böyür-başında vızıldaşır, tərifləri – zəhlə tökməkdir . Onlara sənin dərinin, qanının təması gərəkdir.

Onlar sənə allaha, ya da ki şeytana yaltaqlanan sayaq yaltaqlanır, allahın, ya şeytanın qarşısındaymışlar kimi ciyildəşirlər. Nə etməli? Yaltaqdan, vizilçəkdən savayı bir şey deyil onlar.

Hərdən sənlə iltifatlı dolanırlar. Amma bunun da mayası qorxaqların bicliyidir. Bəli, qorxaqlar bicdir!

Öz dar qəlbləri ilə daim səni düşünürlər, – daim şübhəli görünürsən onlara! Nəyi çox düşünürlərsə şübhəli görünür onlara.

Bütün fəzilətlərin üçün səni cəzalandırırlar: tək bircə şeyi bağışlayırlar sənə – səhvlərini.

Mehriban, ədalətli olduğuna görə deyirsən: "onlar öz miskinliklərinə görə günahkar deyil". Halbuki onlar öz dar qəlblərində: "Bütün böyüklüklər günahkardır", – deyib durur.

Onlara qarşı nə qədər lütfkar olsan da sənin ikrahını duyur, xeyirxahlığının əvəzini gizli yamanlıqla qaytarırlar.

Sənin dilsiz-ağızsız qürurun onların zövqünü oxşamır; sənin bir anlığa da olsa şöhrətə uyduğunu görəndə bərkdən sevinirlər.

İnsanda anladığımız bir şey olanda od vurub yandırırıq onu. Miskin adamlardan özünü gözlə!

Sənin qarşında onlar öz miskinliyini duyurlar; və onların alçaqlığı görünməz bir intiqam odunda alovlanır.

Görmədinmi, sən gələn kimi necə susdular, taqət də, tüstü sönən alovu tərk edən kimi, onları tərk etdi?

Hə, dostum, yaxındakıların sən vicdan tənəsisən: çünki onlar sənə layiq deyil. Ona görə sənə nifrət edir və qanını ləzzətlə sorardılar.

Yaxındakıların daim zəhərli milçəklər olaraq qalacaq; səndə böyüklük adına nə varsa, – onları daha zəhərli edəcək və milçəyə daha çox bənzədəcək onları.

Qaç, dostum, öz tənhalığına qaç, sərt, səfalı küləyin əsdiyi yerlərə qaç! Sənin alnına milçəkqıran olmaq yazılmayıb. –

Zərdüşt belə dedi.

İSMƏT HAQQINDA

Meşəni sevirəm. Şəhərdə yaşamaq çətindir: ehtiraslı adamlar çoxdur orada.

Ehtiraslı qadının yuxusuna girməkdənsə qatil əlinə düşmək yaxşı deyilmi?

Bu kişilərə bir baxın: gözlərindən oxunur ki, onlar dünyada qadınla yatmaqdan gözəl bir şey bilmirlər.

Qəlblərin dibinə çirk yığılıb, və vay halına ki, bu çirkin hələ ruhu da ola!

Ah, siz barı heyvanlar kimi mükəmməl olsaydınız! Amma heyvanlın günahsızlığa malikdir.

Məyər mən – hisslərinizi öldürün, – deyirəm sizə? İstəyirəm hisslərniz məsum olsun.

Məyər mən ismət tövsiyə edirəm sizə? İsmət kimi üçün fəzilət, çoxları üçün isə demək olar ki, qüsurdur.

Onlar özlərini [zinadan] birtəhər saxlayırlar, amma qol qoyduqları hər işdən qancıq hissiyyatı boylanır.

Hətta fəzilətlərinin zirvəsinə, sərt ruhlarına qədər bu heyvan öz çəkişmələri, nifaqları ilə izləyir onları.

Və bir tikə cismi ondan əsirgəyəndə, bir tikə ruh üçün necə ilan dili çıxarır bu qancıq hissiyyatı!

Faciələri, ürək parçalayan şeyləri sevirsiniz, deyilmi? Mən isə sizin qancığınıza şübhəylə yanaşıram.

Gözlərinizdən qəddarlıq yağır, şəhvətlə baxırsınız əzabkeşə. Mərhəmət dediyiniz şey sadəcə libasını dəyişmiş şəhvət deyilmi?

Bir rəmz deyim sizə: çoxları şeytanı qovmaq istərkən özləri "donuzların içinə girdi" (bu sutat İncildəndır – H.H.).

İsmətin çətin göründüyü kəslərə onu kənara qoymaq tövsiyə edin: qoy o cəhənnəm yoluna, yəni qəlbin lehmə və şəhvətinə dönməsin!

Murdar şeylərdən danışıram? Məncə yox, bundan betərləri də var.

İdraklı insan həqiqətin suları çirkli olanda deyil, dayaz olanda o suya girməyə sevmir.

İliyinəcən ismətli olanlar da var: onların ürəkləri sizinkindən daha yumşaq, gülüşləri daha boldur.

İsmətin özünə də gülür onlar, soruşurlar: "İsmət nə olan şeydir?

Dəlilik deyilmi ismət? Amma bu dəlilik özü gəlib bizi tapıb, biz onu yox.

Biz bu qonağa sığınacaq və qəlbimizdə yer verdik: indi bizimlə yaşayır, – qoy istədiyi qədər qalsın”! –

Zərdüşt belə dedi.

DOST HAQQINDA

“Hər zaman tək qalmaq mənə çoxdur” – tərki-dünya insan belə düşünür. “Bir ilə bir vaxtı gəldikdə ikiyə çevrilir».

“Mən” hər dərd-sərimi öz “Mənim”lə bölüşürəm, görəsən dost olmasa adam buna necə dözə bilər?

Tərki-dünya insanı üçün dost həmişə üçüncü şəxsdir: üçüncü şəxs elə bir maneədir ki, iki nəfərin söhbətini dərin uçuruma yuvarlanmağa qoymur.

Ah, bütün tərki-dünyaların çox dərin uçurumları var! Buna görə də onlar daima dost və dostun böyüklüyü həsrətindədirlər.

Bizim başqalarına inamımız özümüzə nə yerdə inanmaq istədiyimizdən xəbər verir. Bizim dost həsrətimiz əslində öz casusumuzdur.

Çox vaxt məhəbbət bizə yalnız paxıllığı dəf etmək üçün lazım olur. Çox vaxt ona görə hücum edib düşmən qazanırlar ki, özlərinin hücuma məruz qala biləcəklərini gizlətsinlər.

Dostluq diləməyə cəsarəti çatmayan əsl ehtiram: “Heç olmazsa düşmənim ol”! – deyir.

Dost tapmaq istəyən gərək onun üçün savaşsın; savaşmaq üçün isə düşmənçilik etməyi bacarmalısan.

Sənin dostun, eyni zamanda düşmənindir və sən bu düşmənə də hörmət etməlisən.

Dostuna yaxınlaşıb onun tərəfinə keçməməyə bilərsənmi?

Dostunun sənin ən qatı düşmənin olmalıdır. Onun ziddinə gedəndə də qəlbən ona ən yaxın adam sən olmalısan.

Dostunun qarşısında maskalanmaq istəmirsən? Dostun fəxr etməlidir ki, sən ona öz əsl simanı göstərirsən? Amma bununçün onun səndən zəhləsi gedir.

Özünü sirr pərdəsinə bürüməsən camaatın sənə açığı tutacaq, halbuki lüt adamdan qorxmağa heç bir əsasımız yoxdur! Əlbəttə allah olsaydınız, öz geyiminizdən utanmağa bacarardınız!

Özünü dostun üçün sən yetərincə gözəl bəzənə bilməzsən, çünki sən onun üçün ox və fövqəlinsan həsrəti olmalısan!

Dostunun əslində necə olduğunu bilmək üçün ona heç yatan yerdə baxmısanmı? Əslində dostunun sifəti nədir axı? Bu sənin özünün bir az nahamar, kələ-kötür güzgüdəki əksindir.

Dostunu heç yatan yerdə görmüsənmi? Onun görkəmi səni qorxutmadı ki? Of, dostum, insan belə bir şeydir ki, özündən yüksəyə qalxmalıdır.

Dostun səni duymaqda da, susmaqda da mahir olmalıdır. Elə şeylər var ki, kərək sən də görməməzliyə vurasan. Sənin yuxun dostunun ayıqlıqda nə etdiyindən sənə xəbər verməlidir.

Sənin mərhəmətin ali duyğu olmalıdır: amma gərək əvvəl biləsən görək dostunun bu mərhəmətə ehtiyacı varmı? Bəlkə o səndəki soyuq gözləri və əbədiyyətə dikilmiş baxışları sevir?

Dosta mərhəmət çox sərt qılafın içində gizlənməlidir, ona diş batıran bu dişdən əli çıxacağını da gözü altına almalıdır. Onda ancaq bu mərhəmət zərif və şirin olacaq.

Sən dostun üçün təmiz havanı, tənhalığı, çörəyi, dərmanı əvəz edə bilərsənmi? Bəzən insan öz zəncirini qıra bilmir, amma dust üçün xilaskar olur.

Köləsənmi? Onda səndən dost çıxmaz. Zalımsanmı? Onda sənin dostun ola bilməz.

Çox-çox illər uzunu qadın xislətində kölə və zalım gizlənmişdi. Ona görə qadın hələ də dostluğa qabil deyil: o yalnız məhəbbəti tanıyır.

Qadın məhəbbəti sevmədiyi hər şeyə qarşı ədalətsiz və kordur. Arvadların şüurlu məhəbbətində də gözlənilməzlik və ildırım var, gündüz də gecədən uzaq deyil!

Qadın hələ dostluğa qabil deyil: arvadlar hələ də təbiətən pişik və quş olaraq qalır. Ya da ən yaxşı halda inək.

Qadın hələ dostluğa qabil deyil. Bəs siz, kişilər, deyin görək, sizlərdən kim dostluğa qabildir?

Kişilər, yazıqlar olsun sizin ruhi yoxsulluğunuza, simicliyinizə! Sizin dostlarınıza verdiyinizi mən düşmənimə verər və bundan qətiyyən kasıb düşməzdim.

Yoldaşlıq var: kaş dostluq da olaydı!

Zərdüşt belə dedi.

MİN BİR MƏQSƏD HAQQINDA

Zərdüşt çox ölkələr gəzdi, çox xalqlar gördü: hər dürlü xalqın xeyirinə də bələd oldu, şərinə də. Cümlə-cahanda xeyirdən və şərdən ulu qüvvət tapmadı.

Heç bir xalq dəyərləndirmə keçirmədən yaşaya bilməz: əgər o özünü qoruyub saxlamaq istəyirsə, verdiyi qiymət qonşununkunun eyni olmamalıdır.

Bir xalqın yaxşı dediyi şey başqasında eyib və rüsvayçılıq sayılır: belə gördüm. Burada lənətlənən çox şeylər orada dəfnə çələngi ilə bəzədilir.

Qonşu qonşunu heç vaxt anlamayıb: onun qəlbi müdam qonşunun axmaqlıq və qəddarlığından təcüblənib.

Hər xalqın başı üstündə xeyirxahlıq lövhəsi asılıb. Yaxşı bax, bu onun özünü yenmə lövhəsidir, bax, bu onun hakimiyyət istəyinin səsidir.

Ona çətin görsənən hər şeyi tərifləyir; labüd və çətin şeyləri yaxşı, onu ən böyük ehtiyacdan qurtaran nadir və müşkül şeyləri isə müqəddəs adlandırır.

O, ona hökm etməyə, zəfər çalmağa, qonşularını qorxu və həsəddən çatlatmağa imkan verən şeyə zirvə, labüd başlanğıc, meyar və hər şeyin mənası sanır.

Doğrudan da, qardaşım, bir xalqın ehtiyacını, torpağını, səmasını, qonşusunu tanısan, onun qələbələrinin sirri də, nəyin naminə pillələrlə ümidinə sarı dırmandığı da sənə aydın olar.

“Daim birinci olmalı, hamının önündə dayanmalısan; sənin qısqanc qəlbin dostundan savayı kimsəni sevməməlidir”, – bu sözlər yunanın qəlbini sarsıdırdı; və o öz möhtəşəm yolunu gedirdi.

“Həqiqəti söylə, ox-yayla usta davran”, – bu mənim adımın da mənsub olduğu xalqa – adı mənim üçün eyni dərəcədə əziz və ağır olan bir xalqa həm əziz həm də ağır gəlirdi.

“Ata-anaya ehtiram göstər, ruhunun dərin qatlarında da onların xidmətində dayan” – bu vəsiyyəti isə özgə bir xalq başı üstündən asdı, bununla özünü qüdrətə və əbədiyyətə qovuşdurdu.

“Sadiq ol, sədaqət naminə lap şər və xatalı işlərdə də qanını axıtmaqdan çəkinmə” – başqa bir xalq bunu öyrənərək özünü yendi və beləliklə böyük ümidlərə yiyələndi.

Həqiqətən, insanlar özünün bütün xeyir və şərini özləri yaradıblar. Həqiqətən, onlar bu xeyir və şəri nə tapıblar, nə də bu onlara ilahi vəhy kimi nazil olub.

İnsan özünü saxlamaq üçün əvvəl-əvvəl şeylərə dəyər verdi – əvvəlcə o şeylərin mənasını yaratdı, insani mənasını! Ona görə o özünə insan deyir, yəni sərraf!

Sərrəflıq – qiymət vermək – yaratmaqdır: eşidin, ey yaradanlar! Qiymət vermək özü bütün qiymətləndirilən şeylərin ən qiymətlisidir, incisidir.

Dəyər qiymətləndirmədən törəyir; qiymətləndirmə olmasa, – həyat bir çürük qoza dəyməzdi. Dinləyin, ey yaradanlar!

Dəyərlərin dəyişməsi – yaradanların dəyişməsidir. Yaradan olmaq istəyən daim məhv etməlidir.

Yaradanlar əvvəl xalqlar, çox sonralar ayrı-ayrı fərdlər olub; əslində ayrıca fərd özü yaranışın ən yeni təzahürlərindəndir.

Bir vaxt xalqlar boyunlarına xeyir lövhəsi asmışdılar. Hökm və itaət istəyinin qovuşuğundan yaranmışdır bu lövhə.

Sürü hissi “Ego” hissindən daha qədimdir; və nə qədər ki təmiz vicdan sürü adlanır, yalnız vicdansızlar “Ego” deyirlər.

Doğrudan da hiyləgər, sevgidən məhrum, öz xeyrini çoxluğun xeyrində axtaran “Ego” sürünün başlanğıcı deyil, əksinə, onun süqutudur.

Sevənlər həmişə yaradanlar olub, xeyir və şəri onlar yaradıblar. Bütün fəzilətlərin adlarında sevgi və qəzəb odu közərir.

Zərdüşt çox ölkələr gəzdi, çox xalqlar gördü: cümlə-cahanda sevənlərin işlərindən ulu qüvvət tapmadı: onların adı “xeyir” və “şər”dir.

Düzü bu tərif və danlaq hakimiyyəti bir zırpı əjdahadır. Deyin, qardaşlar, kim mənim üçün onun öhdəsindən gələr? Deyin, kim bu heyvana min peysərlik buxov ata bilər?

İndiyəcən min məqsəd vardı, çünki xalqların sayı min idi. İndi yalnız bu min peysərin buxovu çatmır, vahid bir məqsəd çatışmır. Hələ bəşəriyyətin məqsədi yoxdur.

Amma deyin görək, qardaşlar: əgər bəşəriyyətin məqsədi yoxdursa, onun özü də yox sayılırmı? –

Zərdüşt belə dedi.

YAXIN ADAMINA MƏHƏBBƏT HAQQINDA

Yaxınlarınıza sarı darbınır, üstəlik buna dair gözəl sözlər tapıb deyirsiniz. Mənsə sizə deyirəm ki, sizin yaxın adamlarınıza olan sevginiz özünüzə xarab sevginizin nəticəsidir.

Siz yaxın adamların yanına öz əlinizdən qaçır, adını da fəzilət qoyursunuz. Mənsə sizin "fədakarlığınıza" yaxşı bələdəm.

"Sən" "Mən"dən uludur; "Sən" deyimində müqəddəslik var, "Mən"də yox; odur ki, insan yaxın adamına can atır.

Yaxın adamlarınızı sevməyimi tövsiyə edirəm sizə? Əksinə, yaxınlardan qaçmağı, uzaqları sevməyi sizə tövsiyə edirəm!

Uzaq adamlara, gələcək adamlara məhəbbət yaxın adamına məhəbbətdən uludur; şeylərə, xəyallara məhəbbət insana məhəbbətdən uludur.

Qabağında duran bu Kabus səndən gözəldir; nə üçün sən öz ətini, sümüyünü ona verməyəsən. Amma sən qorxub yaxın adamının yanına qaçırsan.

Özünüzlə dil tapıb yola getmir, qədərincə sevmirsiniz özünüzü; bu üzdən yaxın adamlarınızı tovlayıb sizi sevməyə təhrik edir, özünüzü onların axmaqlığı ilə mükafatlandırırsınız.

Kaş siz nə yaxın adamlarınızla, nə də onların qonşularıylə yola getməyəydiniz, onda siz özünüz özünüzdən öz mehriban dostunuzu yaradardınız.

Öz barənizdə yaxşı bir söz demək istəyəndə şahid tapırsınız; elə ki, onları yoldan çıxarıb sizin barənizdə yaxşı düşünməyə vadar etdiniz, onda özünüz də öz gözünüzdə ucalırsınız.

Yalançı yalnız bildiyinin əksini söyləyən adam deyil; əsl yalançı bilmədiyini danışandır. Özgələrlə öz haqqınızda siz məhz belə danışır, qonşunuzu özünüz haqqında aldadırsınız.

Ağıldan kam adam deyir: "İnsanlarla ünsiyyət xasiyyəti korlayır, – illah da o olmayanda".

Kimi yaxın adamlarının yanına özünü axtarmağa gedir, kimi özünü unutmağa. Özünüzə olan bu xarab sevginiz tənhalığı sizin üçün məhbəsə çevirib.

Yaxın adamlara məhəbbətinizin qarşılığını uzaq adamlar ödəyir; və əgər beşiniz bir araya yığılsa, altıncı hökmən ölməlidir.

Sizin bayramlarınızı da sevmirəm; oyunçu həddən artıq çoxdur, tamaşaçılar da özlərini oyunçudan beşbetər aparır.

Sizə yaxın adam haqqında yox, dost haqqında dərs deyirəm. Qoy dost sizin üçün yer üzünün bayramı, fövqəlinsan yanğısı olsun.

Sizə dostluqdan, odlu dost qəlbindən dərs deyirəm. Amma odlu ürəklə sevilmək istəyən hər şeyi mənimsəmək bacarmalıdır.

Mən sizə kamil, yaradan, – öz kamil dünyasını bəxş etməyə hər an hazır dost haqqında dərs deyirəm...

Dünya onun üçün məhvərindən qopsa da yenə öz çərxına qayıdır, – xeyir şərdən, zərurət təsadüfdən törəyib artan kimi.

Bu gününün səbəbi gələcək və ən uzaqlar olmalıdır: dostunun simasında öz səbəbin kimi sən fövqəlinsanı sevməlisən.

Qardaşlarım, sizə yaxınları sevməyi məsləhət görmürəm: məsləhətim uzaqları sevməkdir.

Zərdüşt belə dedi.

YARADANIN YOLLARI HAQQINDA

Tənhalığa çəkilmək istəyirsən, qardaş? Səni özünə qaytaran yolu axtarırsan? Bir az ayaq saxla, məni eşit.

Sürü deyir ki, “Axtaran özünü də itirər. Tənhalıq günahdır”. Necə vaxtdır sən də sürüdən idin.

Sürünün səsi sənin öz içində hələ çox səslənəcək. Desən ki, “mənim vicdanim sizinkindən deyil”, – bu şikayət və nalə kimi səslənəcək olacaq.

Bax, bu nalə hələ ki parçalanmamış vicdandan gəlir, – vicdanın bu son işartısı sənin kədərində gözərəçək.

Sən öz kədərin yolunu getmək istəyirsən, bu elə sənin özünə gedən yoldur. Göstər görüm, sənin buna haqqın və gücün çatar?

Yeni qüvvəsənmi? Yeni haqsanmı? İlk təkansanmı? Öz-özünə diyirlənən təkərsənmi? Ulduzların özünü sənin başına dolanmağa vadar edə bilərsənmi?

Ah, nə qədər yüksəklik düşkünləri var? Nə qədər şöhrət əsirləri var! İnandır məni ki, sən də bu düşkünlərin, bu əsirlərin bir tayı deyilsən!

Nə qədər böyük fikirlər var ki, üfürülmüş hava şarına bənzəyir: havanı şara üfürürlər, amma o əslində yenə də boş qalır.

Özünü azadmı sanırsan? Mənə ən əsas duyğundan danış, zəncirləri ğırmağından yox.

Sənin zəncirini qırmağa haqqın çatırdımı?

Elə adamlar var ki, öz köləliyini itirməklə son zərrə dəyərini də itirir.

Nələrdən azad oldun? Zərdüştün bununla nə işi var? Amma aydın gözlərin mənə deməlidir, bu azadlıq sənin nəyinə gərəkdir?

Özün-özünə öz yaxşısını və yamanını verə bilərsənmi; öz iradəni qanun kimi başının üstündən asa bilərsənmi? Özün-özünə hakim olub lazım gəlsə, bu qanun adından özünü məhşər ayağına çəkə bilərsənmi?

Öz qanununun hakiminlə və cəlladı ilə üz-üzə qalmaq dəhşətdir. Elə bil ki, ulduzu boş fəzaya və təkliyin buz nəfəsi içinə atırsan.

Ey yalqız insan, hələ ki çoxlunun iztirabını çəkirsən: hələ ki nə cəsarətini, nə də ümidini itirməmisən.

Amma gün gələcək tənhalıq səni bezdirəcək, qürurun qırılacaq, cəsarətin tükənəcək. Gün gələcək: “Mən tənhayam”! – deyib haray təpəcəksən.

Gün gələcək yüksəkliyin əlçatmaz, alçaqlığın isə bircə addımlığında olacaq; öz alicənablığın səni bir Kabus kimi qorxudacaq. Gün gələcək “hər şey yalandır” deyib nalə çəkəcəksən.

Elə hisslər var ki, qəsdləri tənhaların axırına çıxmaqdır, bunu ki edə bilmədilər, gərək özləri ölələr! Bəs sənin əlindən qatillik gələrmi?

“İkrah” deyilən söz sənə, tanışdırmı, qardaş? Bəs sənə nifrət edənlərə qarşı ədalətli olmaq işgəncəsi necə?

Çoxlarını səni yenidən tanımağa vadar edərsən, onlar isə bunun hayıfını səndə qoymayacaq. Necə ola bilər; onlara bu qədər yaxınlaşmışdın, amma yan keçdin? Bunu sənə heç vaxt bağışlamayacaqlar.

Sən onlardan yüksəkdəsən; amma nə qədər zirvəyə qalxırsansa, paxıllığın gözündə o qədər kiçilirsən. Başları üzərində uçanları isə belələrinin heç görməyə gözü yoxdur.

“Hansı yolla mənimlə ədalətli olmaq istərdiniz”! – deməlisən. – “Mən qismətimə ədalətsizliyinizi seçirəm”.

Tənhaların başına haqsızlıq və çirkab yağdırırlar; amma, qardaşım, ulduz olmaq istəyirsənsə, onlardan, nə olur-olsun, işığını əsirgəməməlisən.

Özünü xeyirxahlardan, ədalətlilərdən gözlə. Onlar özləri öz fəzilətini icad edən adamları dar ağacına çəkirlər – yalqıza nifrət edirlər.

Özünü müqəddəs sadəlövhlükdən də qoru! Sadə, bəsit olmayan hər şey ona natəmiz görünür, o tonqalların oduyilə oynamağı sevmir.

Özünü sevgi tutmalarından gözlə! Yalqız insan rastına çıxan hər kəsə çox tez əl uzadır.

Elə adamlar var ki, onlara əl yox, pəncə uzatmaq lazımdır, kaş hələ pəncənin caynaqları da olaydı!

Amma rastlaşacağın ən qorxulu düşmən həmişə sən özün olacaqsan; keçdiyin meşələrdə, hər dəlmə-deşikdə özün öz pusqunda durursan.

Yalqız insan, sən özünə tərəf yol gedirsən. Bu yol sənin özündən və yeddi şeytanından qabaqda gedir.

Sən özün özünə kafir də, cadugər də, münəccim də, sarsaq da, şəkkak da, mürtəd də, zalım da olmalısan.

Yalqız insan, sən yaradanların yolu ilə gedirsən, öz yeddi şeytanından özünə Allah yaratmaq istəyirsən.

Yalqız insan, sən sevənlərin yolu ilə gedirsən: sən özünü sevirsən, özünə nifrətin də bundan doğur, yalnız sevənlər belə nifrət edə bilər.

Sevən nəsə yaratmaq istəyir, çünki o nifrət edir! Sevdiyinə nifrət etməyən kəs nə bilir sevgi nədir.

Tənhalığa öz sevginlə və öz yaradıcı işinlə çəkil, qardaş, çox-çox sonralar haqq-ədalət axsaya-axsaya dalınca gəlib çatacaq.

Tənhalığa çəkiləndə mənim göz yaşlarımı da özünlə apar, qardaş. Mən özünün fövqündə yaratmaq istəyənləri və bundan ölənləri sevirəm. –

Zərdüşt belə dedi.

CAVAN VƏ QOCA ARVADLAR HAQQINDA

Gecənin bu aləmi gizlin-gizlin hara gedirsən, Zərdüşt? Büründcək altında gizlətdiyin nədir? Sənə bağışlanmış xəzinə, ya səndən doğulmuş uşaq? Yoxsa sən də oğurluğa qurşanmısan, şərin dostu?

– Elədir, qardaş, – Zərdüşt dedi. Bu bir xəzinədir, mənə bağışlayıblar: yanımca gəzdirdiyim bir həqiqətdir.

Özü də o körpə uşaq kimi narahatdır; ağzını yummasan səsi aləmi başına götürər.

Bu gün qürub çağı tək-tənha yolumla gedirdim. Qabağıma bir qoca qarı çıxdı və qəlbimin içinə belə danışdı "Zərdüşt biz arvadlara çox söhbətlər eləyib, amma arvadların özü haqqında heç vaxt danışmayıb".

Ona cavab verdim ki, "Arvad barədə kişiylə danışarlar".

"Mənə də danış", qarı qır-saqqız olub əl çəkmək bilmədi, "onsuz da qocalmışam, dediyini o saat unudacam", – dedi.

Əlaçım kəsildi, arvada dedim: "Qadın təpədən-dırnağa müəmmadır, bu müəmmanın isə tək birə həlli var: onun adı hamiləlikdir.

Qadın üçün kişi vasitədir: məqsəd isə həmişə uşaq olaraq qalır. Bəs kişi üçün arvad nə deməkdir?

Əsl kişi iki şeyə meyl edir: təhlükəyə və oyuna. Arvadı da ona görə istəyir ki, o ən xətalı oyuncaqdır.

Gərək kişini hərb üçün, arvadı isə hərbçinin nazını çəkmək, yorğunluğunu çıxarmaq üçün tərbiyə edəsən: yerdə qalan boş şeydir.

Həddən artıq şirin meyvəni hərbçi ürəyi götürməz. Arvaddan ona görə beşəlli yapışıblar ki, dünyanın ən şirin qadınının da xəmrəsi acıdan tutulub.

Kişi nə qədər uşaqcanlı olur-olsun, arvad uşağa ondan yaxşı bələddir, amma kişi arvaddan daha çox uşaqdır.

Əsl kişi özü təbiətən uşaqdır, bu uşaq əylənmək istəyir. Qadınlar, kişinin içindəki bu uşağı tapa bilərsinizmi?

Qoy qadın almaz kimi təmiz və işıqlı bir oyuncaq olsun və hələ doğulmamış dünyanın fəzilətləriylə işıqlansın.

Qoy sevginizdə ulduz işığı görünsün! Qoy ümidiniz tək bu olsun: “Kaş fövqəlinsanı mən doğaydım!»

Qoy sevginizdə mərdlik olsun! Qorxduğunuz adamın üstünə sevginizlə gedin.

Qoy sizin şərəfiniz sevginizdə olsun! Yoxsa qadın nə bilir şərəf nədir? Amma qoy sizin şərəfiniz bunda olsun ki, sevildiyindən artıq sevəsiz və qoy şərəfiniz heç vaxt ikinci olmasın.

Qoy kişi, sevən qadından qorxsun, çünki qadın heç bir qurbandan çəkinmir, özgə nə varsa onunçün dəyərini itirir.

Qoy kişi, nifrət edən qadından qorxsun. Çünki ruhunun dərinliklərində kişi olsa-olsa yaramaz, qadın isə murdardır.

Qadın ən çox kimə nifrət edir, bilirsən? – Dəmir maqnitə deyir: “Bilsən sənə necə nifrət edirəm. Məni cəzb edirsən, özünə çəkirsən, amma yapışdırmağa gücün çatmır”.

“Mən belə istəyirəm” – kişinin səadəti budur. “O belə istəyir” – qadının səadəti isə budur.

Sevən ürəkdən tabe olan qadın – “Bax, dünya ancaq indi mükəmməl oldu” – düşünür.

Qadın həm tabe olmalıdır, həm də öz səthinə münasib dərinlik tapmalıdır. Səth qadının qəlbidir, dayaz suların üstündə olan ləpəli bir qaysaqdır.

Kişinin qəlbi isə dərindir, onun coşqun suları yeraltı mağaralarda cövlan edir; qadın onun gücünü duyur, amma dərk etmir. –

Onda qarı mənə qayıtdı ki: “Zərdüşt çox maraqlı sözlər söylədi, bunlar xüsusən gənclərimizə ayıtdır.

Qəribədir, Zərdüşt qadınları az tanıyır, ancaq onlar barəsində haqlıdır. Bəlkədə bu heç qəribə də deyil, arvad yanında mümkün olmayan şey var ki?

Al, əvəzində sənə xırdaca bir həqiqət pay verim. O daha mən qocanın gərəyi deyil!

Onu yaxşı-yaxşı bük, ağzını da tıxa, yoxsa bu həqiqət yaman çığırandır, səsi aləmi basar”.

Dedim: “yaxşı, qarı, o xırda həqiqətini bəri ver görüm”. Qarı nə desə yaxşıdır? “Arvadların yanınamı gedirsən? Qamçını yaddan çıxarma”! –

Zərdüşt belə dedi.

İLANIN SANCMASI HAQQINDA

???Bir gün Zərdüşt əncir ağacının altında yatmışdı, isti idi, o, əlini üzünə qoymuşdu. Bu vaxt bir ilan gəlib boynundan sancdı ki, Zərdüşt ağrıdan qışqırdı. O, əlini üzündən çəkdi və ilana baxdı; onda ilan Zərdüştü tanıdı, yendəmsiz halda dönüb getmək istədi. "Dayan görək, – Zərdüşt dilləndi, –əvvəl təşəkkürümü qəbul et! Məni vaxtında oyatdın, yolum yaman uzaqdır". İlan dərdli-dərdli: "Yox, yolun çox qısadır, –de-di, – mənim zəhərim tez öldürür". Zərdüşt gülümsündü. "Nə vaxtdan bəri əjdaha ilan zəhərindən ölür? – dedi.

–Amma hər halda gəl zəhərini geri götür. O qədər varlı deyilsən ki, mənə belə hədiyyə verəsən". Onda ilan yenidən onun boynuna sarılıb yarasını yalamağa başladı.

Zərdüşt bunu öz əshabələrinə danışanda onlar soruşdular: – "Zərdüşt, bu əhvalatda nə ibrətamiz, əxlaqi cəhət var"? Zərdüşt buna belə cavab verdi:

– Xeyirxahlar və ədalətlilər mənə əxlaqı dağıdan deyir: danışdığım əhvalatın da əxlaqı yoxdur.

Düşmənini varsa, heç vaxt onun pisliyinə yaxşılıqla cavab verməyin: çünki bununla onu utandırırsınız. Əksinə, sübut edin ki, sizin üçün yaxşı bir iş görüb.

Ona qəzəblənin, amma onu utandırmayın! Sizi lənətləyirlərsə, alqış etməyiniz mənim xoşuma gəlmir. Siz də onlara qoşulub bir azca lənətləsəniz, yaxşı olar!

Sizə qarşı böyük bir haqsızlıq ediblərsə, siz də tez beş xırda-para haqsızlıq edin! Haqsızlığın yalnız bir adamı necə əzdiyini görmək dəhşətdir.

Bunu bilmirdiniz mi? Başqaları ilə haqsızlığı bölüşmək haqqın yarısıdır. Haqsızlığı o kəs öz üstünə götürməlidir ki, bunu daşımağa gücü çatsın!

Kiçik də olsa bir qisas almaq heç almamaqdan daha insani bir şeydir. Əgər verilən cəza qayda pozanın haqqı deyilsə və ona şərəf gətirmir, onda bələ cəza nəyə lazımdır?

Haqlı ola-ola özünü haqsız hesab etmək, haqlı olduğunu sübut etməkdən daha alicənab bir işdir. Amma insan bunun üçün gərək kifayət qədər zəngin olsun.

Sizin soyuq ədalətinizi sevmirəm; sizin hakimlərin gözlərində həmişə cəllad və onun bıçağını görürəm.

Deyin, hanı elə bir ədalət ki, mayası gözüaçıq sevgidən yoğrulsun?

Mənə elə bir sevgi göstərin ki, yalnız cəza verən deyil, günahıda öz üstünə götürəndir.

Mənə elə bir ədalət göstərin ki, məhkum edəndən savayı hamıya bəraət qazandırsın!

Bunu da dinləmək istəyirsinizmi? Tam ədalətli olmaq istəyən kəsin gözündə yalan da xeyriyyəçiliyə çevrilir.

Tam ədalətli olmağı necə də istərdim! Onda mən hər kəsə əməlinə görə verərdim! İndilik təsəllim odur ki, hamıya özümdən nəsə verirəm.

Və sonda, qardaşlar, nəbadə tərki-dünyalara qarşı haqsızlıq edəsiniz! Tərki-dünya adam unutmağı bacarmır! O əvəz çıxmağı da bacarmır.

Tərki-dünya adam dərin quyu kimidir. Ora daş atmağa nə var, amma elə ki, daş quyunun dibinə düşdü, onu dartıb çıxartmaq istəyən olacaq mi?

Tərki-dünya adamın qəlbinə dəyməkdən qorxun! İşdir, onu incitdinizsə, onda onu öldürsəniz yaxşıdır!

Zərdüşt belə dedi.

UŞAQ VƏ AİLƏ HAQQINDA

Sənə bir sualım var, qardaşım; bu sualı bir şaqul kimi sənin qəlbinə atıram ki, onun dərinliyini öyrənəm.

Cavansan, uşaq, ailə istəyirsən. Səndən soruşuram: sənin kimi bir adamın uşaq arzulamağa haqqı varmı?

Sən özün qalibsənmi? Özün özünə qalib gələ bilmisənmi? Öz hisslərinin sultanısan mi? Fəzilətlərinin ağasısan mi? Səndən soruşuram.

Yoxsa səni dilləndirən vəhşilik və tələbatdır? Bəlkə tənhalıq? Özündən narazılıq?

İstəyirəm ki, qələbən də azadlığın da uşaq həsrətində olsunlar! Sən qələbənə və azadlığına canlı heykəllər qoymalısan.

Özündən yüksəkdə bir şey tikməlisən. Amma gərək əvvəlcə bədənin və ruhun düzqatlı şəkildə tikilməlidir.

Sən təkcə artmağın deyil, yüksəlmənin qeydinə qalmalısan. Qoy nikah bağı bu yolda sənin yardımçın olsun.

Daha ali bir vücud yaratmalısan, ilk təkan, öz-özünə diyirlənən təkər – qısası: yaradanın özünü yaratmalısan.

Nikah deyəndə mən yaradanların özlərindən daha kamil bir məxluq yaratmaq naminə qovuşmaq istəyini başa düşürəm. Mən eyni iradə sahiblərinin bir-birinə qarşılıqlı ehtiramına nikah deyirəm.

Sənin nikahının mənası və məğzi bu olmalıdır. Amma çoxlarının nikah adlandırdığı bu lüzumsuz şey – ah, heç bilmirəm buna nə ad verim?

Ah, cütlüyün bu ruh kasıblığı! Ah, cütlüyün bu ruh iyrəncliyi! Ah, cütlüyün bu miskin mənəmliyi!

Onlar bütün bunları nikah adlandırır; üstəlik deyirlər ki, kəbinlərini göydə Allah kəsib.

Eləsə, mən bu artıq insanların göylərini istəmirəm! Yox, bunlar, göylərin torunda dolaşmış heyvanlar mənə gərək deyil.

Qoy özünün düzüb qoşmadığı bir işə xeyir-dua vermək üçün ağsay-ağsay gələn Allah məndən uzaq olsun!

Belə nikahlara gülməyin! Bəxtinə belə valideyn düşən hansı uşağın acı göz yaşı tökməyə haqqı çatmır?

Bir kişini çox ləyaqətli, torpağın mənası üçün yetişmiş adam sanırdım, amma elə ki, onun arvadını gördüm, yer üzü gözümdə dəlixanaya döndü.

Kaş ki pirlə gic toyuq cütləşəndə yer üzü lərzəyə gələydi.

Biri qəhrəman tək həqiqət axtarışına çıxdı, qazancı isə bəzənmiş-düzənmiş kiçik bir yalan oldu. O, yazıq özü buna nikah deyir.

O birisi hər adamla oturub-durmaz, müsahibinə də tələbkarlıqla yanaşardı. Amma axırda özünə elə bir müsahib seçdi ki, çəmi gördüyü günlər burnundan gəldi: o buna nikah deyir.

Üçüncüsü özünə mələk xislətli bir qulluqçu axtarırdı. Amma iş elə gətirdi ki, vurdu özü bir arvadın quluna döndü, indi gərək özü mələk ola.

Mal alanları həmişə ehmallı görmüşəm, bir şeyi almazdan yüz ölçüb bir biçərlər. Di gəl, dünyanın ən kələkbaz adamı da arvadı elə bil gözüyumulu alır.

Bir yığın qısamüddətli dəli-divanəlik – məhəbbət dediyiniz şey budur. Daha böyük bir dəlilik olan nikahınız bu qısamüddətli dəliliklərə son qoyur.

Nə ola, kaş arvada olan məhəbbətiniz və arvadın kişisinə məhəbbətini əzabkeş və pərdələnmiş allahlara qarşı mərhəmətə dönəydi! Amma yox, heyvanlar əsasən bir-birlərini tapır.

Sizin ən ülvi məhəbbətiniz şövqlü bir rəmz, ağrılı bir ehtirasdır. Məhəbbət isə, sizin ən yüksək zirvələrə gedən yolunuzu işıqlandıracaq bir məşəl olmalıdır.

Nə vaxtsa siz öz fövqünüzdə sevməlisiniz! Sevməyi öyrənməyə başlayın! Bunun üçün gərək sevginin acı badəsini nuş edəsiniz.

Ən dərin sevginin badəsi acı olar: Səni fövqəlinsan həsrətinə tutuşduran, sənin canına bu yaradan yanğısını salan bu sevgidir. Yaradanın ürəyində yanğını, fövqəlinsanın oxunu və həsrətini: de, qardaşım, nikahdan istədiyin budurmu?

Bu istəyə, belə nikaha mən müqəddəs deyirəm. –

Zərdüşt belə dedi.